RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 123 (9868) 18 iyun 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan ilə Fələstin arasında qarşılıqlı dəstək və həmrəylik var



### Azərbaycan Prezidenti İlham Əliyev Fələstinin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Fələstin Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Əhməd Metaninin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.**

2

## Azərbaycan ilə Koreya arasında münasibətlər uğurla inkişaf edir



### Prezident İlham Əliyev Koreya Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kımqu Kanqın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.**

2




# Uğurlu diplomatiya, yüksək nüfuz

Ümumiyyətlə, son illərdə Azərbaycan regionda və beynəlxalq aləmdə yüksələn nüfuzu ilə seçilir. Bu nüfuz yalnız ölkəmizin coğrafi mövqeyindən və təbii resurslarından qaynaqlanmır, həm də dövlətin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsidir. Azərbaycanın beynəlxalq aləmdə artan rolu müxtəlif sahələrdə özünü göstərir: enerji təhlükəsizliyi, mədəni diplomatiya, multikulturalizm, nəqliyyat-logistika layihələri və beynəlxalq tədbirlərə evsahibliyində və sairə də.

Azərbaycan zəngin neft və qaz ehtiyatlarına malik olmaqla yanaşı, bu resurslardan strateji şəkildə istifadə edir. Ölkəmizin enerji layihələri təkcə iqtisadi deyil, siyasi baxımdan da böyük nüfuz qazanır.

Əlbəttə ki, Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsi təsadüfi deyil. Bu, məqsədyönlü siyasətin və tarixi-mədəni zənginliyin vəhdətinin nəticəsidir. Geosiyasi, iqtisadi və mədəni sahələrdə aparılan uğurlu siyasət sayəsində Azərbaycan özünü dünya arenasında etibarlı, güclü və sülhsevər tərəfdaş kimi təqdim edir. Bu uğurların davamlı olması üçün daxili sabitliyin və xarici siyasətdə balanslı yanaşmanın qorunması xüsusi əhəmiyyət kəsb edir.

Ölkəmizin mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Hazırda Azərbaycan regionda və dünyada öz mövqelərini sürətlə möhkəmləndirən, sosial-iqtisadi baxımdan inkişaf edərək Avroatlantik məkana inteqrasiya olunan bir ölkədir.

Bütün bu uğurların yeganə səbəbi əlbəttə ki, ölkə lideri İlham Əliyevin yürütdüyü müstəqil siyasətdir. Azərbaycana rəhbərlik etdiyi 22 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, mövcudluğu tarixində ölkəmiz heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb.

Bu gün Azərbaycan siyasi-iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından dünyada ən qabaqcıl yerdədir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir. Bütün nailiyyətlər, möhtəşəm uğurlar İlham Əliyevin yüksəliş konsepsiyasının bəhrəsidir. Artıq heç kim Azərbaycanla təhdid dili ilə danışa bilməz. Bu fikirdə, bu niyyətdə olanlara İlham Əliyev çox mükəmməl şəkildə xəbərdarlıq edib: "Bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki mən Prezidentəm, belə qüvvə olmayacaqdır".

9

## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Qurtuluş Günü münasibətilə paylaşım edib




## Azərbaycan ədalətli dünya nizamının tərəfdarı olduğunu hər zaman əməli fəaliyyəti ilə nümayiş etdirir

### "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusunda Şuşada keçirilən beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

Müasir dövrdə dünyada olduqca mürəkkəb geosiyasi hadisələr baş verir. Milli, regional və qlobal təhlükəsizliyə qarşı çoxsaylı təhdidlərin yaranması və ölkələrin müxtəlif siyasi, hərbi, iqtisadi, mədəni, humanitar, ekoloji çağırışlarla üzləşməsi fonunda beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin meydana çıxması və yeni dünya nizamına keçid prosesi müşahidə olunmaqdadır. Belə bir şəraitdə dövlət maraqlarının, ölkələrin müstəqilliyinin və suverenliyinin qorunması, sülh, sabitlik, əməkdaşlıq və çoxtərəfli inkişaf naminə səylərin birləşdirilməsi müstəsna əhəmiyyətə malikdir.

BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinə baxmayaraq, 30 ilə yaxın ərazisinin 20 faizi işğal altında olmuş Azərbaycan ikili standartlarla, qərəzli və ədalətsiz münasibətlə üzləşmişdi. 44 günlük Vətən müharibəsi və 1 günlük antiterror əməliyyatı nəticəsində ölkəmiz ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə tam bərpa etdi. Beləliklə, müasir Azərbaycan dövlətini dərin sosial, iqtisadi və siyasi böhrandan qurtaran dahi şəxsiyyət, milli dövlətçilik ideologiyasının yaradıcısı Ümummilli Lider Heydər Əliyevin arzuladığı qalib və qüdrətli Azərbaycan dövləti formalaşdı.

Ədalətli dünya nizamının tərəfdarı olduğunu hər zaman əməli fəaliyyəti ilə nümayiş etdirən Azərbaycan nəinki yerləşdiyi Cənubi Qafqaz regionunun, həm də bütövlükdə Avrasiyanın dialoq və əməkdaşlıq məkanına çevrilməsinin tərəfdarı kimi çıxış edir. Dost və tərəfdaş ölkələrlə birlikdə həyata keçirdiyimiz layihələr regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verir, həm Şərq ilə Qərb, həm də Şimal ilə Cənub arasında konstruktiv və perspektivli işbirliyinə əlverişli zəmin yaradır. Dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmiş Azərbaycan Bandunq Prinsiplərinə daim sadiq qalaraq ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə müdafiə etmişdir.

Bu gün ədalətli dünya naminə yeni geosiyasi nizamın formalaşması dövlətlərin siyasi məsuliyyət prinsipinə əsaslanan ardıcıl və məqsədyönlü fəaliyyətindən asılıdır. Ölkələr məhz qarşılıqlı hörmət və etimada, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, müasir çağırışlara cavab verən səmərəli işbirliyi həyata keçirməklə bu prosesə layiqli töhfə verə bilərlər.

2025-ci il "Konstitusiya və Suverenlik İli" kimi respublikamızda təntənəli şəkildə qeyd olunur. Azərbaycan milli maraqları rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini cəsarətlə davam etdirir, öz konstitusiyasına, suveren hüquqlarına əsaslanaraq sülh, əməkdaşlıq və davamlı inkişaf naminə yeni dünya nizamının fəal iştirakçısı olmağa çalışır.

Azərbaycanın Milli Qurtuluş Günündə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə baş tutan bu mötəbər tədbirin dünyada cərəyan edən aktual məsələlərin müzakirəsi baxımından məhsuldar olacağına və ölkələrimiz arasında çoxşaxəli münasibətlərin inkişafına təkan verəcəyinə əminliyimi ifadə edərək, konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyun 2025-ci il*

## Azərbaycanla Şimali Makedoniya arasında münasibətlərin inkişafı məmnunluq doğurur



### Azərbaycan Prezidenti İlham Əliyev Şimali Makedoniya Assambleyasının sədrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Şimali Makedoniya Respublikası Assambleyasının sədri Afrim Qaşini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanla Şimali Makedoniya arasında münasibətlərin inkişafından məmnunluq bildirildi, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı. Əlaqələrimizin möhkəmlənməsində müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunuldu, bu xüsusda Şimali Makedoniya Prezidentinin ölkəmizə rəsmi səfəri və keçirilən səmərəli müzakirələr qeyd olundu. Qonaq vurğuladı ki, Şimali Makedoniya Azərbaycanı dost ölkə kimi qəbul edir.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə əlaqələrimizin perspektivlərinə dair müzakirələr aparıldı, Azərbaycan və Şimali Makedoniyanın qanunverici orqanları arasında əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu.

## Türk dövlətlərinin birlik və inkişaf platforması

Prezident İlham Əliyev TDT-yə dövlətimiz üçün ən vacib beynəlxalq təşkilat və Azərbaycanın təmsil olunduğu ailə statusunda xüsusi önəm verir: "Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır. Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik".

10

## Ermənistan yenə Azərbaycana şər atır

Azərbaycan ərazisinin hər hansı bir ölkə tərəfindən üçüncü ölkəyə, o cümlədən qonşu və dost İrana qarşı istifadə edilməsinin mümkün olmadığı rəsmən vurğulanıb. Bütün bunların fonunda Ermənistanda Azərbaycanın İsrailə dəstək verməsinə dair geniş kampaniya aparılması absurddur və bu, ölkənin hər fürsətdə Azərbaycana qarşı düşmənçilik mövqeyinin göstəricisidir.

11



# Azərbaycan ilə Fələstin arasında qarşılıqlı dəstək və həmrəylik var

## Azərbaycan Prezidenti İlham Əliyev Fələstinin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



*Əvvəli 1-ci səh.*



Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı xalqlarımızı dostluq və qardaşlıq əlaqələrinin birləşdirdiyini deyərək, səfirin ölkəmizdə fəaliyyəti dövründə bunun şahidi olacağına əminliyini bildirdi, xalqlarımız arasında münasibətlərin dövlətlərarası əlaqələr üçün də önəmli amil olduğunu vurğuladı. Əməkdaşlığın genişləndirilməsi üçün bundan sonra da birgə səylərin göstəriləcəyini deyən Azərbaycan Prezidenti bu xüsusda yüksəksəviyyəli müxtəlif qarşılıqlı səfərlərin önəminə toxundu. Dövlətimizin başçısı ikitərəfli siyasi əlaqələrimizi qeyd edərək, ölkələrimiz arasında qarşılıqlı dəstəyi və həmrəyliyi vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın Fələstin xalqının haqlı tələbini, İsrail-Fələstin münaqişəsinin "iki dövlət prinsipi" və BMT-nin müvafiq qərarları əsasında həllini, eyni zamanda BMT Baş Assambleyasında Fələstin məsələsi ilə əlaqədar keçirilən səsvermələrdə Fələstinin haqlı mövqeyini həmişə dəstəklədiyini bir daha bildirdi. Ölkəmizin Fələstinə göstərdiyi humanitar yardımı xatırladan Azərbaycan Prezidenti bunun gələcəkdə də davam edəcəyini dedi. Prezident İlham Əliyev Fələstinin ölkəmizdəki səfirliyinin uzun müddətdir fəaliyyət göstərməsini məmnunluqla qeyd edərək, bunun üçün Azərbaycan dövlətinin verdiyi dəstəyə toxundu.

Dövlətimizin başçısı Azərbaycanın daim İslam həmrəyliyinin gücləndirilməsinə çalışdığını dedi və bunun İslam Əməkdaşlıq Təşkilatı, onun rəhbər orqanları tərəfindən həmişə yüksək qiymətləndirildiyini vurğuladı. Bu təşkilatın Zirvə görüşünün gələn il Azərbaycanda təşkil ediləcəyini bildirən dövlətimizin başçısı belə mötəbər tədbirin keçirilməsi üçün ölkəmizin seçilməsini bütün müsəlman aləmində bizə olan xoş münasibət kimi qiymətləndirdi və Fələstinin də bu toplantıda yüksək səviyyədə təmsil olunacağına ümidvarlığını ifadə etdi.

Əhməd Metani Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mahmud Abbasa çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Fələstin Prezidentinin ölkəmizə rəsmi səfərini, həmçinin onunla beynəlxalq tədbirlər zamanı görüşlərini məmnunluqla xatırladı.

Səfir dövlətimizin başçısının 15 İyun - Milli Qurtuluş Günündə onu qəbul etməsindən böyük şərəf hissi keçirdiyini bildirdi. O, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ilə ölkəmizin çətin vəziyyətdən çıxdığını vurğuladı. "Biz Azərbaycan üçün hər zaman tərəqqi, həmçinin daha yüksək nailiyyətlər və əmin-amanlıq arzu edirik", - deyən səfir Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti və rəhbərliyi nəticəsində ölkəmizin regionda və dünya səviyyəsində çox mühüm bir dövlətə çevrildiyini qeyd etdi.

Söhbət zamanı siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlıq və dəstəkdən məmnunluq ifadə olundu.

# Azərbaycan ilə Koreya arasında münasibətlər uğurla inkişaf edir

## Prezident İlham Əliyev Koreya Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



*Əvvəli 1-ci səh.*

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında münasibətlərin uğurlu inkişafına toxunaraq, siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu vurğuladı, mütəmadi əsasda siyasi məsləhətləşmələrin və dialoqun aparıldığını qeyd etdi. Prezident İlham Əliyev siyasi və iqtisadi-ticari əlaqələrin daha da inkişafı üçün geniş imkanların olduğunu dedi, bu xüsusda ölkəmizin sənayeləşmə, həmçinin Azərbaycanın regionlarının inkişafı proqramları çərçivəsində əməkdaşlıq məsələlərinə toxundu.

Kımqu Kanq Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edərək, 15 İyun - Milli Qurtuluş Günündə Prezident İlham Əliyev tərəfindən qəbul edilməsinin onun üçün böyük şərəf olduğunu dedi. Səfir Koreya Respublikasının ozamankı Prezidenti Ro Mu Hyunun ölkəmizə rəsmi səfərini, həmçinin Prezident İlham Əliyevin Koreya Respublikasına dövlət səfərini xatırladı və bu səfərlərin əlaqələrimizin inkişafına ciddi təkan verdiyini vurğuladı.

Görüşdə ölkələrimiz arasında yüksək texnologiyalar, rəqəmsal transformasiya, elm, təhsil, o cümlədən peşə təhsili, tibb və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Səfir Ələt Azad İqtisadi Zonasının Koreya Respublikasının biznes dairələri üçün maraqlı olduğunu dedi. Söhbət zamanı Azərbaycanın siyasəti nəticəsində Cənubi Qafqaz regionunda sülh və sabitliyin təmin edildiyi diqqətə çatdırıldı, bu xüsusda Koreya yarımadasında da davamlı sülhün təmin olunacağına ümidvarlıq ifadə edildi.



# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əmək pensiyaları haqqında"AzərbaycanRespublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208(Cild I); 2024, № 2, maddə 137, № 5 (I kitab), maddələr 489, 491, № 6 (I kitab), maddə 644; 2025, № 1, maddə 16, № 2, maddələr 96, 105; Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6.2-ci maddəyə "kapitalına" sözündən sonra ",bu Qanunun 8-ci, 9.2-ci və 21.2.4-cü maddələrindəki güzəştlərə" sözləri əlavə edilsin;

1.2. 22.3-cü maddədə "qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən" sözləri "bu Qanunun 5.3-cü maddəsində nəzərdə tutulan qayda ilə" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanunun 1.1-ci maddəsi 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2025-ci il*

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 198-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, №3, maddə 228 (Cild I) 2.2-ci bəndində "və 22.3-cü maddələrində" sözləri "maddəsində" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2025-ci il*

# "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2279 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2279 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 486 (Cild I); 2024, № 5 (I kitab), maddə 516, № 8, maddə 936) ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın 154-cü bəndindən "və "İdarələrarası elektron sənəd dövriyyəsi haqqında Əsasnamə"yə" sözləri çıxarılsın.

2. "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 844 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1794 (Cild I); 2024, № 5 (I kitab), maddələr 516, 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə"nin 3.0.24-cü yarımbəndində "idarələrarası elektron sənəd dövriyyəsi sisteminin" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminin" sözləri ilə əvəz edilsin.

4."Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2014 (Cild I) 3.2-ci bəndi və 7-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2025-ci il*

# *Dövlət Komissiyası:* İtkin-şəhidlərin nəşlərinin ailələrinə təhvil verilməsi işi bundan sonra da intensiv aparılacaq

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Respublikasındakı Nümayəndəliyinin ölkəmizdə fəaliyyətini yaxın vaxtlarda dayandırması ilə bağlı itkin düşmüş vətəndaşların ailələrinin diqqətinə çatdırırıq ki, itkin düşmüş vətəndaşlarımızın taleyinin müəyyən edilməsi üçün Dövlət Komissiyası və aidiyyəti dövlət qurumları tərəfindən təxirəsalınmaz zəruri tədbirlər görülür, o cümlədən işğaldan azad edilmiş ərazilərdə axtarış, qazıntı və ekshumasiya işləri, aşkarlanmış meyit qalıqlarının eyniləşdirilməsi və şəxsiyyəti müəyyən edilmiş itkin-şəhidlərin nəşlərinin ailələrinə təhvil verilməsi işi bundan sonra da intensiv aparılacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yaydığı məlumatda bildirilir.

Qeyd edilir ki, Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hər zaman olduğu kimi, vətəndaşların müraciətlərinə baxılır, onlarla gündəlik təmaslar və İşçi qrupunda qəbullar davam etdirilir.

İtkin düşmüş yaxınları ilə bağlı məlumatların alınması, həmçinin onlara dair müvafiq materialların, ərizə və müraciətlərin təqdim edilməsi üçün vətəndaşlar info@human.gov.az elektron poçt ünvanı, 010-232-33-77 mobil telefon nömrəsi və 81-61 qaynar xəttindən istifadə etməklə İşçi qrupu ilə əlaqə saxlaya bilərlər.

Dövlət Komissiyasının İşçi qrupu Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 1 ünvanında yerləşir.

Məlumatda, həmçinin vurğulanır: "Beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində əsir və girov götürülmüş vətəndaşların azad edilməsi, itkin düşmüş şəxslərin axtarışı sahəsində BQXK-nın Azərbaycan Respublikasındakı Nümayəndəliyi ilə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərib.

Münaqişənin əvvəlindən etibarən əsir-girov götürülmüş vətəndaşların və itkin şəxslərin ailə üzvləri hər iki qurum tərəfindən qəbul edilib, onların müraciətləri və qaldırdığı məsələlərə baxılıb, zəruri tədbirlər görülüb, siyahıların dəqiqləşdirilməsi və informasiya mübadiləsi aparılıb, ailələrə, o cümlədən əsir-girovluqdan azad edilmiş şəxslərə sosial və psixoloji dəstək göstərilib".

# "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 778 (Cild I);2024, № 4, maddə 365, № 7, maddə 751) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.3-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Ölçmə metodikalarının (metodlarının) attestasiyasının nəticələri attestasiya haqqında şəhadətnamə ilə təsdiq edilir.";

1.2. aşağıdakı məzmunda 5.4-1-ci və 5.4-2-ci maddələr əlavə edilsin:

"5.4-1. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamənin yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə həyata keçirilir. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamə hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.

5.4-2. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamənin qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.";

1.3. 12-ci maddə üzrə:

1.3.1. aşağıdakı məzmunda 12.5-1-ci,12.6-1-ci və 12.6-2-ci maddələr əlavə edilsin:

"12.5-1. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan sahədə istifadə edilmək üçün nəzərdə tutulmuş ölçmə vasitələrinin yoxlanılmasının nəticəsinə əsasən ölçmə vasitələri istifadəyə yararsız sayılırsa, yoxlama nişanı və (və ya) yoxlama haqqında şəhadətnamə ləğv olunur və yararsızlıq haqqında bildiriş verilir və ya texniki sənədlərdə müvafiq qeydlər aparılır.";

"12.6-1. Ölçmə vasitələrinin yoxlanılmasının nəticələri əsasında təqdim olunmuş ölçmə vasitələrinin yoxlanılması haqqında şəhadətnamənin yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi, habelə yararsızlıq haqqında bildirişin yaradılması, qeydiyyatı və ləğv edilməsi bu Qanunun 5.4-1-ci maddəsində nəzərdə tutulan informasiya sistemi vasitəsilə həyata keçirilir. Ölçmə vasitələrinin yoxlanılması haqqında şəhadətnamə və yararsızlıq haqqında bildiriş hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.

12.6-2. Ölçmə vasitələrinin yoxlanılmasının nəticələri əsasında təqdim olunmuş ölçmə vasitələrinin yoxlanılması haqqında şəhadətnamənin, yoxlama nişanının və yararsızlıq haqqında bildirişin qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.";

1.3.2. 12.7-ci maddə ləğv edilsin;

1.4. 16.1-ci maddənin birinci cümləsindən "attestasiya edilmiş ölçmə metodikaları (metodları),", ", ölçmə vasitələrinin yoxlanılmasının nəticələri" sözləri çıxarılsın və həmin cümləyə "məlumatlar toplusu," sözlərindən sonra "attestasiya edilmiş ölçmə metodikaları (metodları)," sözləri əlavə edilsin;

1.5. 17-ci maddə üzrə:

1.5.1. 17.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"17.3. Ölçmə vasitələrinin kalibrlənməsi "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən həyata keçirilir.";

1.5.2. 17.6-cı maddədə "Ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi qaydası və kalibrlənmə" sözləri "Kalibrlənmə" sözü ilə əvəz edilsin;

1.5.3. aşağıdakı məzmunda 17.7-ci və 17.8-ci maddələr əlavə edilsin:

"17.7. Kalibrlənmə haqqında sertifikatın (kəmiyyət vahidinin dövlət etalonundan ötürülməsinin nəticələrinə dair kalibrlənmə haqqında sertifikatlar istisna olmaqla) yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi bu Qanunun 5.4-1-ci maddəsində nəzərdə tutulan informasiya sistemi vasitəsilə həyata keçirilir. Kalibrlənmə haqqında sertifikat hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.

17.8. Kalibrlənmə haqqında sertifikatın (kəmiyyət vahidinin dövlət etalonundan ötürülməsinin nəticələrinə dair kalibrlənmə haqqında sertifikatlar istisna olmaqla) və kalibrlənmə nişanının qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.".

**Maddə 2.** "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 758 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci maddə üzrə:

2.1.1. 1.0.1-ci, 1.0.3-cü və 1.0.8 - 1.0.10-cu maddələr aşağıdakı redaksiyada verilsin:

"1.0.1. **uyğunluğun qiymətləndirilməsi -** malın (xidmətin, işin), onunla əlaqəli prosesin, idarəetmə sisteminin, istehsal metodunun və işçi heyətin texniki reqlamentdə və digər normativ hüquqi aktda, müvafiq standartlaşdırma sahəsində normativ sənəddə müəyyən olunmuş tələblərə uyğunluğunun müəyyənləşdirilməsi;";

"1.0.3. **uyğunluğu qiymətləndirən qurum -** malın (xidmətin, işin), onunla əlaqəli prosesin, idarəetmə sisteminin, istehsal metodunun və işçi heyətin texniki reqlamentdə və digər normativ hüquqi aktda, müvafiq standartlaşdırma sahəsində normativ sənəddə müəyyən olunmuş tələblərə uyğunluğunun qiymətləndirilməsini təmin edən təşkilatlar, hüquqi və fiziki şəxslər;";

"1.0.8. **sınaq -** malın (xidmətin, işin), onunla əlaqəli prosesin, idarəetmə sisteminin, istehsal metodunun və işçi heyətin texniki reqlamentdə və digər normativ hüquqi aktda, müvafiq standartlaşdırma sahəsində normativ sənəddə müəyyən olunmuş göstəricilərə uyğunluğunun təyin edilməsi üzrə texniki əməliyyat;

1.0.9. **sertifikatlaşdırma -** uyğunluğu qiymətləndirən qurum tərəfindən malın (xidmətin, işin), onunla əlaqəli prosesin, idarəetmə sisteminin, istehsal metodunun və işçi heyətin texniki reqlamentdə və digər normativ hüquqi aktda, müvafiq standartlaşdırma sahəsində normativ sənəddə müəyyən olunmuş tələblərə uyğunluğunun elektron formada təsdiqi;

1.0.10. **inspeksiya orqanı -** malın (xidmətin, işin), onunla əlaqəli prosesin, idarəetmə sisteminin, istehsal metodunun və işçi heyətin texniki reqlamentdə və digər normativ hüquqi aktda, müvafiq standartlaşdırma sahəsində normativ sənəddə müəyyən olunmuş tələblərə uyğunluğunu rəy verməklə müəyyən edən qurum;";

2.1.2. 1.0.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.14- 1.0.19-cu maddələr əlavə edilsin:

"1.0.14. **mal -** müəyyən kəmiyyət, keyfiyyət və istehlak xüsusiyyətlərinə malik, müxtəlif məqsədlər üçün istifadəsi nəzərdə tutulan, istehsal və ya emal fəaliyyətinin maddi formada təqdim edilən nəticəsi;

1.0.15. **xidmət, iş -** mal hesab olunmayan, nəticələri maddi ifadə kəsb edən fəaliyyət;

1.0.16. **mal ilə əlaqəli proses -** malların istehsalı, qablaşdırılması, etiketləşdirilməsi, daşınması, saxlanılması, istismarı, satışı, məhv edilməsi və utilizasiyası ilə bağlı olan proseslər;

1.0.17. **xidmətlə, işlə əlaqəli proses -** mal ilə əlaqəli proses sayılmayan, xidmətin göstərilməsi və işin görülməsi ilə bağlı olan proses;

1.0.18. **istehsal metodu -** malın yaradılması ilə bağlı emal və ya istehsal fəaliyyəti zamanı tətbiq edilən üsul və texniki həllər;

1.0.19. **kalibrləmə -** ölçmə vasitələrinin metroloji xarakteristikalarının həqiqi qiymətlərinin təyin edilməsi məqsədilə yerinə yetirilən əməliyyatların məcmusu.";

2.2. 2.1.7-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.8-ci maddə əlavə edilsin:

"2.1.8. kalibrləmə laboratoriyaları.";

2.3.2.2-ci maddəyə "prosesin" sözündən əvvəl "onunla əlaqəli" sözləri əlavə edilsin;

2.4. aşağıdakı məzmunda 4-1-ci maddə əlavə edilsin:

"Maddə 4-1. **Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi**

4-1.1. Ölçmə vasitələrinin yoxlanılması haqqında şəhadətnamələrin və kalibrlənməsi haqqında sertifikatların (kəmiyyət vahidinin dövlət etalonundan ötürülməsinin nəticələrinə dair kalibrlənmə haqqında sertifikatlar istisna olmaqla), ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamələrin, sınaq laboratoriyalarında aparılmış tədqiq (sınaq) nəticələrinə dair sənədlərin, inspeksiya orqanının rəyinin, malın (xidmətin, işin), onunla əlaqəli prosesin, idarəetmə sisteminin, istehsal metodunun və işçi heyətin müvafiq standartlaşdırma sahəsində normativ sənədlərin tələblərinə uyğunluğunun qiymətləndirilməsi barədə uyğunluq sertifikatlarının elektron formada yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi, yararsızlıq haqqında bildirişin yaradılması, qeydiyyatı və ləğv edilməsi, texniki reqlamentlərlə əhatə olunan malların, onlarla əlaqəli proseslərin və istehsal metodlarının müvafiq texniki reqlamentlə müəyyən olunmuş tələblərə uyğunluğunun qiymətləndirilməsi barədə uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin, orta riskli mallar üçün uyğunluğu qiymətləndirən qurum tərəfindən uyğunluğun təsdiqi barədə təsdiqedici sənədin, habelə xarici mənşəli uyğunluq sənədlərinin tanınması barədə qərarların elektron formada yaradılması, qeydiyyatı, reyestri, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi, habelə ölçmə vasitələrinin üzərinə vurulan yoxlama və kalibrlənmə nişanlarının qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə təmin olunur.

4-1.2. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş əldə olunması məhdudlaşdırılan informasiya istisna olmaqla, bu Qanunun 4-1.1-ci maddəsində nəzərdə tutulan informasiya sisteminə daxil edilən məlumatlar ictimaiyyət üçün açıqdır və həmin məlumatlardan "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət sirri haqqında", "Fərdi məlumatlar haqqında" və "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla mühafizə və istifadə olunur.

4-1.3. Bu Qanunun 4-1.1-ci maddəsində nəzərdə tutulan informasiya sistemi vasitəsilə həmin maddədə göstərilən sənədlərin yaradılması üçün istifadə haqqı ödənilir. Bu Qanunun 4-1-ci maddəsində nəzərdə tutulan informasiya sistemindən istifadə haqqının məbləği, ödənilməsi və ondan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.".

**Maddə 3.** "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1175 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1-ci maddə üzrə:

3.1.1. 1.0.2-cimaddə aşağıdakı redaksiyada verilsin:

"1.0.2. **standart -** təkrar və ümumi istifadə üçün nəzərdə tutulan, standartlaşdırma obyektlərinə dair qaydaları, tövsiyələri, texniki xarakteristikaları müəyyən edən, tətbiqi könüllü olan normativ sənəd;";

3.1.2. 1.0.11-ci maddədə "mala (işə, xidmətə), onunla əlaqəli proseslərə (o cümlədən idarəetmə sistemlərinə) və istehsal metodlarına" sözləri "standartlaşdırma obyektlərinə" sözləri ilə əvəz edilsin;

3.1.3. 1.0.15-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.15. **standartlaşdırma obyekti -** mal (xidmət, iş), onunla əlaqəli proses, idarəetmə sistemi, istehsal metodu, işçi heyəti, terminologiya, şərti işarələr, ölçmələr (nümunələrin götürülməsi də daxil olmaqla), sınaq üsulları və qaydaları, ölçmə metodları, uyğunluğun qiymətləndirilməsi prosedurları;";

3.1.4. 1.0.17-ci maddədə "malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun" sözləri "standartlaşdırma obyektinin" sözləri ilə əvəz edilsin;

3.1.5. 1.0.22-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.22. **idarəetmə sistemi -** konkret məqsədə çatmaq üçün istifadə olunan prosedur və proseslərin məcmusu. Bu Qanuna görə, idarəetmə sistemi keyfiyyətin, ətraf mühitin, əməyin mühafizəsinin və sağlamlığın, qida və informasiya təhlükəsizliyinin və sosial məsuliyyətin idarəetmə sistemlərini əhatə edir;";

3.1.6. 1.0.23-cü maddədə "(o cümlədən idarəetmə sisteminin), istehsal metodunun standartlarda" sözləri ", idarəetmə sisteminin, istehsal metodunun və işçi heyətin standartlaşdırma sahəsində normativ sənədlərdə" sözləri ilə əvəz edilsin;

3.1.7.1.0.24-cü maddə ləğv edilsin;

3.1.8. aşağıdakı məzmunda 1.0.25-1.0.29-cu maddələr əlavə edilsin:

"1.0.25. **mal -** müəyyən kəmiyyət, keyfiyyət və istehlak xüsusiyyətlərinə malik, müxtəlif məqsədlər üçün istifadəsi nəzərdə tutulan, istehsal və ya emal fəaliyyətinin maddi formada təqdim edilən nəticəsi;

1.0.26. **xidmət, iş -** mal hesab olunmayan, nəticələri maddi ifadə kəsb edən fəaliyyət;

1.0.27. **mal ilə əlaqəli proses -** malların istehsalı, qablaşdırılması, etiketləşdirilməsi, daşınması, saxlanılması, istismarı, satışı, məhv edilməsi və utilizasiyası ilə bağlı olan proseslər;

1.0.28. **xidmətlə, işlə əlaqəli proses -** mal ilə əlaqəli proses sayılmayan, xidmətin göstərilməsi və işin görülməsi ilə bağlı olan proses;

1.0.29. **istehsal metodu -** malın yaradılması ilə bağlı emal və ya istehsal fəaliyyəti zamanı tətbiq edilən üsul və texniki həllər.";

3.2. 2.2-si maddədə "(o cümlədən idarəetmə sisteminin), istehsal metodunun" sözləri ", idarəetmə sisteminin, istehsal metodunun və işçi heyətinin" sözləri ilə əvəz edilsin;

3.3. 4.1.1-ci və 4.1.2-ci maddələrdə "malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun" sözləri "standartlaşdırma obyektinin" sözləri ilə əvəz edilsin;

3.4. 5.2-ci maddədə "malın (xidmətin, işin), prosesin, istehsal metodunun" sözləri "standartlaşdırma obyektinin" sözləri ilə əvəz edilsin;

3.5. 7.3-cü maddə üzrə:

3.5.1. 7.3.2-ci maddədə "malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun" sözləri "standartlaşdırma obyektinin" sözləri ilə əvəz edilsin;

3.5.2. 7.3.4-cü maddədə "termin" sözü "terminologiya, şərti işarələr" sözləri ilə əvəz edilsin;

3.5.3. 7.3.5-ci maddə "malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun" sözləri "standartlaşdırma obyektinin" sözləri ilə əvəz edilsin və həmin maddəyə "xarakteristikaları" sözündən əvvəl "texniki" sözü əlavə edilsin;

3.5.4. 7.3.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.3.11 - 7.3.13-cü maddələr əlavə edilsin:

"7.3.11. ölçmələr (nümunələrin götürülməsi də daxil olmaqla);

7.3.12. ölçmə metodları;

7.3.13. uyğunluğun qiymətləndirilməsi prosedurları.";

3.6.8.1-ci, 8.3-cü, 9.2-ci maddələrdə və 9.3-cü maddənin birinci cümləsində ismin müvafiq hallarında "mal (iş, xidmət), onunla əlaqəli proses (o cümlədən idarəetmə sistemi), istehsal metodu" sözləri ismin müvafiq hallarında "standartlaşdırma obyekti" sözləri ilə əvəz edilsin;

3.7. 9.4-cü maddənin ikinci cümləsində "gün" sözü "iş günü" sözləri ilə əvəz edilsin;

3.8. 11.1-ci maddədə "hər il" sözləri "beş ildən gec olmayaraq" sözləri ilə əvəz edilsin;

3.9. 12.1-ci və 12.2-ci maddələrdə "(o cümlədən idarəetmə sisteminin), istehsal metodlarının" sözləri ", idarəetmə sisteminin, istehsal metodlarının və işçi heyətin" sözləri ilə əvəz edilsin;

3.10. 13-cü maddə üzrə:

3.10.1. 13.1-ci maddə üzrə:

3.10.1.1. birinci cümlədə "Uyğunluğun könüllü qiymətləndirilməsi üçün mal (iş, xidmət), onunla əlaqəli proses (o cümlədən idarəetmə sistemi), istehsal metodu" sözləri "Texniki tənzimləmənin şamil olunduğu standartlaşdırma obyekti" sözləri ilə əvəz edilsin;

3.10.1.2. ikinci cümləyə "cavab verən" sözlərindən sonra "malın, onunla əlaqəli prosesin, istehsal metodunun" sözləri əlavə edilsin və həmin cümlədə "(o cümlədən idarəetmə sisteminin), istehsal metodunun" sözləri ", idarəetmə sisteminin, istehsal metodunun və işçi heyətin" sözləri ilə əvəz edilsin;

3.10.2. aşağıdakı məzmunda 13.1-1-ci və 13.6-cı maddələr əlavə edilsin:

"13.1-1. Uyğunluq sertifikatının yaradılması, qeydiyyata alınması, qüvvəsinin dayandırılması, bərpası, ləğv edilməsi və yenidən rəsmiləşdirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə həyata keçirilir. Uyğunluq sertifikatı hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.";

"13.6. Uyğunluq sertifikatlarının qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.";

3.10.3. 13.3-cü maddəyə "forması" sözündən sonra "və təqdim edilməsi" sözləri əlavə edilsin;

3.10.4. 13.5-ci maddənin birinci və ikinci cümlələrində "(o cümlədən idarəetmə sisteminin), istehsal metodunun" sözləri ", idarəetmə sisteminin, istehsal metodunun və işçi heyətin" sözləri ilə əvəz edilsin;

3.11. 19-cu maddədə "(işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin)," sözləri ", onunla əlaqəli prosesin və" sözləri ilə, "(işə, xidmətə), prosesə (o cümlədən idarəetmə sisteminə)," sözləri ", onunla əlaqəli prosesə və" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1679 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci maddə üzrə:

4.1.1. 1.1.7-ci maddəyə "bəyan edildiyi" sözlərindən sonra ", elektron formada tərtib edilən" sözləri əlavə edilsin;

4.1.2. 1.1.8-ci maddəyə "təsdiq edən" sözlərindən sonra ", elektron formada tərtib edilən" sözləri əlavə edilsin;

4.1.3. 1.1.12-ci maddədən "kağız üzərində yazılı və ya" sözləri çıxarılsın;

4.1.4. 1.1.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.1.14 - 1.1.16-cı maddələr əlavə edilsin:

"1.1.14. **mal -** müəyyən kəmiyyət, keyfiyyət və istehlak xüsusiyyətlərinə malik, müxtəlif məqsədlər üçün istifadəsi nəzərdə tutulan, istehsal və ya emal fəaliyyətinin maddi formada təqdim edilən nəticəsi;

1.1.15. **mal ilə əlaqəli proses -** malların istehsalı, qablaşdırılması, etiketləşdirilməsi, daşınması, saxlanılması, istismarı, satışı, məhv edilməsi və utilizasiyası ilə bağlı olan proseslər;

1.1.16. **istehsal metodu -** malın yaradılması ilə bağlı emal və ya istehsal fəaliyyəti zamanı tətbiq edilən üsul və texniki həllər.";

4.2. 5.2-ci maddəyə ikinci halda "malların" sözündən sonra "istehsal," sözü əlavə edilsin;

4.3. aşağıdakı məzmunda 7.15-ci maddə əlavə edilsin:

"7.15. Texniki tənzimləmənin şamil olunduğu malların siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.";

4.4. 13-cü maddə üzrə:

4.4.1. 13.5-ci maddənin ikinci cümləsi çıxarılsın;

4.4.2. aşağıdakı məzmunda 13.5-1-ci maddə əlavə edilsin:

"13.5-1. Uyğunluq sertifikatının, uyğunluq bəyannaməsinin, uyğunluğu təsdiq edən sənədin yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsilə həyata keçirilir. Uyğunluq sertifikatı və uyğunluğu təsdiq edən sənəd hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.";

4.4.3. 13.9-cu maddə ləğv edilsin;

4.4.4. 13.10-cu və 13.12-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"13.10. Uyğunluq sertifikatlarının, uyğunluq bəyannamələrinin, uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların reyestri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.";

"13.12. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə birbaşa tanınma nəzərdə tutulduğu hallar istisna olmaqla, xarici mənşəli uyğunluq sənədlərinin tanınması üçün təsərrüfat subyekti uyğunluq sənədlərini malın idxalından əvvəl akkreditasiya edilmiş hər hansı uyğunluğu qiymətləndirən quruma göndərməlidir. Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar göndərilən uyğunluq sənədlərinin bu Qanunun 13.11-ci maddəsinə uyğun olaraq tanınması və ya tanınmasından imtina haqqında qərar qəbul etməlidir. Xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarın yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi bu Qanunun 13.5-1-ci maddəsində nəzərdə tutulan informasiya sistemi vasitəsilə həyata keçirilir. Xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarhüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.";

4.4.5. 13.13-cü maddədə "istehsalçı və ya ticarət nümayəndəsi" sözləri "təsərrüfat subyekti" sözləri ilə əvəz edilsin;

4.5. 14-cü maddə üzrə:

4.5.1. 14.1-ci maddənin birinci cümləsindən ", realizə edilməzdən" sözləri çıxarılsın;

4.5.2. 14.2-ci maddədən "realizə etmək," sözləri çıxarılsın;

4.5.3. 14.3-cü maddədən "realizəsi," sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2025-ci il*

# "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında"və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-1-ci maddəsinin birinci cümləsində, 5.4-2-ci, 12.6-2-ci və 17.8-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 5.4-1-ci maddəsinin birinci cümləsində, 5.4-2-ci, 12.6-2-ci və 17.8-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur;

1.3. "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikası Qanununun 4-1-ci maddəsinin adında, 4-1.1-ci maddəsində və 4-1.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 4-1.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.5. həmin Qanunun 4-1-ci maddəsinin adında və 4-1.1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Keyfiyyət informasiya sistemi nəzərdə tutulur;

1.6. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-1-ci maddəsinin birinci cümləsində və 13.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.7. həmin Qanunun13.1-1-ci maddəsinin birinci cümləsində və 13.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur;

1.8. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun7.15-ci maddəsində, 13.5-1-ci maddəsinin birinci cümləsində və 13.10-cu (hər iki halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.9. həmin Qanunun 7.15-civə 13.10-cu (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

*Ardı 4-cü səh.*

# "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 3-cü səh.*

1.10. həmin Qanunun 13.5-1-ci maddəsinin birinci cümləsində və 13.10-cu (ikinci halda) maddəsində"orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.1. altı ay müddətindəKeyfiyyət informasiya sistemi (bundan sonra - Sistem) haqqında əsasnaməni;

2.1.2. altı ay müddətində "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikası Qanununun 4-1.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, Sistemdən istifadə haqqının məbləği, ödənilməsi və ondan istifadə qaydasını;

2.1.3. dörd ay müddətində "Texniki tənzimləmə haqqında"Azərbaycan Respublikası Qanununun 7.15-ci maddəsinə uyğun olaraq, texniki tənzimləmənin şamil olunduğu malların siyahısını;

2.2. "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və"Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi ilə birlikdə,Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın tələbləri nəzərə alınmaqla, Sistemin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsi, habelə Elektron Hökumət İnformasiya Sisteminə ötürülən məlumatların rəqəmsallaşdırılması ilə bağlı zəruri tədbirlər görsün.

4. "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 13 iyun tarixli 686-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 94 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 22 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bəndə "Qanununun" sözündən sonra "5.4-1-ci maddəsinin birinci cümləsində,5.4-2-ci maddəsində," sözləri, "12.3-cü" sözlərindən sonra isə ", 12.6-2-ci" sözləri əlavə olunsun və həmin bənddə "və 18.3-cü maddəsində" sözləri", 17.8-ci və 18.3-cü maddələrində" sözləri ilə əvəz edilsin;

4.2. 1.3-cü bənddən", 17.3-cü" sözləri çıxarılsın və həmin bənddə "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

4.3.1.4-cü bənddə "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri "Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

4.4.1.4-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.5-ci bənd əlavə edilsin:

"1.5. həmin Qanunun 5.4-1-ci maddəsinin birinci cümləsində, 5.4-2-ci, 12.6-2-ci və 17.8-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur.".

5. "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 iyul tarixli 229 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 811 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1-ci bəndə "maddəsində" sözündən sonra ", 4-1-ci maddəsinin adında, 4-1.1-ci maddəsində və 4-1.3-cü maddəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

5.2. 3.1-2-ci bənd müvafiq olaraq 3.1-3-cü bənd hesab olunsun və aşağıdakı məzmunda 3.1-2-ci bənd əlavə edilsin:

"3.1-2. həmin Qanunun 4-1.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

5.3. 3.1-3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"3.1-3. həmin Qanunun 1.0.5-ci maddəsində "qurum" dedikdə "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxs qismindəAzərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur;";

5.4. aşağıdakı məzmunda 3.1-4-cü bənd əlavə edilsin:

"3.1-4. həmin Qanunun 4-1-ci maddəsinin adında və 4-1.1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin Keyfiyyət informasiya sistemi nəzərdə tutulur.".

6. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1227 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bənddə ", 13.3-cü" sözləri "maddələrində, 13.1-1-ci maddəsinin birinci cümləsində, 13.3-cü, 13.6-cı" sözləri ilə əvəz edilsin;

6.2. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. həmin Qanunun 13.1-1-ci maddəsinin birinci cümləsində və 13.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur;";

6.3. 2.3-cü bəndə "şəxs" sözündən sonra "qismində Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi" sözləri əlavə edilsin.

7. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1711 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.1-ci bəndə "7.14-cü (hər iki halda)," sözlərindən sonra"7.15-ci," sözləri əlavə edilsin, həmin bənddə"13.5-ci (hər iki halda), 13.9-cu" sözləri "13.5-ci maddələrində, 13.5-1-ci maddəsinin birinci cümləsində" sözləri ilə əvəz olunsun və həmin bənddən "13.12-ci," sözləri çıxarılsın;

7.2. 2.3-cü bəndə "7.14-cü (birinci halda)," sözlərindən sonra "7.15-ci," sözləri əlavə olunsun və həmin bənddə "13.5-ci (birinci halda)" sözləri "13.5-ci" sözləri ilə əvəz edilsin;

7.3.2.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.4. həmin Qanunun 7.7-ci, 7.8-ci, 7.9-cu və 7.10-cu maddələrində, 7.11-ci maddəsinin ikinci cümləsində (birinci halda), 7.14-cü maddəsinin ikinci cümləsində (ikinci halda), 9.1-ci maddəsində, 13.5-1-ci maddəsinin birinci cümləsində, 13.10-cu (ikinci halda) maddəsində, 14.9-cu maddəsinin ikinci cümləsində, 15.1-ci və 16.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2025-ci il*

## Parlament diplomatiyası

# Şimali Makedoniya Respublikası Azərbaycanla əməkdaşlığın dərinləşdirilməsində maraqlıdır

İyunun 17-də Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanda rəsmi səfərdə olan Şimali Makedoniya Respublikası Assambleyasının Sədri Afrim Qaşi ilə görüşüb.









Əvvəlcə Şimali Makedoniya Respublikası Assambleyasının Sədri Milli Məclisin plenar iclas zalı ilə tanış olub.

Sonra qonaqlar Milli Məclisdə Heydər Əliyev Muzeyində olublar.

Şimali Makedoniya Respublikası Assambleyasının Sədri Afrim Qaşi Xatirə kitabını imzalayıb.

Görüşdə spiker Sahibə Qafarova iki ölkə arasında diplomatik münasibətlərin qurulmasından ötən 30 il ərzində ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlər üzrə inkişafından məmnunluğunu bildirərək, dövlətlərarası əlaqələrimizin səmimi dostluq və qarşılıqlı hörmət üzərində qurulduğunu qeyd edib. Qonağın səfərinin əhəmiyyətini vurğulayan parlamentin spikeri, bunun parlament sədrləri səviyyəsində ilk belə səfər olduğunu, onun iki ölkə və qanunverici orqanlar arasında əlaqələrin dərinləşməsinə təkan verəcəyinə inamını ifadə edib. Qeyd olunub ki, Şimali Makedoniya Assambleyasının nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının 65-ci Baş Assambleyasında iştirakı bu əməkdaşlığın daha da güclənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Söhbət zamanı Azərbaycan və Şimali Makedoniya arasında siyasi, iqtisadi, mədəni-humanitar, təhsil və elm sahələrini əhatə edən ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Dövlətlərarası əlaqələrin möhkəmlənməsində müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin müstəsna rolu vurğulanıb, Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkovanın bu ilin mart ayında ölkəmizə rəsmi səfərinin və keçirilən səmərəli müzakirələrin əhəmiyyəti qeyd olunub. Ali qonaqla görüşünü məmnuniyyətlə xatırlayan spiker Sahibə Qafarova, həmin səfərin dövlətlərarası münasibətlərin inkişafında əhəmiyyətini qeyd edib.

Görüşdə Azərbaycan və Şimali Makedoniya arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm təsir göstərən amillərdən biri kimi parlamentlərin qarşılıqlı fəaliyyətinin əhəmiyyəti barədə söz açılaraq, qanunverici orqanlarda fəaliyyət göstərən parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında təmasların intensivləşdirilməsinin vacibliyi, həmçinin parlamentlərin profil komitələri və aparatları arasında əməkdaşlığın dərinləşdirilməsinin, qanunvericilik sahəsində təcrübə mübadiləsinin aparılmasının səmərəliliyi diqqətə çatdırılıb.

Şimali Makedoniya Respublikası Assambleyasının Sədri Afrim Qaşi ölkəmizə ilk rəsmi səfərindən və Milli Məclisdə olmaqdan məmnunluğunu bildirərək, Bakıya valeh olduğunu, son illər respublikamızın əldə etdiyi iqtisadi nailiyyətlər və yüksək inkişaf dinamikasının Azərbaycan xalqının böyük əzm və səylə çətinliklərin öhdəsindən gəldiyini nümayiş etdirdiyini xüsusi vurğulayıb. O, Şimali Makedoniyanın dost ölkələrlə əlaqələri daha da genişləndirmək siyasəti apardığını qeyd edərək, Azərbaycanın yerləşdiyi regionda mühüm geosiyasi əhəmiyyətə malik olan ölkələrdən biri olduğunu və bu baxımdan onunla əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduqlarını bildirib. Afrim Qaşi əlavə edib ki, parlamentlərarası əlaqələrin inkişafı hökumətlər arasında da təmasların intensivləşməsinə, qarşılıqlı səfərlərin və görüşlərin sayının daha da artmasına təkan verəcək ki, bu da öz növbəsində oxşar tarixə və dəyərlərə malik xalqlarımızın yaxınlaşmasına və ölkələrimiz arasında münasibətlərin dərinləşməsinə səbəb olacaq. Eyni zamanda qeyd olunub ki, ikitərəfli münasibətlərin dərinləşməsi yalnız ölkələrimiz arasında əlaqələrin güclənməsinə deyil, eyni zamanda regional sülhün, sabitliyin və əməkdaşlıq mühitinin möhkəmləndirilməsinə də töhfə verəcəkdir.

Milli Məclisin Sədri Sahibə Qafarova 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı tarixi Zəfərdən söz açaraq, ölkəmizin Ermənistanın 30 il davam edən işğalına son qoyaraq öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyini vurğulayıb. O bildirib ki, Azərbaycan uzun illər beynəlxalq hüququn norma və prinsiplərinin pozulması, habelə ikili standartlarla üz-üzə qalıb, lakin 2020-ci ildə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasını özü təmin edərək işğala son qoyub. Görüşdə həmçinin postmünaqişə dövründə regionda yaranmış vəziyyət, eləcə də işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə məlumat verilib. Spiker vurğulayıb ki, Azərbaycan sülh tərəfdarıdır və bu sülhün əldə olunması regionda davamlı sabitlik və təhlükəsizliyin təmin olunmasına xidmət edəcək.

Görüşdə qonaqlara Milli Məclisin tarixi, strukturu, fəaliyyəti haqqında da məlumat verilib.

***"Azərbaycan"***

# Azərbaycanla Bolqarıstan arasında parlamentlərarası əlaqələr müzakirə olunub





İyunun 17-də Milli Məclisin Sədri Sahibə Qafarova Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) 65-ci plenar sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikası Milli Assambleyasının sədri Nataliya Kiselova ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Nataliya Kiselovanın Azərbaycana bu ilk səfərinin ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə töhfə verəcəyinə inam ifadə olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova QDİƏT PA-nın fəaliyyətdə olan sədri kimi sessiya çərçivəsində QDİƏT PA-ya sədrliyin Bolqarıstan parlamentinə təhvil veriləcəyini qeyd edib və bu təşkilatın parlamentlərarası əməkdaşlıq üçün mühüm bir platforma olduğunu bildirib.

O qeyd edib ki, Azərbaycan və Bolqarıstan dost və strateji tərəfdaş ölkələrdir. Ölkələrimiz arasında siyasi əlaqələr Prezident İlham Əliyevin və Prezident Rumen Radevin qarşılıqlı səfərləri ikitərəfli münasibətlərin inkişafında müstəsna rol oynayır.

Milli Məclisin Sədri bildirib ki, Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli və çoxşaxəli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri də parlamentlərimizin qarşılıqlı fəaliyyətidir. Bu sahədə parlamentlərarası dostluq qruplarının birgə fəaliyyəti mühüm rol oynayır. Söhbət zamanı parlament komitələri arasında münasibətlərin inkişafı, beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın gücləndirilməsi barədə də danışılıb.

Bolqarıstan Milli Assambleyasının sədri Nataliya Kiselova ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu bildirib və onun səfərinin də bu münasibətlərin göstəricisi olduğunu diqqətə çatdırıb. Qonaq ölkələrimiz arasında əlaqələrin inkişafı baxımdan QDİƏT PA-nın əhəmiyyətli bir platforma olduğunu qeyd edib.

O, Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Veliko-Tarnovo şəhərinin Trapezitsa Arxeoloji Muzey Qoruğunun bərpasının bolqar xalqı tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

Söhbət zamanı o, regional və beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq, qarşılıqlı parlament dostluq qruplarının fəaliyyəti, parlament diplomatiyasının əhəmiyyəti barədə fikirlərini bölüşüb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Bakıda QDİƏTPA-nın 70-ci Büro və 65-ci Daimi Komitəsinin iclasları keçirilib

İyunun 17-də Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏTPA) 70-ci Büro və 65-ci Daimi Komitəsinin iclasları keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan Milli Məclisinin spikeri və QDİƏTPA-nın fəaliyyətdə olan Sədri Sahibə Qafarova iclaslara sədrlik edib. O, müzakirələrin konstruktiv və məhsuldar olacağına, qəbul olunacaq qərarların təşkilatın gələcək fəaliyyətinə müsbət töhfələr verəcəyinə inamını ifadə edib.

Keçirilən müzakirələrdə QDİƏTPA-nın Baş Assambleyasının gündəliyi, həmçinin təşkilatın ötən dövr ərzindəki fəaliyyəti, növbəti dövrdə fəaliyyətinə dair bir sıra təşkilatı məsələlər nəzərdən keçirilib və müvafiq qərarlar qəbul olunub.

***"Azərbaycan"***

# "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar"

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Şuşa şəhərində beynəlxalq konfrans keçirilib

**İyunun 15-də - Milli Qurtuluş Günündə Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Şuşa şəhərində "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, tədbirdə iştirak edən dost ölkələrin müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov çıxış edərək qonaqları Qarabağın tacı, Azərbaycanın mədəniyyət paytaxtı qədim Şuşa şəhərində salamlamaqdan məmnunluğunu ifadə edib. O bildirib ki, Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinin ən parlaq səhifələrindən biridir.

Xüsusi nümayəndə azad olunmuş ərazilərdə görülən işlərdən bəhs edərək mənfur qonşularımız tərəfindən ata-baba yurdlarından qovulmuş insanların öz doğma evlərinə Böyük qayıdışının davam etdiyini söyləyib. A.Kərimov qeyd edib ki, bu günədək Şuşada 20-dən çox tarixi abidə, o cümlədən 5 məscid bərpa olunub: "Yeni məktəbimizdə 200-ə yaxın şagird təhsil alır. Müasir tələblərə cavab verən müalicə və sağlamlıq mərkəzi açılıb. Şəhərimizdə turizmin inkişafı baxımından böyük əhəmiyyətə malik olan yeni hotellər, muzeylər, istirahət məkanları açılmaqdadır. Təkcə bu ayın ilk 10 günündə şəhərimizi ziyarət edənlərin sayı 25 mini keçib. Ən önəmli layihələrimiz isə, sözsüz ki, şuşalılar üçün yeni yaşayış evlərinin tikilməsidir. Artıq 1409 nəfər şuşalı keçmiş məcburi köçkün 23 binadan ibarət ilk yaşayış kompleksində daimi məskunlaşıb. Növbəti aylarda isə şəhərimizdə ümumilikdə 45 ədəd çoxmənzilli binadan ibarət daha üç yeni yaşayış kompleksinin tikintisinə başlanılacaq".

Aydın Kərimov deyib ki, son illərdə Şuşa şəhəri bir çox beynəlxalq tədbirə, o cümlədən yüksəksəviyyəli Zirvə görüşlərinə ev sahibliyi edib: "Bu, bizim üçün qürurvericidir. Yeni Azərbaycan Partiyasının təşəbbüsü və təşkilatçılığı ilə artıq 4-cü ildir ki, Şuşa şəhərində mühüm beynəlxalq konfranslar keçirilir".

Sonra Yeni Azərbaycan Partiyasının media qurumu olan Yeni TV-nin hazırladığı videoçarx nümayiş olunub.

Daha sonra beynəlxalq konfrans sessiyalarla öz işini davam etdirib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Həsənin moderatorluğu ilə keçirilən plenar sessiyada çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov konfrans iştirakçılarını ölkəmizdə - Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qətiyyətli siyasəti, xalqımızın sarsılmaz həmrəyliyi, Azərbaycan Ordusunun qüdrəti sayəsində 30 illik işğaldan azad edilmiş Şuşa şəhərində salamlamaqdan məmnunluğunu ifadə edib, dəvəti qəbul edərək tədbirə qatıldıqları üçün təşəkkürünü bildirib və konfransın işinə uğurlar arzulayıb.

"Bu gün biz Azərbaycan xalqı və dövləti üçün olduqca əlamətdar bir tarixdə bir araya gəlmişik. 32 il əvvəl - 1993-cü il iyunun 15-də son dərəcə mürəkkəb bir şəraitdə - Azərbaycan Respublikası yenicə bərpa etdiyi dövlət müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya olarkən müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmiş və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi yazılmışdır" deyən Tahir Budaqov əlavə edib ki, həmin il oktyabrın 3-də xalqın böyük etimadı əsasında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev xilaskarlıq və quruculuq missiyasını həyata keçirməklə Azərbaycanda sabitlik və inkişafı təmin etmiş, təcrid vəziyyətində olan ölkəmizi beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirmiş və bugünkü möhtəşəm qələbələrin - tərəqqi və Zəfər yolunun əsaslarını formalaşdırmışdır.

YAP Sədrinin müavini 2021-ci ilin məhz 15 iyun tarixində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalandığını, bu gün həmin əlamətdar hadisənin dördüncü ildönümünün də qeyd edildiyini vurğulayıb: "Bu, təkcə iki dost və qardaş ölkə arasında əlaqələrin strateji tərəfdaşlıqdan müttəfiqlik zirvəsinə yüksəlməsi ilə səciyyəvi deyil, həmçinin hazırkı təhdidlər və çağırışlar fonunda yeni dünya nizamının formalaşmaqda olduğu bir tarixi mərhələdə Cənubi Qafqaz regionunda və daha geniş coğrafiyada davamlı sabitlik, etibarlı təhlükəsizlik və çoxşaxəli əməkdaşlıq üçün əlverişli zəminin yaradılması istiqamətində atılmış əhəmiyyətli bir addımdır".

Tahir Budaqov bildirib ki, müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində əldə olunmuş qələbənin 5-ci ildönümünü qeyd etdiyimiz 2025-ci il Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmiş və təsdiq olunmuş Tədbirlər Planına əsasən il ərzində çoxsaylı yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur: "Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası tərəfindən də bu münasibətlə silsilə tədbirlər keçirilməkdədir. "Konstitusiya və Suverenlik İli" çərçivəsində Milli Qurtuluş Günündə keçirilən bugünkü konfransımız olduqca aktual bir məsələyə həsr olunmuşdur. Hər birimizə məlumdur ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemində olduqca gərgin proseslər və ciddi geostrateji dəyişikliklər baş verməkdədir. Qlobal kataklizmlərin meydana gətirdiyi təhdid və çağırışlar fonunda yeni dünya nizamına transformasiya məsələsi beynəlxalq müstəvidə ciddi müzakirə predmetinə çevrilmişdir".

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, Azərbaycan yeni geosiyasi nizamın tərəfdarı kimi beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradan hallara qarşı qətiyyətli mübarizə apararaq müstəqil və konstruktiv siyasət həyata keçirməklə qlobal miqyasda dialoq və əməkdaşlığı təşviq edir: "2020-ci ildə 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edən Azərbaycan regionda ədalətli geosiyasi nizamın - yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşması, sülh naminə etimad quruculuğunun həyata keçirilməsi istiqamətində fəal siyasət yürüdür. Ölkəmizin strateji kursu beynəlxalq hüquq normalarına riayət olunması, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsi, daxili işlərinə müdaxilə olunmaması və qarşılıqlı surətdə milli maraqların nəzərə alınması kimi prinsiplərə əsaslanır. BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalmış qətnamələrinin icrasını öz gücü hesabına təmin edərək çoxillik münaqişəyə son qoymaqla müstəsna beynəlxalq siyasi-hüquqi presedent yaradan Azərbaycan bütün dünyada sülhün, ədalətin, bərabərliyin müdafiəçisi kimi mövqeyini aydın şəkildə ortaya qoyur".




Tahir Budaqov söyləyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik xarici siyasət kursu yalnız Cənubi Qafqaz bölgəsində deyil, daha geniş coğrafiyada qarşılıqlı maraqlara uyğun tərəfdaşlıq əlaqələrinin inkişafına və ortaq strateji hədəflərin reallaşmasına xidmət edir: "Bu, Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda münasibətlərinin inkişafını təmin etməklə yanaşı, beynəlxalq təşkilatlarla əlaqələrin möhkəmlənməsini də şərtləndirir. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə əldə etdiyi nailiyyətlər, BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər təsisatlarda səmərəli fəaliyyəti, 2024-cü ilin noyabr ayında COP29-a uğurla evsahibliyi etməsi və bunun nəticəsi olaraq iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair qlobal əhəmiyyətli qərarların qəbulu ölkəmizin beynəlxalq müstəvidə ədalətli və etibarlı tərəfdaş kimi önəmini qabarıq şəkildə bir daha təsdiq etmişdir".

YAP Sədrinin müavini qeyd edib ki, beynəlxalq münasibətlər sistemində baş verən dəyişiklikləri və yeni dünya nizamının formalaşmasının labüdlüyünü nəzərə alan Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi - İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatının hər birinə daimi üzv kimi yerin verilməsi təklifini irəli sürmüşdür: "Bununla yanaşı, milli maraqlara hörmət və ədalət prinsiplərinə əsaslanan yeni çoxtərəfli əməkdaşlıq mühitinin yaradılması məqsədilə Azərbaycan Qlobal Cənub ilə Qlobal Şimal arasında dialoq və konstruktiv əməkdaşlıq mühitinin təmin olunmasının tərəfdarı kimi bu prosesdə fəal rol oynamaq niyyətini nümayiş etdirir. Ölkəmiz dayanıqlı sülh, təhlükəsizlik və tərəfdaşlıq naminə hərbi-siyasi təhdidlərin qarşısının alınması, iqtisadi, ekoloji, humanitar və digər sahələrdə təhlükəsizliyin təmin olunması istiqamətində mühüm təşəbbüslərlə çıxış edir. Eyni zamanda Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı - D-8-ə üzv olması, Şanxay Əməkdaşlıq Təşkilatı, BRICS kimi nüfuzlu platformalarda tərəfdaş ölkə kimi işbirliyini diqqət mərkəzində saxlaması, eləcə də neokolonializmin bütün təzahürlərinin aradan qaldırılması istiqamətindəki fəaliyyəti olduqca mühüm əhəmiyyətə malikdir. Bir sözlə, həm yerləşdiyi Cənubi Qafqazın, həm də bütövlükdə Avrasiyanın uzunmüddətli və səmərəli əməkdaşlıq məkanına çevrilməsində maraqlı olduğunu nümayiş etdirən Azərbaycan multilateralizm prinsipinə əsaslanan yeni dünya düzəninə transformasiya prosesinə töhfələrini verməkdədir".

Tahir Budaqov bildirib ki, dünyada fərqli geosiyasi mənzərənin - yeni beynəlxalq nizamın yaranmaqda olduğu hazırkı şəraitdə müştərək hədəflər əsasında qarşılıqlı faydalı fəaliyyətin davam etdirilməsi, ölkələrimiz arasında tərəfdaşlığın gücləndirilməsi müstəsna önəm daşıyır: "Biz yeni reallıqlar fonunda həmrəylik nümayiş etdirərək dünyada bərabərsizlik, təcridetmə və haqsız rəqabət kimi problemlərin əhəmiyyətli dərəcədə həllinə nail olmaqla bəşəriyyətin sağlam və xoşbəxt gələcəyi üçün etibarlı zəmin formalaşdıra bilərik. Ona görə də hakim siyasi partiyalar arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi son dərəcə önəmlidir. Konfransımızın panel sessiyalarından biri "Ədalət naminə həmrəylik: siyasi partiyaların rolu" mövzusuna həsr olunacaq və bu məsələlər ətrafında fikir mübadiləsi aparılacaqdır. Amma qısaca qeyd etmək istəyirəm ki, yeni reallıqlardan irəli gələn çağırış və hədəfləri əsas götürərək beynəlxalq əlaqələrini uğurla davam etdirən Yeni Azərbaycan Partiyası dost ölkələrin aparıcı siyasi partiyaları ilə münasibətlərin inkişafına xüsusi önəm verir. Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin uzaqgörən xarici siyasət kursu əsasında məqsədyönlü partiya diplomatiyasının həyata keçirilməsi - partiyalar arasında intensiv təmasların müvəffəqiyyətlə davam etdirilməsi, səmərəli fikir və təcrübə mübadiləsinin aparılması ölkələrarası münasibətlərin möhkəmləndirilməsi baxımından olduqca əhəmiyyətlidir. Partiyalarımız arasındakı sıx təmaslar təkcə ikitərəfli əlaqələrin inkişafını əhatə etmir, həm də yeni dünya nizamına keçid şəraitində çoxşaxəli əməkdaşlığa hədəflənmişdir. Bugünkü konfransımızın da beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inamımı ifadə edərək hər birinizə fəaliyyətinizdə uğurlar arzulayır və diqqətinizə görə təşəkkürümü bildirirəm".

Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Efkan Ala çıxışında Azərbaycan ilə Türkiyə arasında münasibətlərin dostluğa, qardaşlığa və strateji müttəfiqliyə əsaslandığını qeyd edib. O, 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsini iki qardaş ölkənin münasibətlərində tarixi bir mərhələ adlandırıb. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan Bəyannamənin dördüncü ildönümünün sevincini və qürurunu yaşadığını bildirən E.Ala Şuşanın xüsusi bir rəmzi məna - böyük mənəvi önəm daşıdığını deyib: "Ümummilli Lider Heydər Əliyevin əziz bir şəhər, əziz bir torpaq, əziz bir qala və əziz bir abidə adlandırdığı Şuşa malik olduğu dini, tarixi və mədəni abidələri ilə yanaşı, yetirdiyi görkəmli sənət və fikir adamları ilə də türk dünyasının qəlbində taxt qurub. Bu gün burada bir tarixin, bir mədəniyyətin və bir xalqın ruhunda görüşürük. Mədəni irsi, sənəti, musiqisi, memarlığı və ruhu ilə Şuşa bir mədəniyyətin daşıyıcısıdır. Bu torpaqların azad olunması yalnız hərbi qələbə deyil, eyni zamanda hüququn, ədalətin və beynəlxalq legitimliyin təcəssümüdür. Böyük Zəfər uğrunda canlarını fəda edən bütün şəhidlərimizi rəhmətlə yad edir, əziz xatirələrinə dərin hörmət və ehtiramımı bildirirəm".

E.Ala bildirib ki, Şuşa 30 ilə yaxın bir müddətdə işğal altında qalan zaman ağır faciələrlə üzləşib, işğalçılar Şuşa mədəniyyətini məhv etməyə çalışıblar. "Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu olan Qarabağın azadlığı reallaşdı, Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında torpaqlar işğaldan azad olundu" deyən AK Parti Sədrinin birinci müavini iki qardaş ölkənin - Türkiyə ilə Azərbaycanın əlaqələndirilmiş xarici siyasət kursunun regional və qlobal təhlükəsizliyə töhfə verdiyini bildirib. Onun sözlərinə görə, Cənubi Qafqazda davamlı sülh və sabitliyin təmin olunması Türkiyənin xarici siyasətində vacib prioritetlərdən biridir. Efkan Ala qeyd edib ki, Azərbaycanın tam suverenliyini bərpa etməsi ilə birlikdə bölgədə davamlı sülh və sabitlik üçün tarixi bir fürsət yaranıb: "Bir zamanlar Qarabağın inzibati və siyasi mərkəzi kimi tanınan Şuşanın yenidən mühüm beynəlxalq toplantı və konfranslara evsahibliyi etməsi bölgənin gələcəyinə güclü bir ümid işığı salmaqdadır. 44 günlük Vətən müharibəsində qələbə qazanan Azərbaycan yalnız bir Zəfərin sahibi deyil, eyni zamanda regionda sülhün və dayanıqlı inkişafın baş memarıdır. Bölgədə qalıcı sülhün təmin olunması isə iqtisadi inkişaf prosesini də sürətləndirəcək".

Cənubi Qafqazda dayanıqlı sülhün, iqtisadi inteqrasiyanın və qarşılıqlı etimadın formalaşması üçün mühüm zəmin olduğunu bildirən E.Ala qeyd edib ki, regional problemləri məhz bölgə ölkələri həll edə bilərlər. Onun sözlərinə görə, Cənubi Qafqaz ölkələri öz məsələlərini uzaq coğrafiyalardakı güclərin müdaxiləsinə ehtiyac duymadan öz qonşuları ilə əməkdaşlıq yolu ilə həll etməyə qadirdir və bu iradəyə sahibdirlər.

AK Parti Sədrinin birinci müavini qeyd edib ki, qlobal sistemin ədalətli bir formaya salınması Türkiyənin xarici siyasətinin də öncəliklərindəndir: "Hazırda dünyada olduqca çətin bir dövr yaşanır - qlobal idarəetmə sistemi zəifləyib, çoxtərəfli əməkdaşlıq anlayışı öz dəyərini itirib, beynəlxalq münaqişələr daha da dərinləşib, qeyri-müəyyənlik artıb. Beynəlxalq təşkilatlar sülh, təhlükəsizlik və rifah yaratmaq sahəsində effektiv fəaliyyət göstərə bilmir və bu, artıq sistematik problemə çevrilib. Qlobal miqyasda artan gərginliklər regional problemləri daha mürəkkəb hala gətirib. Bunun həlli üçün səfərbər olmaq gərəkdir".

Türkmənistan Demokratik Partiyasının Sədri Ata Sərdarov çıxışında təmsil etdiyi ölkənin Azərbaycanın siyasi, iqtisadi və mədəni-humanitar sahələrdə sürətli inkişafını, beynəlxalq arenada nüfuzunun və təsirinin artmasını, aktual qlobal məsələlərin həllində fəal rolunu xüsusi maraqla izlədiyini deyib.

O, bu marağın, hər şeydən əvvəl, Türkmənistan və Azərbaycan xalqlarının ortaq köklərindən qaynaqlandığını bildirib: "Biz bir ağacın budaqları kimiyik və bizi birləşdirən, doğmalaşdıran çox sayda amil mövcuddur. Tariximiz, münasibətlərimiz və taleyimiz qədim Xəzər dənizi ilə də bağlıdır. Ölkələrimiz məhz Xəzər dənizi vasitəsilə ticari-iqtisadi əlaqələrini qurur. Eyni zamanda Türkmənistan və Azərbaycan ərazilərindən Avropa ilə Asiya arasında ən əlverişli ticarət marşrutları keçir".

A.Sərdarov bildirib ki, müstəqil Türkmənistan inkişaf yolunda böyük nailiyyətlər əldə edib. "Türkmənistan dövləti sülhpərvər, qlobal səviyyədə etimada əsaslanan siyasəti təşviq edən ölkə kimi Birləşmiş Millətlər Təşkilatı çərçivəsində nüfuzunu xeyli artırıb. Türkmənistanın daimi neytrallıq statusu BMT-nin 1995-ci, 2015-ci və 2025-ci illərdə qəbul etdiyi xüsusi qətnamələrlə tanınıb. Həmçinin ölkəmizin təşəbbüsü ilə BMT tərəfindən 12 dekabr "Beynəlxalq Neytrallıq Günü" elan olunub" deyən Türkmənistan Demokratik Partiyasının Sədri onu da vurğulayıb ki, qlobal inkişaf məsələlərində əsas çağırışlar sülhün qorunması və xalqların rifahının təmin edilməsidir. Onun sözlərinə görə, bu sahədə Türkmənistan beynəlxalq qurumlarla, ilk növbədə Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq çərçivəsində mühüm irəliləyişlərə nail olub: "Türkmənistan ümumi daxili məhsulun illik 6 faizdən çox artımını təmin edərək böyük milli və beynəlxalq layihələrin icrasında, eləcə də zamanın tələblərinə uyğun sosial sahənin inkişafında uğur qazanan ölkələr sırasındadır. Hazırda Türkmənistanda genişmiqyaslı inkişaf proqramları uğurla icra olunur. Bu proqramların əsasını "Dövlət insan üçündür!" prinsipi və "Vətən yalnız xalqla vətəndir! Dövlət yalnız xalqla dövlətdir!" şüarı təşkil edir".

O, Türkmənistan ilə Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edərək daha da möhkəmlənəcəyinə əminliyini bildirib.

Çıxış edən Şimali Kipr Türk Cümhuriyyətinin Ulusal Birlik Partiyasının sədri, Baş nazir Ünal Üstel tədbir iştirakçılarını salamlayaraq konfransa evsahibliyi edən Şuşa şəhərini mübarizə simvolu adlandırıb. O bildirib ki, Şuşa bir millətin yenidən ayağa qalxmasının nümunəsidir: "Şuşa böyük bir Zəfərin adıdır. Şuşanın Zəfərini bir daha təbrik edirik. Şimali Kipr Türk Cümhuriyyəti olaraq can Azərbaycanı Milli Qurtuluş Günü münasibətilə təbrik edirik. Bildirmək istəyirəm ki, Qarabağ Zəfərində Azərbaycan xalqının yaşadığı o böyük qüruru biz də öz qəlbimizdə hiss etdik. Çünki bu Zəfər bütün türk dünyasınındır".

Ünal Üstel vurğulayıb ki, müasir dövrdə türk dünyası tək ürək - tək biləkdir: "Bunu bütün dünyaya göstəririk.

*Ardı 6-cı səh.*

# "Yeni dünya nizamı:

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə

*Əvvəli 5-ci səh.*

Biz təkcə bir millətin nümayəndələri deyilik, eyni zamanda böyük bir sivilizasiyanın da daşıyıcılarıyıq. 2022-ci ildə Şimali Kipr Türk Cümhuriyyəti Türk Dövlətləri Təşkilatına müşahidəçi kimi üzv seçildi. Bu hadisə bizim böyük ailənin önəmli tərkib hissəsi olduğumuzu bir daha nümayiş etdirdi. Bu gün Şuşadan bir daha bəyan edirik ki, Şimali Kipr Türk Cümhuriyyəti türk dünyasının ayrılmaz bir parçasıdır".

Ü.Üstel qeyd edib ki, müasir dünyada milli suverenlik anlayışı sərhədləri mühafizə etməklə məhdudlaşmır, paralel olaraq millətin kimliyini, dəyərlərini və iradəsini qorumaqla tamamlanır. "Türk dövlətləri olaraq biz bunu bacardıq. Biz həm suverenliyimizi, həm də milli kimliyimizi, iradəmizi qoruduq. Şuşada keçirilən konfransın "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusuna həsr olunması həm nəzəri, həm də praktik baxımdan böyük əhəmiyyət daşıyır. Bu mövzu bizə bir daha göstərir ki, qarşılaşdığımız təhdidlər çoxşaxəlidir və əməkdaşlıq modellərimiz güclü olmalıdır", - deyə o vurğulayıb.

Türk Dövlətləri Təşkilatı ilə hər sahədə inteqrasiyanı artırmaq istədiklərini deyən Ünal Üstel münasibətlərin inkişafı üçün belə görüşlərin keçirilməsinin əhəmiyyətli olduğunu deyib: "Buna görə Yeni Azərbaycan Partiyasına xüsusi təşəkkür edirik. Partiyanın tarixi tədbirə evsahibliyi etməsi onun aydın siyasi baxışının təzahürüdür".

Plenar sessiyanın sonunda moderator Ramil Həsən yeni dünya nizamının qlobal çağırışlarla zəngin olduğunu vurğulayıb. O qeyd edib ki, dünyada baş verən mürəkkəb proseslər dövlətlərin fəal əməkdaşlığını zəruri edir. R.Həsən konfransda aparılan müzakirələrin bu baxımdan böyük əhəmiyyət daşıdığını bildirib.

Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Zafer Sırakayanın moderatorluğu ilə "Milli suverenlik, regional əməkdaşlıq və qlobal təhlükəsizlik: yeni çağın siyasi paradiqmaları" mövzusunda keçirilən panel sessiyasında çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, Yeni Azərbaycan Partiyasının təşkil etdiyi konfrans son dərəcə əlamətdar bir gündə və məkanda keçirilir. Onun sözlərinə görə, xalqımız Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışının - Milli Qurtuluş Gününün növbəti ildönümünü böyük hörmət və ehtiramla qeyd edir: "Əgər biz müasir Azərbaycanın həyatının ən başlıca siyasi simvollarının nədən ibarət olduğu haqqında sual versək, iki başlıca amili qeyd edə bilərik. Birincisi, Heydər Əliyevin yaratdığı qüdrətli Azərbaycan - müstəqil Azərbaycan dövləti və dövlətçiliyidir. İkincisi isə, bu dövlətin Prezident İlham Əliyevin rəhbərliyi altında qazandığı əzəmətli Qələbədir. Bu Qələbənin nəticəsi olaraq bu gün biz Şuşa şəhərində bu gözəl tədbiri keçirə bilirik. Beləliklə, Qurtuluş məfkurəsi yaşayır, Heydər Əliyev siyasəti yaşayır, Heydər Əliyev siyasəti Prezident İlham Əliyevin həyata keçirdiyi doktrinada özünün ətraflı ifadəsini tapır, Azərbaycana yeni uğurlar və qələbələr gətirir. Dünən də belə olub, bu gün də belədir, gələcəkdə də belə olacaq".

YAP Sədrinin müavini qeyd edib ki, bu gün dünyada ciddi dəyişikliklər baş verir. Onun fikrincə, texnoloji, siyasi və hərbi transformasiyalar dünya tarixinin yeni bir mərhələsinin başladığından xəbər verir: "Bu yeni mərhələ isə ayrı-ayrı ölkələrə, onların həyata keçirdiyi siyasətə bu və ya digər dərəcədə təsir göstərir. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasətdə bəşəriyyətin üzləşdiyi təhdidlər, çağırışlar nəzərə alınıb və bununla əlaqədar olaraq lazımi tədbirlər görülüb və bundan sonra da görüləcək. Hazırda Azərbaycanın xarici siyasətinin üç əsas istiqamətini vurğulaya bilərik. Birincisi, işğal faktının aradan qaldırılmasından sonra sülh gündəliyinin xarici siyasətdə mərkəzi məsələyə çevrilməsidir. İnanıram ki, sülh müqaviləsinin imzalanması yeni bir mərhələnin əsasının qoyulması üçün ciddi vəsilə olacaq. İkinci istiqamət əməkdaşlıq və təhlükəsizlik xəttidir ki, bunun da başlıca hədəfi bütün ölkələrlə, o cümlədən bölgə dövlətləri ilə milli maraqlara uyğun hərtərəfli və etibarlı əməkdaşlığın həyata keçirilməsidir. Ölkəmizin bu istiqamətdə həyata keçirdiyi siyasətin başlıca hədəfi əməkdaşlığın etibarlı zəmin üzərində qurulmasını təmin edə biləcək kommunikasiya strategiyasının reallaşdırılması, Zəngəzur dəhlizinin açılması ilə əlaqədardır. Üçüncü istiqamət isə bütövlükdə bəşəriyyətin üzləşdiyi təhdidlər və çağırışlara milli immunitetin formalaşdırılması ilə əlaqədardır", - deyə Əli Əhmədov qeyd edib.







YAP Sədrinin müavini bildirib ki, İkinci Dünya savaşından sonra yaranan beynəlxalq təhlükəsizlik sistemi nəinki ciddi böhran içərisinə düşüb, hətta tamamilə çöküb desək, daha düzgün olar: "Dünyada baş verən qarşıdurmaların - qırğınların, kütləvi insan ölümlərinin qarşısının alınmasında Birləşmiş Millətlər Təşkilatı artıq önəmli rol oynaya bilmir, proseslərə real təsir göstərə bilmir. Ona görə də yeni dünya nizamının meydana gəlməsi çox ciddi bir reallıqdır. Yeni beynəlxalq təhlükəsizlik sisteminin yaranması bəşəriyyətin yaşamasının ən vacib şərti kimi qarşıda dayanır".

Milli Məclis Sədrinin birinci müavini deyib ki, Azərbaycanın, qardaş Türkiyənin və digər dost dövlətlərin yeni yaranacaq dünya nizamında yaxından iştirakı milli maraqlarımızın ən yüksək səviyyədə həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir: "Gündən-günə güclənən, qüdrətlənən Türkiyə, Azərbaycan və digər türk dövlətləri, eləcə də Azərbaycanla dost olan ölkələr dünyanın yeni nizamının və yeni təhlükəsizlik sisteminin yaranmasında yaxından iştirak edən aktorlar ola biləcəklər. Yalnız bunun sayəsində gələcək dünya nizamında, beynəlxalq təhlükəsizlik sistemində hər bir dövlətin, o cümlədən Azərbaycanın, Türkiyənin, bizə yaxın olan digər dövlətlərin maraqlarının nəzərə alınmasını təmin etmək mümkün olacaq. Bugünkü toplantımız da bu məsələlər ətrafında daha geniş fikir mübadiləsi aparmaq baxımından çox önəmlidir. Siyasi partiyalar olaraq bu prosesin geniş ictimaiyyət arasında müzakirə edilməsi və daha əlverişli mexanizmlərin işlənib hazırlanması üçün təkliflərin verilməsi müəyyən imkanlar yaradır".

Qazaxıstanın "AMANAT" Partiyasının İcra katibi Daulet Kəribek çıxışında Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın ürəyi, tarixi ədalətin bərpasının simvolu olan Şuşada yenidən görüşməkdən məmnunluq duyduğunu söyləyib. O qeyd edib ki, Şuşa artıq nüfuzlu beynəlxalq konfransların keçirildiyi məkana çevrilib: "Bu, Şuşanın dialoq, həmrəylik və əməkdaşlıq platforması kimi artan rolunun bariz göstəricisidir. Konfransın Azərbaycan xalqı üçün müstəsna tarixi əhəmiyyətə malik Milli Qurtuluş Günündə keçirilməsi də rəmzi xarakter daşıyır. Məhz 32 il əvvəl Heydər Əliyev Azərbaycan xalqını və dövlətçiliyini parçalanmaqdan xilas edib, ictimai-siyasi sabitliyi bərpa edib. Onun müdrik rəhbərliyi altında ölkədə dərin siyasi və sosial-iqtisadi islahatlar həyata keçirildi. Azərbaycan böyük irəliləyişə nail oldu və dünya birliyinin nüfuzlu üzvünə çevrildi. Heydər Əliyevin həyatı xalqa fədakar xidmət nümunəsidir".

"AMANAT" Partiyasının İcra katibi Azərbaycanın davamlı inkişafa malik olduğunu və beynəlxalq nüfuzunun artdığını vurğulayıb. O, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın tam suverenliyinin bərpa olunmasını bütövlükdə Cənubi Qafqaz üçün yeni dönəmin başlanğıcı kimi səciyyələndirib.

"Panel sessiyamızın mövzusuna diqqət yetirsək, əsas məqam yeni dövr anlayışıdır. Doğrudan da, bir neçə il əvvəl az ehtimal edilən bir çox məqam bu gün artıq reallıq olaraq gündəmdədir. Təəssüf ki, yeni dövr sakit şəkildə keçmir. Ekspertlərin fikrincə, 2024-cü il İkinci Dünya müharibəsindən sonra ən çox münaqişə yaşanan il olub, dünyada silahlı qarşıdurmaların sayı artıb" , - deyə o söyləyib.

D.Kəribek bildirib ki, bəşəriyyət artan iqlim çağırışları ilə də üzüzədir: "Ötən il çoxsaylı təbii fəlakətlər - daşqınlar, qasırğalar, yanğınlar baş verib. Təsadüfi deyil ki, ötən ilin noyabrında Bakıda keçirilən COP29 sammitində çıxış edən BMT Baş katibi Antonio Quterreş iqlim dəyişikliyi ilə mübarizədə təxirəsalınmaz addımlar atmağa çağırış etdi".

Bu gün siyasi partiyaların əhəmiyyətinin və rolunun daha da artdığına diqqət çəkən "AMANAT" Partiyasının İcra katibi partiyalararası dialoq vasitəsilə ölkələr arasında qarşılıqlı anlaşma və əməkdaşlığın möhkəmləndiyini deyib. "Parlament çoxluğunu təmsil edən partiya kimi "AMANAT" partiyalararası tərəfdaşlığı fəal şəkildə inkişaf etdirir. Bunu intensiv təmaslar, qarşılıqlı səfərlər və əməkdaşlıq üzrə hüquqi bazanın təkmilləşdirilməsi də təsdiqləyir. Ötən il "AMANAT" və Yeni Azərbaycan Partiyası arasında imzalanmış memorandum partiyalararası qarşılıqlı fəaliyyətin möhkəmlənməsinin parlaq nümunəsidir" deyən D.Kəribek əlaqələrin möhkəmləndirilməsinin regionun inkişafı və təhlükəsizliyi məsələlərində ortaq yanaşmaların formalaşmasına töhfə verdiyini bildirib. Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyasının Siyasi Şurası İcra Komitəsinin Sədri, Özbəkistan Respublikası Ali Məclisi Qanunvericilik Palatasındakı UzLiDeP fraksiyasının sədri Aktam Xaitov çıxışında Azərbaycanda olduğu günlərdə ölkədə, xüsusilə də Qarabağda çox böyük quruculuq işlərinin aparıldığına şahid olduğunu deyib. Səfər zamanı bir çox ölkədən olan həmkarları ilə yaxın təmas qurmaq imkanı əldə etdiklərini söyləyən A.Xaitov konfransın Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda, Şuşada keçirilməsinin mühüm əhəmiyyət daşıdığını bildirib. O, tarixi ədalətin bərpasından sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparılmasının əhəmiyyətinə diqqəti cəlb edib: "Özbəkistan daim Azərbaycanı bu istiqamətdəki səylərində dəstəkləyib və dəstəkləməyə davam edəcək. Son illər ərzində ölkələrimiz arasında ikitərəfli münasibətlər yeni yüksəliş mərhələsinə qədəm qoyub. İqtisadi və siyasi əlaqələrlə yanaşı, mədəni-humanitar əlaqələrimiz də yüksək səviyyəyə çatıb. Bu uğurlar, hər şeydən əvvəl, iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev arasındakı dostluğun və yaxın münasibətlərin nəticəsidir. Əminik ki, dövlətlərimiz arasındakı bu münasibətlər daha da inkişaf edəcək".

Konfransın çox mühüm mövzuya həsr olunduğunu deyən A.Xaitov belə tədbirlərin aktual çağırışlara cavab axtarmaq imkanı yaratdığını söyləyib. "Bu gün Yeni Azərbaycan Partiyası bizə bu mövzuları müzakirə etmək üçün geniş platforma təqdim edir və buna görə təşəkkür edirik. Biz şahidik ki, dövlət başçıları mövcud problemlərin həlli üçün birgə səylər göstərirlər. Müasir dövrdə bu problemləri yalnız birlikdə həll etmək mümkündür - bunun alternativi yoxdur. Bu proseslərdə siyasi partiyaların iştirak etməsi isə xüsusilə vacibdir" deyən A.Xaitov qlobal problemlərin təhlili və dərk olunması ilə yanaşı, onların həlli yollarının axtarışında səylərin birləşdirilməsi istiqamətində konkret təkliflərə malik olduqlarını önə çəkib.

"Biz siyasi partiyalar olaraq aktual məsələlərin həllində və onların mahiyyətinin xalqa çatdırılmasında özünəməxsus körpü rolunu oynayırıq. Buna görə də hazırkı mürəkkəb qlobal şəraitdə ölkələrimizin yaxınlaşmasına xidmət edə biləcək daha bir istiqamət partiyalararası əlaqələrin möhkəmləndirilməsidir" deyən A.Xaitov Özbəkistanın Liberal Demokrat Partiyasının bu imkanlardan daha geniş istifadə etmək məqsədilə bir sıra tərəfdaş partiyalarla, o cümlədən konfransın ev sahibi olan Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıq haqqında memorandum imzaladığını xatırladıb.

Serbiya Tərəqqi Partiyası Sədrliyinin üzvü, Serbiya Respublikasının Avropa inteqrasiyası naziri Nemanya Staroviç çıxışında bildirib ki, Şuşada keçirilən beynəlxalq konfransda müzakirə edilən mövzular Serbiyanın da gələcəyə baxışının təməl prinsiplərini əhatə edir: "Bu, milli suverenlik, regional əməkdaşlıq və qlobal təhlükəsizlik faktorlarıdır. Bu üç sütun həm ölkənin yol xəritəsini, həm də dəyişən dünyada tutacağı yeri müəyyənləşdirir. Serbiya üçün suverenlik sadəcə siyasi bir anlayış deyil, tarix boyunca qazandığı və qoruduğu bir haqdır. Biz daim dialoq və diplomatiya yolu ilə xalqın hüquqlarını və mədəni irsini qorumağa çalışırıq".

N.Staroviç qeyd edib ki, ölkənin suverenliyinin qorunması əməkdaşlıqdan keçir: "Bu səbəbdən Serbiya sabitlik və rifah üçün təşəbbüslər irəli sürür, səmərəli əməkdaşlıq həyata keçirir. Bu, iqtisadi inteqrasiyanı təşviq edir, sərbəst ticarət və əməkdaşlıq imkanlarını genişləndirir. Serbiya iqtisadi və təhlükəsizlik sahələrində də regionda etibarlı tərəfdaş kimi çıxış edir. Ölkəmiz sülhün təməlini dialoq və qarşılıqlı anlayışda görür".

N.Staroviç söyləyib ki, ölkəsi ərazi baxımdan kiçik olsa da, qlobal təhlükəsizlik məsələlərində aktiv rol oynayır: "BMT çərçivəsində həyata keçirdiyimiz sülhməramlı missiyalar bu öhdəliyimizin göstəricisidir. Eyni zamanda hərbi neytrallığımız sayəsində həm Şərq, həm də Qərblə əməkdaşlıq edərək balanslı siyasət yürüdürük. Biz həm sülh, həm də öz maraqlarımızı qorumaq iradəsinə sahibik. Serbiya öz suverenliyini qoruyan, səmərəli əməkdaşlıq edən və qlobal təhlükəsizliyə töhfə verən bir ölkə kimi gələcəyə inamla baxır".

Panel sessiyaya yekun vuran moderator Zafer Sırakaya bildirib ki, bölgə üçün xüsusi əhəmiyyət daşıyan bu beynəlxalq konfransın qədim türk şəhəri olan əziz Şuşada keçirilməsinin böyük əhəmiyyəti var. Beynəlxalq ictimaiyyətin Qarabağda yaşanan zülmə biganə qaldığı vaxtlarda Türkiyənin ədalətin yerini tapacağına olan inamını qətiyyətlə ifadə etdiyini bildirən Z.Sırakaya Şuşa Bəyannaməsini ikitərəfli münasibətlərin müttəfiqlik səviyyəsinə qaldırılması iradəsinin bariz təzahürü adlandırıb və bəyannamənin dörd il öncə məhz bu torpaqlarda imzalanmasını böyük qürur kimi dəyərləndirib.

Moderator qeyd edib ki, Qarabağın azad olunması Cənubi Qafqazda əhəmiyyətli bir dönüş nöqtəsi olub. Artıq bölgədə Azərbaycanın liderliyi ilə sülh və sabitlik dövrü başlayıb. "Regional təhlükəsizliyin ayrılmaz tərkib hissəsi olaraq Azərbaycanın Böyük qayıdış proqramı çərçivəsində bu günə qədər çox sayda insanın Qarabağa geri dönməsi ilə fəxr edirik. "Türk qapısı" olaraq adlandırılan Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında qurulacaq birbaşa əlaqə isə Orta Asiya ilə münasibətlərimizi daha da gücləndirəcək və əminik ki, türk dünyasının gücünə güc qatacaq. Zəngəzur dəhlizi başda olmaqla regional nəqliyyat marşrutlarının yenidən açılması bölgədə sabitlik və rifaha töhfə verəcək, ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcək. İnanırıq ki, Azərbaycan Zəfərlə yanaşı, regionda sülhün də baş memarı olacaq" , - deyə Z.Sırakaya vurğulayıb.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Şamil Ayrımın moderatorluğu ilə "Ədalət naminə həmrəylik: siyasi partiyaların rolu" mövzusunda keçirilən panel sessiyasında çıxış edən Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Şuşada Milli Qurtuluş Günündə keçirilən tədbir tarixi yaddaşa ehtiramın və gələcəyə yönəlik qətiyyətli baxışın təzahürüdür. Onun sözlərinə görə, xaosdan dövlət quruculuğuna, təhlükədən sabitliyə, ümidsizlikdən qurtuluşa gedən yol məhz Ümummilli Lider Heydər Əliyevin xalqın çağırışına cavab verməsi ilə başlandı: "O dövrdə yalnız idarəçilik yox, inam, ümid və ləyaqət bərpa olundu".

Bu gün dünyanın sürətlə dəyişdiyini deyən B.Muradovanın fikrincə, ədalət axtarışı lokal deyil, qlobal bir ehtiyaca çevrilib. "Siyasi partiyalar bu axtarışda xalqların iradəsinin daşıyıcısı kimi çıxış etməlidirlər. Biz fərqli regionlardan ola bilərik, lakin ortaq bir amalımız var: ədalətli, sabit və dəyərlərə əsaslanan dünya nizamı qurmaq. Bugünkü mürəkkəb beynəlxalq mənzərə - istər silahlı münaqişələr, istər humanitar fəlakətlər, istərsə də qlobal iqlim və iqtisadi böhranlar onu göstərir ki, xalqlar arasında həmrəylik olmadan heç bir hüquqi norma işlək olmur" deyən YAP İdarə Heyətinin üzvü qeyd edib ki, bu baxımdan Avrasiya məkanında fəaliyyət göstərən siyasi partiyaların qarşılıqlı əməkdaşlığı son dərəcə mühüm əhəmiyyətə malikdir.

Bahar Muradova bildirib ki, bu əməkdaşlıq yeni beynəlxalq dialoq formatlarına çevrilməlidir. "Yeni Azərbaycan Partiyasının təşəbbüsləri və açıq siyasəti digər partiyalarla sağlam tərəfdaşlığa geniş imkanlar yaradır. Hər bir xalqın öz taleyini azad şəkildə müəyyən etmək haqqı var. Hər bir dövlətin suverenliyi və ərazi bütövlüyü beynəlxalq hüququn ayrılmaz prinsipidir. Ədalət isə universal dəyərdir və coğrafiyaya görə dəyişməməlidir. Azərbaycan xalqı bu prinsipləri həyatın bütün sınaqlarından çıxardı. Qarabağın azad olunması təkcə ərazi bütövlüyünün bərpası deyil, eyni zamanda tarixi ədalətin bərpasıdır. Şuşa bu gün yalnız mədəniyyətin deyil, həm də tolerantlıq və sülh iradəsinin təcəssümüdür" deyən B.Muradova əlavə edib ki, siyasi partiyalar olaraq insan ləyaqətini və azadlığını qorumalı, hüquq və ədaləti müdafiə etməli, həmrəyliyi isə yalnız çağırış kimi deyil, fəaliyyət kimi yaşatmalıyıq.

"Gəlin, siyasi rəqabəti əməkdaşlığa, ideoloji fərqliliyi birgə zənginliyə, dəyərləri isə hərəkətə çevirək. Çünki tarix susanları yox, danışan və dəyişənləri xatırlayır. Ədalət və həmrəylik yolunda bir addım belə atmaq insanlıq yolunda irəliləyişdir. İstərdik ki, siyasi institutlar, vətəndaş cəmiyyətləri heç zaman siyasi rəqabəti düşmənçiliyə, ədaləti haqsızlığa, əməkdaşlığı qarşıdurmaya qurban verməsinlər, qlobal həmrəyliyi gözləntidən reallığa, deklorasiyalardan fəaliyyətə çevirsinlər" , - deyə YAP İdarə Heyətinin üzvü vurğulayıb.

Çıxış edən Tacikistan Xalq Demokratik Partiyası Sədrinin birinci müavini Malikşo Nematzodanın sözlərinə görə, dünyanın müxtəlif yerlərində dövlətlərarası münaqişələr güclənir, fərqli regionlarda geosiyasi rəqabətin kəskinləşməsi müşahidə olunur. Onun sözlərinə görə, bu gün dünyada ziddiyyətli geosiyasi proseslər şiddətlənir, yeni silahlı münaqişələr, iqlim dəyişikliyinin fəsadları və digər qlobal təhlükə və təhdidlərin uzunmüddətli mənfi nəticələri meydana çıxır: "Bu kontekstdə təhlükəsizliyin və sabitliyin qorunması, dayanıqlı inkişafın təmin edilməsi üçün birgə səylərin birləşdirilməsi hər zamankından daha zəruridir".

M.Nemətzoda qeyd edib ki, bir çox regionda siyasi və iqtisadi böhranların kəskinləşməsi şəraitində ölkə rəhbərləri sabitliyi və təhlükəsizliyi qorumaq, habelə iqtisadiyyatı gücləndirmək, bununla da əhalinin həyat səviyyəsini və keyfiyyətini yüksəltmək naminə yeni və aktual ideyalar axtarırlar. Onun fikrincə, qloballaşma prosesinin güclənməsi və müasir problemlərin hərtərəfli xarakter alması kontekstində yaşadığımız dünya çox həssas olub: "Bu kimi amillərə uyğun yanaşma həm əlverişli yaşayış şəraitinin və davamlı inkişafın təmininə, həm də regional və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsinə mühüm töhfə verir. Partiyalararası əməkdaşlığa əsaslanan siyasi inteqrasiya davamlı inkişafa töhfə verən mühüm amilə çevrilə bilər".

# geosiyasi aspektlər və qlobal çağırışlar"

## Şuşa şəhərində beynəlxalq konfrans keçirilib

O, diqqətə çatdırıb ki, Tacikistan həmişə region ölkələri və dünyanın digər dövlətlərinin siyasi partiyaları arasında əlaqələrin möhkəmləndirilməsi və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin tərəfdarı olub, gələcəkdə də bu mövqeyinə sadiq qalacaq: "Bizim regionun üzv dövlətləri olaraq istifadə olunmamış nəhəng resurslarımız var ki, onlardan yalnız əməkdaşlıq yolu ilə istifadə edə bilərik. Eyni zamanda qeyd etməliyəm ki, Tacikistan Xalq Demokratik Partiyası Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıq edir və əlaqələri daha da genişləndirməyə hazırdır".

Çıxış edən Belarusun "Belaya Rus" Partiyası sədrinin müavini Andrey Buqrov əmin olduğunu bildirib ki, Şuşada keçirilən konfrans əməkdaşlıq və tərəfdaşlığın inkişafına müsbət təsir göstərəcək. Hazırda dünyanın hərtərəfli etimada, ədalətə, mədəniyyətə ehtiyacı olduğunu deyən A.Buqrov "Dünya sürətlə dəyişir, iqtisadiyyat rəqəmsallaşır. Ədalət bir arxitekturadır və onun siyasi memarı kimi siyasi partiyalar çıxış edirlər. Siyasi partiyaların daha canlı, daha fəal olması çox vacibdir" deyə söyləyib.

Andrey Buqrov qeyd edib ki, siyasi partiyalar münaqişələri aradan qaldıra bilməsə də, bunun üçün əlindən gələni etməlidirlər: "Ədalət hər bir ölkə üçün əsasdır. Belarus hər zaman ədalətin tərəfdarıdır. Bu gün Belarusun parlamentində 51 deputatımız fəaliyyət göstərir. Bu da ümumi deputatların 46 faizinə bərabərdir. Biz əlimizdən gələni edirik ki, partiya tarixi ədaləti qoruyub saxlasın".

O bildirib ki, bu gün dünyada hər bir siyasi qüvvə özünəməxsusluğu qorumağa çalışır, amma həmfikir olduqda birgə nailiyyətlərə imza atmaq mümkündür.

Ukraynanın Xalqın Xidmətçisi Siyasi Partiyasının beynəlxalq əlaqələr üzrə katibi, Ukrayna Ali Radasının üzvü Vadim Halayçuk Şuşada keçirilən beynəlxalq konfransın dost ölkələrin siyasi partiyaları arasında münasibətlərin inkişafı və əməkdaşlığın dərinləşdirilməsi baxımından çox əhəmiyyətli olduğunu bildirib. O, təmsil etdiyi partiyanın parlamentdə 40 üzvünün olduğunu qeyd edib. "Biz Ukrayna tarixində ilk dəfə parlamentdə çoxluq təşkil etmişik. Kifayət qədər səsimiz var ki, vacib islahatları həyata keçirək, ölkə inkişaf etsin".

Vadim Halayçuk deyib ki, ədalətli dünya naminə səylərin birləşdirilməsi lazımdır: "Beynəlxalq münasibətlər sistemində böyük dəyişikliklər baş verir. Olduqca mürəkkəb bir tarixi mərhələdə yaşayırıq. Beynəlxalq hüquq qorunmalı, ölkələr bir-birinin maraqlarını nəzərə alaraq bəşəri dəyərlərə uyğun siyasət həyata keçirməlidirlər".

Moderator Şamil Ayrım qeyd edib ki, yeni dünya nizamının qurulduğu bir vaxtda Azərbaycan çox mühüm diplomatik və hərbi qələbələrə imza atıb. Onun sözlərinə görə, Azərbaycanın tam suverenliyinin bərpası müstəsna tarixi əhəmiyyətə malikdir: "Təəssüf ki, bu gün bölgədə sülhün bərqərar olunmasını istəməyən bəzi qüvvələr regionu yenidən qarşıdurmaya sürükləmək üçün müxtəlif üsullara əl atırlar. Həmin qüvvələr unutmasınlar ki, Azərbaycan öz Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfər qazandı. Bu, ədalətin Qələbəsidir. Tarixi Zəfərdən sonra 2021-ci il 15 iyun tarixində Şuşa şəhərində Azərbaycan və Türkiyə liderlərinin imzaladıqları Şuşa Bəyannaməsi iki ölkə arasında dostluğun, qardaşlığın rəmzi olan son dərəcə qiymətli sənəddir".

Sonra Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradovun moderatorluğu ilə "Ortaq dəyərlər və süni intellekt: yeni təhdidlər və imkanlar" mövzusunda panel sessiyası keçirilib.



Çıxış edən Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey bildirib ki, son yüz ildə görünməmiş dəyişikliklər fonunda dünya önəmli transformasiya mərhələsinə daxil olaraq yeni kritik dönüş nöqtəsinə çatıb. Onun sözlərinə görə, beynəlxalq vəziyyətdəki dərin dəyişikliklər siyasi partiyaların, siyasətçilərin ictimai rəyin aparıcısı kimi çətinlikləri aradan qaldırmaq, transformasiya şəraitində islahatlar və yeniliklər həyata keçirmək məsuliyyətini daha da artırıb: "Hazırda süni intellekt kimi yeni texnologiyaların sürətli inkişafı elmi-texniki inqilabın və sənaye dəyişikliklərinin yeni mərhələsinin əsas hərəkətverici qüvvəsinə çevrilib. Süni intellekt insanların həyatında və istehsalda misli görünməmiş imkanlar açır, qlobal idarəçilikdə yeni mühüm mövzu kimi siyasi partiyaların və hökumətlərin diqqətini cəlb edir. Çin hər zaman süni intellekt sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsinin tərəfdarı olub. Məqsəd bu texnologiyaların bütün bəşəriyyətin rifahına xidmət etməsini təmin etmək və süni intellektin zənginlərin və güclü ölkələrin oyuncağına çevrilməsinin qarşısını almaqdır".

2023-cü ildə Çin Xalq Respublikasının Sədri Si Cinpinin "Süni İntellektin İdarəedilməsi üzrə Qlobal Təşəbbüs" irəli sürdüyünü xatırladan diplomatın sözlərinə görə, bu, insanların rifahının yaxşılaşdırılması və sosial-iqtisadi inkişafın təşviqi, habelə yeni texnologiyalardan sui-istifadənin qarşısının alınması məqsədilə insan mərkəzli süni intellektin inkişafına sadiqliyi özündə əks etdirir.

Səfir qeyd edib ki, Çin ilə Azərbaycan dost və etibarlı tərəfdaş ölkələrdir. Diplomatik əlaqələrin qurulmasından keçən 33 il ərzində ikitərəfli münasibətlərin sağlam və sabit şəkildə inkişaf etdiyini vurğulayan Lu Mey müxtəlif sahələrdə əməkdaşlığın məhsuldar nəticələr verdiyini deyib. Onun sözlərinə görə, son illərdə Çin Xalq Respublikasının Sədri Si Cinpin və Prezident İlham Əliyevin şəxsi diqqəti və strateji rəhbərliyi sayəsində Çin-Azərbaycan münasibətləri yeni inkişaf mərhələsinə daxil olub. "Bu ilin aprelində Prezident İlham Əliyevin Çinə uğurlu dövlət səfəri baş tutdu və ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulması haqqında Birgə Bəyanat imzalandı. Müxtəlif sahələr üzrə əməkdaşlığın dərinləşdirilməsi üçün vacib razılaşmalar əldə olundu və bu, ikitərəfli münasibətlərdə yeni bir tarixi mərhələnin başlanğıcını qoydu" deyən səfir bildirib ki, siyasi partiyalararası münasibətlər Çin-Azərbaycan əlaqələrinin mühüm tərkib hissəsidir. Onun sözlərinə görə, Çin Kommunist Partiyası Yeni Azərbaycan Partiyası ilə institusional əməkdaşlığa böyük əhəmiyyət verir: "Partiyalar arasında münasibətlər Çin-Azərbaycan əlaqələrinin inkişafına mühüm töhfələr verir".

Bolqarıstanın Haqq və Azadlıqlar Hərəkatı parlament fraksiyası sədrinin müavini Ceyhan İbryamov bildirib ki, Balkan ölkəsi olaraq Bolqarıstan fərqli mədəniyyətlərin kəsişdiyi bir coğrafiyadır. O qeyd edib ki, qardaş ölkələrdə yaşayan dostları bir araya gətirən bu cür konfranslar sülh, əmin-amanlıq uğrunda mübarizə aparmağın göstəricisidir: "Şuşada - türk dünyasının mədəniyyət mərkəzində belə bir konfransda iştirak etmək Bolqarıstan nümayəndə heyəti üçün böyük şərəfdir. Azərbaycan xalqını 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbrik edirəm".

O qeyd edib ki, dost ölkələri bir araya gətirən konfrans son dərəcə aktual mövzuları özündə ehtiva edir: "Süni intellekt ədaləti, azadlığı, bərabərliyi, həmrəyliyi daha da gücləndirmək vasitəsinə çevrilməlidir. Onunla bağlı problemləri şəffaf, sərbəst, etik və məsuliyyətli şəkildə həll etmək lazımdır".

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qeyd edib ki, süni intellekt mövzusu müasir dövrün ən aktual məsələlərindəndir. Bu sahədə qazanılan nailiyyətlərdən artıq inkişaf etmiş ölkələr kifayət qədər istifadə edir. Ümumiyyətlə, müasir texnologiyalardan istifadə etmək cəmiyyəti, ölkəni kifayət qədər irəli aparır. Azərbaycan 44 günlük Vətən müharibəsində ən müasir texnologiyalardan istifadə edərək hərb sənətinə yeni bir istiqamət gətirdi. Dinc sakinlərə toxunmadan hər hansı bir hərbi hədəfləri vurmaqla Azərbaycan sübut etdi ki, müasir texnologiyalardan istifadə etməklə qarşıya qoyulan məqsədlərə ən qısa müddətdə çatmaq olar".

Dünyada yeni texnologiyalardan istifadənin sürətlə genişləndiyini bildirən E.Qasımov vurğulayıb ki, artıq xüsusi proqramlar vasitəsilə diaqnostika və cərrahiyyə əməliyyatları aparılır: "Süni intellekt tətbiq etməklə avtomobilləri istehsal edərək sürücülər olmadan marşrutlara buraxırlar. Artıq bir sıra inkişaf etmiş ölkələrin şirkətlərində mühasibatlıqlar ləğv edilir, maliyyə hesabatları süni intellekt vasitəsilə bir neçə saat ərzində dəqiq həll edilir. Bütün bunlar həm böyük üstünlüklər yaradır, həm də müəyyən problemlərə yol açır. Beləliklə, bu müsbət elementlərin birinci təhdidi odur ki, işsizlik əmələ gəlir. Çünki milyonlarla insan işsiz qala bilər. Bu təhdidlərin qarşısını almaq üçün həmin mütəxəssislərə indidən əlavə bacarıqlar verilməlidir. İkinci ən mühüm məsələ milli təhlükəsizliyə olan təhdiddir".

E.Qasımov Çin təcrübəsinin daxildən və xaricdən təhlükələrin qarşısını almaq üçün nümunəvi model olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Azərbaycan üçün bu sahədə geniş imkanlar var: "Azərbaycan ilə Çin arasında uğurlu əməkdaşlıq əlaqələri mövcuddur. Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq əlaqələri uğurla inkişaf edir. Hesab edirik ki, bizim elmi mərkəzlər, universitetlər Çinin təcrübəsindən yararlanmalıdır".

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Tahir Mirkişili çıxışında bildirib ki, XXI əsrin ən önəmli texnoloji nailiyyətlərindən biri olan süni intellekt dərin dəyişikliklər yaradır. Onun sözlərinə görə, süni intellektin inkişafı ilə ortaq dəyərlərin qorunması arasında tarazlıq yaratmaq çağımızın əsas çağırışlarından biridir: "Bu prosesdə əsas məqsəd texnologiyanın insanlığa xidmət etməsi və bəşəriyyətin rifahını artırması olmalıdır".

T.Mirkişili deyib ki, süni intellekt artıq gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilməkdədir. Onun sözlərinə görə, süni intellekt axtarış motorlarından tibbi diaqnostikaya, maliyyə xidmətlərindən təhsil sistemlərinə qədər müxtəlif sahələrdə istifadə olunur: "Generativ süni intellekt sistemləri yaradıcılıq və məhsuldarlıq sahələrində inqilab yaratdı. Lakin bu sürətli inkişaf texnologiyanın insani dəyərlərlə uyğunluğu məsələsini daha aktual məsələyə çevirib. Ortaq dəyərlər müxtəlif mədəniyyət və cəmiyyətlərdə paylaşılan əsas prinsiplərdir ki, bunlara bir sıra amillər daxildir. Belə ki, insan ləyaqəti və hüquqları, ədalət və bərabərlik, şəffaflıq və hesabatlılıq və digər amillər burada xüsusi vurğulanmalıdır".

Deputat qeyd edib ki, süni intellekt sistemlərinin qəbul etdiyi qərarlarda səhv baş verdikdə məsuliyyəti kimin daşıyacağı aydın deyil: "Süni intellekt sistemləri böyük həcmdə şəxsi məlumat toplamağa qadirdir, bu da fərdiyyət və məxfilik hüquqlarını təhdid edir. Süni intellektin ortaq dəyərlərlə uyğunlaşdırılması üçün müxtəlif yanaşmalar mövcuddur. Cəmiyyətin bütün təbəqələri süni intellekt texnologiyaları haqqında məlumatlandırılmalı və onların potensial təsirləri barədə bilikli olmalıdır. Hökumətlər süni intellekt sistemlərinin etik istifadəsini təmin edən qanunlar və standartlar hazırlamalıdır. Biz Türk Dövlətləri Təşkilatı çərçivəsində model qanun layihəsinin hazırlanmasına da nail ola bilərik. Süni intellekt texnologiyaları qlobal xarakter daşıdığı üçün beynəlxalq əməkdaşlıq və koordinasiya zəruridir. Özünəməxsus zəngin dəyərlərin qorunmasına xüsusi diqqət verən Azərbaycan və digər ölkələr üçün süni intellekt texnologiyalarının ortaq dəyərlərlə uyğunlaşdırılması xüsusən vacibdir. Ənənəvi dəyərlər və müasir texnologiyalar arasında balans yaratmaq, milli mədəni dəyərləri qoruyub saxlamaqla yanaşı, qlobal süni intellekt standartlarına uyğunluğu təmin etmək vacibdir. Azərbaycanda qəbul edilmiş süni intellekt strategiyası bu istiqamətdə mühüm addımdır. Süni intellekt və ortaq dəyərlər arasında körpü qurmaq sadəcə texniki məsələ deyil, eyni zamanda fundamental insani məsələdir. Bizim məqsədimiz süni intellekt texnologiyalarını insan ləyaqətini qoruyan, ədaləti gücləndirən və cəmiyyətə fayda verən şəkildə inkişaf etdirmək olmalıdır. Bu, kollektiv səy və davamlı dialoq tələb edir. Texnologiyanın gələcəyini formalaşdıran insanlardır və gələcəyin necə olacağı bizim indiki seçimlərimizdən asılıdır".

Moderator Ədalət Muradov isə qeyd edib ki, Milli Qurtuluş Günü milli kimliyimizə və tariximizə bağlılıq, dil və mədəniyyətin qorunması, dövlət rəmzlərinə hörmət kimi dəyərləri dövlət siyasətinin mərkəzinə daşıyıb. Onun fikrincə, bu amil Milli Qurtuluş Gününü dəyərlər üzərində qurulmuş siyasi və ideoloji yenidənqurmanın simvoluna çevirir: "Bu gün biz həmin tarixi irsin daşıyıcıları olaraq Şuşa kimi müqəddəs bir məkanda ortaq dəyərlər və süni intellekt mövzusunda müzakirə aparırıq. Bu, təkcə elmi və texnoloji deyil, həm də ideoloji və mənəvi bir məsələdir. Bu, keçmişin irsi ilə gələcəyin zəkası arasında körpü rəmzidir".

YAP İdarə Heyətinin üzvü əlavə edib ki, tədbirin məhz Şuşada keçirilməsinin bir sıra rəmzi mənası var: "Şuşa - Azərbaycan mədəniyyətinin beşiyi, milli kimliyin, mədəni irsin simvoludur. Bu şəhərdə dəyərlərdən danışmaq milli yaddaşın bərpasını ifadə edir. İşğaldan azad olunmuş torpaqlarda mənəvi dirçəliş baş verir".

Ə.Muradov qeyd edib ki, süni intellekt qlobal məsələdir: "Amma dəyərlər milli-mənəvi kimliyimizə bağlıdır. Konfransda bir sıra ölkələrdən nümayəndələrin iştirakı isə müxtəlif mədəniyyətlər arasında dəyər mübadiləsinin vacibliyini ortaya qoyur. Yəni Azərbaycan dəyərlərə əsaslanan texnoloji inkişafla gələcəyə töhfə verməyə çalışır".

Onun sözlərinə görə, dünyada süni intellekt və rəqəmsallaşma ilə bağlı tədqiqatlar aparılsa da, bu texnologiyanın milli dəyərlərə təsiri barədə müzakirələrə nadir hallarda rast gəlinir. "Əminliklə deyə bilərəm ki, bu konfrans Yeni Azərbaycan Partiyasının gələcəyə baxışının göstəricisidir. Bu, onun həm bu günün, həm də sabahın partiyası olduğunu bir daha sübut edir", - deyə rektor bildirib.

Konfrans Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

Beynəlxalq konfransın iştirakçıları Şuşa və Xankəndinin tarixi məkanları, aparılan tikinti və bərpa-quruculuq işləri ilə tanış olublar.




***"Azərbaycan"***

# Azərbaycan və Şimali Makedoniya arasında parlamentlərarası əlaqələr, habelə regional məsələlər müzakirə edilib

İyunun 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Şimali Makedoniya Assambleyasının sədri Afrim Qaşinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə Şimali Makedoniya arasında mövcud ikitərəfli və çoxtərəfli gündəlikdə duran məsələlər, parlamentlərarası əlaqələr, habelə regional məsələlər müzakirə edilib.

Söhbət zamanı ölkələrimiz arasında son zamanlar yüksəksəviyyəli səfər və təmasların artan dinamizmindən məmnunluq ifadə olunub, bu çərçivədə liderlərimiz arasında görüşlər, parlamentlərimiz arasında artan dialoq, xarici işlər nazirləri arasında təmasların, eləcə də Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti qeyd olunub. İki ölkə arasında digər vacib istiqamətlər ilə yanaşı, ənənəvi və bərpaolunan enerji istiqamətləri üzrə tərəfdaşlığın inkişafı üçün geniş perspektivlərin mövcud olduğu diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan-Ermənistan normallaşma prosesinin gedişatı və bu prosesə mane olan amillər barədə ətraflı məlumatlandırıb. Tərəflər arasında yekun sülh sazişinin imzalanması üçün Ermənistanın konstitusiyasında Azərbaycana qarşı mövcud ərazi iddialarının aradan qaldırılması və artıq öz aktuallığını itirmiş olan Minsk qrupu kimi təsisatların ləğv edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Şimali Makedoniya Respublikası Assambleyasının Sədri ölkəmizə səfərə gəlib

Şimali Makedoniya Respublikası Assambleyasının Sədri Afrim Qaşi iyunun 16-da Azərbaycana rəsmi səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Heydər Əliyev Beynəlxalq Hava Limanında qonağı Milli Məclis Sədrinin müavini Rafael Hüseynov, Azərbaycan-Şimali Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fazil Mustafa, Azərbaycanın Şimali Makedoniyadakı səfiri Kamil Xasiyev və digər rəsmi şəxslər qarşılayıblar.

Spiker Afrim Qaşi ölkəmizə səfəri çərçivəsində dövlət rəsmiləri ilə bir sıra görüşlər keçirəcək, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) 65-ci plenar sessiyasının tədbirlərinə qatılacaq.

*"Azərbaycan"*

# Bolqarıstan Milli Assambleyasının Sədri ölkəmizə səfərə gəlib

Bolqarıstan Respublikası Milli Assambleyasının Sədri Nataliya Kiselova iyunun 17-də Azərbaycana işgüzar səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə Heydər Əliyev Beynəlxalq Hava Limanında qonağı Milli Məclisin deputatı Kamran Bayramov, Azərbaycanın Bolqarıstandakı səfiri Hüseyn Hüseynov, Bolqarıstanın Azərbaycandakı səfiri Ruslan Stoyanov və digər rəsmi şəxslər qarşılayıblar.

Spiker Nataliya Kiselova ölkəmizə səfəri çərçivəsində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) 65-ci plenar sessiyasında iştirak edəcək, həmçinin, ölkə rəsmiləri ilə bir sıra görüşlər keçirəcək.

*"Azərbaycan"*

# Bolqarıstan Milli Assambleyasının Sədri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib





Ölkəmizdə işgüzar səfərdə olan Bolqarıstan Respublikası Milli Assambleyasının Sədri Nataliya Kiselovanın başçılıq etdiyi nümayəndə heyəti iyunun 17-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub, gül dəstələri düzüb. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatı, parlamentin Bolqarıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Kamran Bayramov və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# Azərbaycanla Böyük Britaniya arasında qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub

İyunun 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın xarici işlər, ittifaq və inkişaf məsələləri üzrə dövlət katibi Devid Lemmi arasında telefon danışığı baş tutub.



AZƏRTAC xəbər verir ki, telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq məsələləri, İsrail-İran qarşıdurması nəticəsində mövcud regional vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında sülh prosesinin perspektivləri müzakirə olunub.

Birləşmiş Krallıq naziri Qurtuluş Günü münasibətilə təbriklərini çatdırıb, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Kralın Təvəllüd Günü münasibətilə edilmiş təbriklərə görə təşəkkür edib. O, həmçinin Əhmədabad şəhəri yaxınlığında "Air India" şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində Böyük Britaniya vətəndaşlarının həlak olması ilə bağlı cənab Prezident İlham Əliyev tərəfindən göndərilmiş başsağlığı məktubunu yüksək dəyərləndirdiklərini bildirib. Nazir Ceyhun Bayramov öz növbəsində təbrikə görə təşəkkür edib və başsağlığı diləklərini çatdırıb.

Tərəflər İsrail-İran toqquşması nəticəsində bölgədə yaranmış təhlükəsizlik vəziyyətindən ciddi şəkildə narahat olduqlarını bildirib, vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq məqsədilə diplomatik yollarla təmasların və danışıqların davam etdirilməsinin vacib olduğunu vurğulayıblar.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Baş prokuror Türkiyənin Baş ombudsmanı ilə görüşüb

İyunun 17-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ilə ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının Baş ombudsmanı Mehmet Akarca arasında görüş keçirilib.



Baş Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, qonağı salamlayan Baş prokuror Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "bir millət, iki dövlət" prinsipinə əsaslanan iki qardaş ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı etimada əsaslanan siyasi iradəsi nəticəsində bu əlaqələrin dünyada bənzəri olmayan səviyyəyə yüksəldiyini bildirib.

Baş prokuror ölkəmizdə insan hüquq və azadlıqlarının təmin olunmasının dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən olunduğunu qeyd edərək, bu istiqamətdə qəbul olunmuş dövlət proqramları və strateji sənədlərin sistemli fəaliyyətin əsasını təşkil etdiyini bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Mehmet Akarca müxtəlif illərdə Ankarada, İstanbulda, Bakıda və Naxçıvanda keçirilmiş çoxsaylı görüşlər, o cümlədən beynəlxalq tədbirlər çərçivəsində qurulan səmərəli dialoqun ikitərəfli əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verdiyini qeyd edib.

Kamran Əliyev ölkələrimiz arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi və insan hüquqlarının qorunması sahəsindəki xidmətlərinə görə Mehmet Akarcanı Azərbaycan Prokurorluğunun 100 illiyi yubiley medalı ilə təltif edib.

# QDİƏT PA-nın Sosial və humanitar siyasət komitəsinin iclası keçirilib

İyunun 17-də Milli Məclisdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) Sosial və humanitar siyasət komitəsinin əlavə iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə tədbirdə Milli Məclisin deputatları - QDİƏT PA-da nümayəndə heyətimizin rəhbəri Eldar Quliyev, üzvləri Eldar İbrahimov, Musa Quliyev, Səbinə Salmanova, quruma üzv ölkələrin parlament nümayəndə heyətləri və digər şəxslər iştirak ediblər.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin, həmçinin QDİƏT PA-nın Sosial və humanitar siyasət komitəsinin sədri Musa Quliyev diqqətə çatdırıb ki, tədbir "QDİƏT-ə üzv dövlətlərdə əlilliyi olan şəxslərin təhsilinin və məşğulluğunun artırılması üzrə cari təcrübə və strategiyalar" mövzusuna həsr olunub.

İclasda "QDİƏT-ə üzv dövlətlərdə əlilliyi olan şəxslərin təhsilinin və məşğulluğunun artırılması üzrə cari təcrübə və strategiyalar" mövzusunda hesabat layihəsinə baxılıb, eyni mövzuda tövsiyə qərarının layihəsi səsə qoyularaq qəbul edilib.

Tədbirdə QDİƏT Parlament Assambleyasının Baş katibi Asəf Hacıyev iştirak edib.

*"Azərbaycan"*

# Nazir Anar Əliyev dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə növbəti görüş keçirib

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Mentorluq proqramı çərçivəsində dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri Nicat Qocayev və Eyyub Fətəliyev ilə növbəti görüş keçirib.



Mentorluq proqramına uyğun olaraq Nazirlikdə müsabiqə qaliblərinin təcrübə imkanlarını artırmaları üçün yaradılan şərait, onların liderlik potensiallarının inkişaf etdirilməsi məqsədilə aparılan işlərdən bəhs olunub.

Müsabiqə qalibləri Nazirlik və qurumlarında rəhbər vəzifəli şəxslərlə mütəmadi görüşlər keçirdiklərini bildirib, mentorluq proqramı çərçivəsində onların bilik və təcrübələrini, bacarıqlarını artırmaları üçün yaradılan şəraitdən razılıqlarını ifadə ediblər.

Görüşdə proqramın davamı olaraq görüləcək işlərdən bəhs olunub, mentilərlə bağlı fərdi inkişaf planına dair fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Anar Əliyev Mentorluq proqramı çərçivəsində dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri Nicat Qocayev və Eyyub Fətəliyevin mentorudur.

"Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixində imzaladığı Sərəncamla təsis olunub. Müsabiqə qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı ilə təmin olunur və 20 min manat mükafat əldə edirlər.

Sayca beşinci "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 18 dekabr 2024-cü il tarixində müvafiq Sərəncam imzalanıb.

# Energetika naziri Pərviz Şahbazov vətəndaşların müraciətini dinləyib

Energetika naziri Pərviz Şahbazov Bakı şəhəri, Biləsuvar və Sabirabad rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Nazirlik AZƏRTAC-ın yaydığı məlumata istinadən xəbər verir ki, görüş zamanı vətəndaşların elektrik naqilləri və dirəklərinin istismar vəziyyəti, enerji sərfiyyatının hesablanması, elektrik enerjisi və təbii qazdan istifadəyə görə borcun yaranması, sayğacların quraşdırılması, işlə təminat və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, Energetika Nazirliyi tərəfindən vətəndaş müraciətlərinə baxılması işinin səmərəli təşkili məqsədilə rəhbər vəzifəli şəxslərin vətəndaş qəbulu qrafiki nazirliyin rəsmi internet saytında yerləşdirilib.

# Beşinci sosial paketin yeni mərhələsi başlayır

Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətə uyğun olaraq insanların rifah halının davamlı şəkildə yaxşılaşdırılması istiqamətində addımlar atılır. Bu siyasətin prioritetlərindən biri kimi 2025-ci ildən start verilən beşinci sosial paket çərçivəsində pensiya və əməkhaqları, müxtəlif müavinətlər artırılıb.



Milli Məclisin deputatı Aydın Hüseynov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, dövlət başçısının iyunun 12-də imzaladığı "Sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Fərmana əsasən, sosial paketin icrasının yeni mərhələsi başlanıb. Fərmanın əhatə dairəsi kifayət qədər genişdir. "Burada müxtəlif istiqamətlər üzrə sosial ödənişlərdə ciddi artımlar nəzərdə tutulur. Dövlətimizin başçısının imzaladığı fərmanla iyulun 1-dən Azərbaycanda şəhid ailələri, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü 700 manat müəyyənləşdirilib. Müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü, orqanizmin funksiyalarının itirilməsinə görə müavinətlər də müvafiq olaraq artırılıb. Bundan başqa, Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü, Milli Qəhrəmanlara Prezidentin aylıq təqaüdü, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü, uşağın anadan olmasına görə birdəfəlik müavinət, dəfn üçün birdəfəlik müavinət, himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə aylıq müavinətlər də müvafiq yaş qrupları üzrə artırılıb. Əlilliyi olan şəxslərə müavinət, orqanizmin funksiyalarının pozulmasına görə (faiz dərəcələri üzrə), övladlığa götürülən hər uşağa görə aylıq müavinət, ailə başçısını itirməyə görə aylıq müavinət, bir yaşınadək uşağı olan aztəminatlı ailələrə hər uşağa görə aylıq müavinət, beşdən çox uşağı olan qadınlara hər uşağa görə aylıq müavinət, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların qəyyumları üçün aylıq müavinət, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) və əlilliyi olan uşaqlara qulluq edənlərə Prezidentin aylıq təqaüdü, eləcə də fəxri adlara layiq görülmüş şəxslərin aylıq təqaüdləri gələn aydan artımla veriləcək", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, sənədə əsasən, sosial müavinət və təqaüdlər orta hesabla 20 faiz artırılıb. Üç milyon insanı əhatə edən sosial islahat paketi insanların rifah halının yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycanın xarici siyasətinin uğurları

# Uğurlu diplomatiya, yüksək nüfuz

## İlham Əliyev Azərbaycanı beynəlxalq siyasətin subyektindən onun mühüm aktoruna çevirib



**Beş il öncə İkinci Qarabağ müharibəsi nəticəsində yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional mövqeyinin möhkəmləndirilməsini və beynəlxalq münasibətlər sistemindəki rolunun daha da artmasını şərtləndirdi. Yəni hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu bir qədər də möhkəmləndirdi.**

**İndi qalib ölkə kimi Azərbaycan qaydaları özü müəyyənləşdirir, tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təkliflərini ortaya qoyur.**

**Bütün görüş və çıxışlarında, müsahibələrində regionda yaranan qarşılıqlı faydalı əməkdaşlıq imkanlarından söz açan Prezident İlham Əliyev yeni reallıqların çoxşaxəli münasibətlərin daha dinamik inkişafına xidmət göstərdiyini bəyan edir.**

### Etibarlı, güclü və sülhsevər tərəfdaş

Ümumiyyətlə, son illərdə Azərbaycan regionda və beynəlxalq aləmdə yüksələn nüfuzu ilə seçilir. Bu nüfuz yalnız ölkəmizin coğrafi mövqeyindən və təbii resurslarından qaynaqlanmır, həm də dövlətin apardığı uğurlu daxili və xarici siyasətin nəticəsidir. Azərbaycanın beynəlxalq aləmdə artan rolu müxtəlif sahələrdə özünü göstərir: enerji təhlükəsizliyi, mədəni diplomatiya, multikulturalizm, nəqliyyat-logistika layihələri və beynəlxalq tədbirlərə evsahibliyində və s.

Azərbaycan zəngin neft və qaz ehtiyatlarına malik olmaqla yanaşı, bu resurslardan strateji şəkildə istifadə edir. Ölkəmizin enerji layihələri təkcə iqtisadi deyil, siyasi baxımdan da böyük nüfuz qazanır.

Əlbəttə ki, Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsi təsadüfi deyil. Bu, məqsədyönlü siyasətin və tarixi-mədəni zənginliyin vəhdətinin nəticəsidir. Geosiyasi, iqtisadi və mədəni sahələrdə aparılan uğurlu siyasət nəticəsində Azərbaycan özünü dünya arenasında etibarlı, güclü və sülhsevər tərəfdaş kimi təqdim edir. Bu uğurların davamlı olması üçün daxili sabitliyin və xarici siyasətdə balanslı yanaşmanın qorunması xüsusi əhəmiyyət kəsb edir.

Ölkəmizin mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Hazırda Azərbaycan regionda və dünyada öz mövqelərini sürətlə möhkəmləndirən, sosial-iqtisadi baxımdan inkişaf edərək Avroatlantik məkana inteqrasiya olunan bir ölkədir.

Bütün bu uğurların yeganə səbəbi, əlbəttə ki, ölkə lideri İlham Əliyevin yürütdüyü müstəqil siyasətdir. Azərbaycana rəhbərlik etdiyi 22 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, mövcudluğu tarixində ölkəmiz heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb.

Bu gün Azərbaycan siyasi-iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından dünyada ən qabaqcıl yerdədir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir. Bütün nailiyyətlər, möhtəşəm uğurlar İlham Əliyevin yüksəliş konsepsiyasının bəhrəsidir. Artıq heç kim Azərbaycanla təhdid dili ilə danışa biməz. Bu fikirdə, bu niyyətdə olanlara İlham Əliyev çox mükəmməl şəkildə xəbərdarlıq edib: "Bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki mən Prezidentəm, belə qüvvə olmayacaqdır".

### Çin-Azərbaycan münasibətlərində yeni tarixi səhifə açılıb

Reallıq budur ki, İlham Əliyevin beynəlxalq problemlərin həllində mühüm rol oynayan və müasir dövrdə çoxqütblü, ədalətli və demokratik dünya düzəninin formalaşmasında müsbət potensiala malik olan Qoşulmama Hərəkatına sədirliyi üzv dövlətlərin mütləq əksəriyyəti tərəfindən təqdir edilir. Əgər belə olmasaydı, müddəti bitən sədrliyin davam etdirilməsi yenidən Azərbaycana həvalə olunmazdı.

Həyata keçirdiyi tam müstəqil siyasətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin hadisələri düzgün analiz etmə, doğru qərar vermə bacarığı, uğurlu diplomatiyası Azərbaycanı həm də dünyada etibarlı tərəfdaş kimi tanıdıb. Bunun yeganə səbəbi İlham Əliyevin sözünə sadiq lider olduğunu dəfələrlə təsdiqləməsidir.

Müasir dünyamızın acı reallıqları fonunda İlham Əliyev elə də böyük olmayan dövləti - Azərbaycanı beynəlxalq siyasətin subyektindən onun mühüm aktoruna çevirib. Qlobal təhlükəsizliyin, o cümlədən qitəmizdə enerji və nəqliyyat təhlükəsizliyinin təminatında Azərbaycanın rolu misilsizdir.

Azərbaycanın xarici siyasətinin təkcə son uğurlarına nəzər yetirsək, aydın şəkildə görə bilərik ki, ölkəmizlə müxtəlif sahələr üzrə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artmaqdadır. Həmçinin Azərbaycan da bir çox böyük dövlətlə srtateji tərəfdaşlığını gücləndirməkdə maraqlıdır.

Bu dövlətlərdən biri də dünya nəhənglərindən sayılan Çindir. Son 5 ildə Azərbaycanın Çinlə münasibətlərində dinamiklik müşahidə edilir. Bu il aprelin 22-dən 24-dək Prezident İlham Əliyevin Çinə dövlət səfəri, keçirilən görüşlər, imzalanan sənədlər iki ölkə arasında əlaqələrə müsbət impuls verib. Bunu Çinin Azərbaycandakı səfiri Lu Mey iyunun 10-da ilk dəfə qeyd olunan Beynəlxalq Sivilizasiyalararası Dialoq Gününə həsr olunmuş brifinqdə söylədiyi fikirlərlə bir daha təsdiqləyib. Diplomat qeyd edib ki, Çin iki ölkənin xalqlarının ünsiyyət vasitəsilə bir-birini daha yaxşı anlaması, onlar arasında dostluğun dərinləşdirilməsi və əlaqələrin möhkəmləndirilməsində yeni birgə səhifənin yazılması istiqamətində Azərbaycanla birlikdə humanitar əməkdaşlığı genişləndirməyə hazırdır. O bildirib ki, Prezident İlham Əliyevin Çinə dövlət səfəri uğurla həyata keçib. Səfər zamanı Sədr Si Cinpin və Prezident İlham Əliyev hərtərəfli strateji tərəfdaşlığın qurulmasını birgə bəyan ediblər və bir çox sahədə əməkdaşlığın dərinləşdirilməsinə dair bir sıra mühüm razılaşmalar əldə olunub. Bununla da Çin-Azərbaycan münasibətlərində yeni tarixi səhifə açılıb. Xanım səfir həmçinin keçirdiyi görüşləri və onların əhəmiyyətini dəyərləndirib: "Bu yaxınlarda mən Azərbaycanın yüksəkvəzifəli şəxsləri, eləcə də Çindən gələn rəsmi nümayəndə heyətləri, region və müəssisələrin nümayəndələri ilə bir sıra görüşlər keçirmişəm. Biz iki ölkə arasında əlaqələrin inkişafını ətraflı müzakirə etdik. Əsas təəssüratım ondan ibarətdir ki, dövlət başçılarının rəhbərliyi Çin-Azərbaycan münasibətlərinin yüksəkkeyfiyyətli inkişafı üçün ən mühüm üstünlük və etibarlı təminatdır. Hazırda hər iki ölkənin müxtəlif qurumları və regionları iki lider arasında imzalanmış sazişləri fəal şəkildə həyata keçirirlər və bu, bütün sahələrdə əməkdaşlıqda yeni irəliləyişlərə səbəb olub".

Hər iki ölkə bir-biri üçün çox önəmli tərəfdaş olduğunu ikitərəfli istiqamətdə atılan bütün addımlarla sübut edir. Coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşməsinə baxmayaraq, ölkəmiz dünyanın ikinci böyük iqtisadiyyatına, qlobal münasibətlərdə böyük çəkiyə və nüfuza malik bu dövlətlə demək olar ki, bütün istiqamətlərdə sıx əlaqələrə malikdir.

### Qardaşlıq ittifaqı

Dünyada etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınan ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bu mənada Azərbaycanın strateji tərəfdaşlıq əlaqələri güclənir, dostlarının və tərəfdaşlarının sayı artır.

Bu xüsusda Azərbaycan-Türkiyə-Pakistan birliyini yeni siyasi platforma da adlandırmaq olar. Azərbaycanın xarici siyasət kursunda iki qardaş ölkə ilə qarşılıqlı faydalı münasibətlər mühüm yer tutur. Üç ölkəni möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Tərəflərin münasibətləri bir-birinin maraqlarına hörmət prinsiplərinə əsaslanır. Ölkə rəhbərlərinin qarşılıqlı səfərləri bu münasibətlərin inkişafına böyük təkan verir. Üçtərəfli əməkdaşlıq son illərdə yeni keyfiyyət mərhələsinə qədəm qoyaraq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu əlaqələr yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, həm də üçtərəfli formatda çoxşaxəli əməkdaşlıq modelinə çevrilib. Üç dövlət arasında dərin tarixi, dini və mənəvi köklərə əsaslanan münasibətlər son dövrlərdə intensiv siyasi dialoq, iqtisadi təşəbbüslər və təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətlə daha da möhkəmlənib. Azərbaycan, Türkiyə və Pakistan liderləri arasında yüksəksəviyyəli görüşlərin təşkil olunması bu əməkdaşlığın strateji xarakterini təsdiqləyir.

May ayının 28-də Laçında keçirilən Zirvə görüşündə Prezident İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin səsləndirdikləri fikirlər də bir daha təsdiq etdi ki, üçtərəfli əməkdaşlıq yeni geosiyasi reallıqlar fonunda güc mərkəzinə çevrilmək potensialına malikdir. Bu əməkdaşlıq modeli təkcə regionda sabitliyə deyil, həm də beynəlxalq səviyyədə sülh və təhlükəsizliyə əhəmiyyətli töhfələr verə bilər. Bölgə üçün əhəmiyyətli strateji nöqtədə yerləşən Laçın şəhərində keçirilən Zirvə görüşü həm regional sabitliyin, təhlükəsizliyin, həm də ədalətə söykənən beynəlxalq hüququn təmin olunması baxımından mühüm əhəmiyyət kəsb etdi. Laçından dünyaya verilən siyasi mesajlar, səsləndirilən fikirlər, aparılan müzakirələr yeni dövrün siyasi bəyannaməsi və güc balansının dəqiqləşdirilmiş xəritəsi kimi oxunmalıdır.

Göründüyü kimi, dünya nizamının özünün çətin dövrünü yaşadığı zamanda, güclü ölkələrin zəiflər üzərində hökmranlığını həyata keçirməyə çalışdığı dövrdə Azərbaycan əlaqələrini daha da şaxələndirir, enerji siyasətini daha da genişləndirir və bununla da tərəfdaşlarının sayını artırır.

Prezident İlham Əliyevin müstəqil siyasəti, xarici diplomatiyası Azərbaycana etibarlı tərəfdaşlar və bütün bunların fonunda hərtərəfli dividendlər qazandırır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Niderland mətbuatı Azərbaycanın xarici siyasət prioritetlərindən yazıb

**"Diplomat Magazine" jurnalında Azərbaycanın Niderlanddakı səfiri Məmməd Əhmədzadənin müsahibəsi dərc olunub.**

AZƏRTAC xəbər verir ki, müsahibədə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın milli maraqlara əsaslanan müstəqil, balanslaşdırılmış və praqmatik xarici siyasət yürütməsindən, ölkəmizin xarici siyasət prioritetləri və onların xarici siyasət məqsədləri ilə uzalaşdırılmasından bəhs olunub.

Regional təhlükəsizlik mövzusuna toxunan səfir keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin mahiyyəti, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün nəticələri, Vətən müharibəsi və antiterror tədbirləri ilə ərazi bütövlüyümüzün təmin olunması, azad edilmiş ərazilərdəki mina problemi, ərazilərin bərpası, habelə bölgədə davamlı sülhün bərqərar edilməsi üzrə ölkəmizin səyləri, bu xüsusda Ermənistanın atmalı olduğu addımlar, sülhün bölgəyə faydası barədə məlumat verib.

Diplomat Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən enerji strategiyasına, eləcə də Azərbaycan və Xəzər hövzəsində neft, qaz, alternativ enerjinin istehsalı və ixracını nəzərdə tutan strateji layihələrə diqqət çəkib.

Azərbaycanın Cənubi Qafqazı və Xəzər hövzəsini son 30 il ərzində iki dəfə, ilk olaraq enerji, indi isə nəqliyyat qovşağı üzrə beynəlxalq əməkdaşlığa cəlb etdiyini deyən diplomat regional əlaqələrdə, Qərb-Şərq nəqliyyat dəhlizi, eləcə də Orta Dəhlizin inkişafında ölkəmizin mühüm rolundan söz açıb.

Coğrafi üstünlüyü, diplomatik çevikliyi, resursların idarə edilməsi, iqtisadi və hərbi imkanları ilə Azərbaycanın orta gücə çevrildiyini bildirən səfir ölkəmizin çoxtərəfli diplomatiyada daha fəal rol oynadığını, dünyada bölücü deyil, birləşdirici xətləri təşviq etməklə çoxtərəfli əməkdaşlığın dərinləşdirilməsinə töhfə verdiyini vurğulayıb. Ölkəmizin Qoşulmama Hərəkatına və COP29-a uğurlu sədrliyindən danışan diplomat bu nəhəng




beynəlxalq tədbirlərin Azərbaycanın xarici siyasətinin məsuliyyətli, praqmatik və perspektiv mahiyyətini təcəssüm etdirdiyini söyləyib.

Müsahibədə diplomat Azərbaycan-Niderland münasibətlərinin siyasi, iqtisadi, humanitar aspektləri barədə fikirlərini bölüşüb. Münasibətlərin tam potensialından hələ də istifadə edilmədiyini bildirərək, Niderlandda Azərbaycan həqiqətləri, onun regional liderliyi, enerji və bağlantılar nöqteyi-nəzərdən Avropa üçün strateji əhəmiyyəti barədə məlumatlılığın məhdud olduğunu söyləyib. Keçmiş Ermənistan-Azərbaycan münaqişəsi və ondan sonrakı proseslərlə bağlı təsəvvürlərin erməni narrativlərinə, dezinformasiyalara və saxta xəbərlərə məruz qaldığını vurğulayıb.

Son aylarda xarici işlər nazirləri səviyyəsində təmasların, habelə Bakıda Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin qarşılıqlı anlaşmanın təşviqi və əməkdaşlığın yeni yollarının araşdırılması baxımından əhəmiyyətli olduğunu bildirən M.Əhmədzadə Niderlandda fəaliyyət göstərdiyi müddətdə siyasi, ictimai, işgüzar, akademik dairələrin nümayəndələri ilə çoxsaylı görüş keçirildiyini, nəticədə hər iki ölkənin bir-birini tamamlayan güclü tərəflərə malik olması qənaətinə gəldiyini deyib. Diplomat iki ölkənin diqqəti praqmatik, praktiki və qarşılıqlı faydalı əməkdaşlığa yönəltməklə möhkəm və nəticəyönümlü tərəfdaşlıq qura biləcəyini vurğulayıb.

Müsahibədə M.Əhmədzadə Haaqada NATO Sammiti, Azərbaycanın bu qurumla əməkdaşlıq istiqamətlərinə dair sualı da cavablandırıb.

# *Metin YENER:* "İğdır-Naxçıvan qaz kəməri Azərbaycanla Türkiyə arasında münasibətləri daha da möhkəmləndirdi"



"İğdır-Naxçıvan təbii qaz kəməri layihəsinin paralel auditi Türkiyənin Hesablama Məhkəməsi ilə Azərbaycanın Hesablama Palatası tərəfindən birgə fəaliyyət nəticəsində həyata keçirildi. Bu işlərə ötən il İğdırda bir protokolun imzalanması ilə başladıq və birillik zaman içərisində hər iki qurum işləri uğurla yerinə yetirdi".

AZƏRTAC xəbər verir ki, bu sözləri Naxçıvanda keçirilən İğdır-Naxçıvan qaz boru kəməri üzrə paralel auditin yekun hesabatlarının təqdimatı mərasimindən sonra jurnalistlərə müsahibəsində Türkiyənin Hesablama Məhkəməsinin sədri Metin Yener deyib.

O qeyd edib ki, Türkiyədən BOTAŞ, Naxçıvandan isə SOCAR şirkətləri tərəfindən həyata keçirilən bu proyekt iki ölkə arasındakı ən böyük layihələrdən biri olmaqla yanaşı, həm də iki ölkənin mühüm qurumları arasında birgə fəaliyyətdə bir ilk idi. Bununla iki ölkənin münasibətləri daha da möhkəmləndi. Birlikdə görülən işlər dünya standartlarına uyğun şəkildə təqdim edildi.

"Bu gün Azərbaycan Hesablama Palatasının sədri ilə keçirilən görüşdə bu işbirliyini daha da irəli aparacağıq. Palata sədrini 15 gün sonra Türkiyədə gözləyirik. Orada yeni əməkdaşlığa dair sənəd imzalayacağıq. Bu ilin sentyabrında da bütün türk dövlətləri ilə bağlı gözəl xəbərlərimiz olacaq. Naxçıvanda olduğum üçün böyük məmnunluq duyuram. Gözəl qonaqpərvərliyə görə hər kəsə təşəkkür edirik", - deyə Metin Yener əlavə edib.

# Azərbaycanın xarici siyasətinin uğurları



# Türk dövlətlərinin birlik və inkişaf platforması

Türk Dünyası Təşkilatı (TDT) çərçivəsində üzv dövlətlərin ildən-ilə nümayiş etdirdikləri sıx həmrəylik münasibətləri rəsmi Bakının maraqlarına cavab verən prosesdir. Azərbaycan qardaş türk dövlətləri arasında təkcə siyasi deyil, həm də iqtisadi sferada birliyin, kooperasiyanın intensivləşməsini özünün xarici siyasət prioritetlərindən biri elan edib.

Təsadüfi deyildir ki, Prezident İlham Əliyev TDT-yə dövlətimiz üçün ən vacib beynəlxalq təşkilat və Azərbaycanın təmsil olunduğu ailə statusunda xüsusi önəm verir: "Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır. Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər. Əgər əvvəlki illərdə, xüsusilə işğal dövründə bizi çaşdırmaq üçün, yəni gözdən pərdə asmaq üçün müəyyən vədlərlə cəlb etməyə çalışırdılarsa, indi o maskalar da yırtıldı və açıq-aydın burada ayırıcı xətlər müşahidə olunur. Biz o ayırıcı xətləri çəkməmişik, biz bu ayırıcı xətlərin əleyhinəyik".

## Türk birliyinin iqtisadi əsasları

TDT kifayət qədər ciddi iqtisadi potensiala malik türk dünyası coğrafiyasının əsas təmsilçisi olan beynəlxalq təşkilatdır. Bu coğrafiya müxtəlif faydalı qazıntılar, enerji daşıyıcıları, sənaye və kənd təsərrüfatı potensialı, habelə tranzit əhəmiyyətinə malik böyük iqtisadi məkandır. 30 ilə yaxındır ki, dünyanın enerji bazarlarına karbohidrogen ehtiyatlarını ixrac edən Azərbaycan və Qazaxıstan əldə etdikləri gəlirləri daxili həyatın ən müxtəlif sahələrinə investisiya edərək rəqabətədavamlı iqtisadiyyatın qurulmasına nail olublar. Hazırda Azərbaycan, Qazaxıstan və Özbəkistan müştərək şəkildə Avropanın enerji bazarını müasir dünya iqtisadiyyatının yeni trendi olan "yaşıl enerji" ilə təmin etmək məqsədilə fərqli layihələr üzərində çalışırlar.

Orta Asiyanın qardaş dövlətləri Xəzərin dibi ilə çəkiləcək xüsusi xətlər vasitəsilə Azərbaycanın müvafiq infrastrukturundan istifadə etməklə Avropa qitəsinə ekoloji cəhətdən təmiz elektrik enerjisinin ixracını nəzərdə tuturlar. Azərbaycan artıq yaxın illərdə bu prosesə start vermək niyyətindədir. Ölkəmiz qonşu Gürcüstan və Qara dəniz vasitəsilə ilkin olaraq Rumıniya və Macarıstana "yaşıl enerji" ixrac etməyi planlaşdırır. Simvolik haldır ki, bu məqsədlə formalaşdırılmış konsorsiumda iştirak edən dövlətlərdən biri də türk dünyası formatında keçirilən tədbirlərdə aktiv iştirak edən və bu coğrafiyanı özünün tarixi-mənəvi mövcudluq məkanı hesab etməyə başlayan Macarıstandır.

TDT-ni iqtisadi cəhətdən daha da möhkəm edəcək ən aktual iqtisadi mövzu gündəmdə olan logistik ticarət marşrutlarıdır. Türk dünyası hazırda dünyanın diqqətində olan Orta dəhliz layihəsinin mərkəzi və aparıcı bəndi rolunda çıxış edir. Dünya ticarət bazarlarındakı seysmik vəziyyət, Ukraynada davam edən müharibə səbəbindən ənənəvi logistika arxitekturasının fəaliyyətini dayandırması Orta Asiya və Cənubi Qafqazdan keçən nəqliyyat marşrutlarını aktual edir. Orta dəhliz adını almış bu qlobal nəqliyyat prosesi türk dünyası təmsilçilərinin iqtisadi müstəqilliklərini möhkəmlətmələri baxımından tarixi əhəmiyyət daşıyan transmilli layihədir. Çindən start götürən bu yol Qırğızıstan, Özbəkistan, Qazaxıstanı keçməklə Xəzər dənizi vasitəsilə Azərbaycana, buradan isə Gürcüstanla Türkiyə, yaxud Qara dənizi aşmaqla Avropaya doğru uzanır.

Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsinin Cənubi Qafqazda bu kimi əməkdaşlıq perspektivlərinin daha da real görüntü almasına ciddi təsiri olub. Azərbaycanla Gürcüstan birlikdə Cənubi Qafqaz nəqliyyat dəhlizini təşkil edirlər və iki qonşu dövlətin səyləri ilə bu marşrut illərdir fəaliyyət göstərir. Ancaq hazırkı dünya reallıqlarında yük daşımalarının böyük qisminin məhz Orta dəhliz vasitəsilə ötürülməsi gözlənildiyindən bölgədən keçəcək yük axınının daha şaxələnmiş və şəbəkələşmiş infrastruktura malik olması lazımdır. Bu baxımdan həm Gürcüstandan keçən yolun ötürücülük qabiliyyətinin artırılması, həm də altenativ yolların çəkilişi - Araz çayı boyunca bir xəttin, Zəngəzurdan keçəcək digər istiqamətin fəaliyyət göstərməsinin yalnız qlobal ticarət deyil, həm də türk dünyasının iqtisadi rifahı baxımından olduqca böyük əhəmiyyəti var.

178 milyonluq əhaliyə malik olan türk coğrafiyasının təmsilçilərinin məcmu ticarət dövriyyəsi 1,9, ÜDM-i isə 1,6 trilyon dollar təşkil edir. Bu rəqəmlər vahid iqtisadi durum altında bazarın formalaşdırılması üçün kifayət qədər ciddi göstəricilərdir. Hərçənd mövcud potensialı və perspektivi tam əks etdirmir. Türk dövlətləri zəngin təbii ehtiyatlara malikdirlər və dünya qlobal ticarət arteriyasının üzərində yerləşirlər. Bu resurslardan səmərəli istifadə rəqəmlərin bir neçə dəfə artımına səbəb ola bilər.

## Vətən müharibəsindəki Zəfər - həmrəylik rəmzi

Azərbaycanın İkinci Qarabağ savaşında qazandığı tarixi qələbə və ərazi bütövlüyünü təmin etməsi TDT daxilində də ən müxtəlif sahələrdəki münasibətlərdə yeni canlanmaya səbəb oldu. Türk dövlətlərinin ictimaiyyətləri bu Zəfəri öz qələbələri kimi qəbul etdiklərindən yaranmış yeni reallıq təşkilat daxilində müxtəlif mədəni və humanitar məzmunlu inteqrasiya proseslərinin daha da sürətlənməsinə yol açıb. Bizim vahid kökə istinad etməyimiz, eyni dil və mədəniyyət daşıyıcısı olmağımız baxımından bu, olduqca vacib bir təzahürdür. Bununla belə, bu sferalardakı əlaqələrin inkşafını stimullaşdıran başlıca faktor siyasi iradə və əzmin olmasıdır. Vətən müharibəsinin nəticələri TDT daxilindəki inteqrativ proseslərə həm də bu baxımdan olduqca güclü təkan verib.

Türk Dövlətləri Təşkilatı 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində imzalanan müqavilə ilə yaradılmış beynəlxalq təşkilatdır. Qurum Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan tərəfindən təsis edilib. Daha sonra qardaş Özbəkistan da 30 aprel 2018-ci ildə quruma qatılma niyyətini bildirərək 2019-cu il sentyabrın 14-də təşkilata üzv olub. 2018-ci ilin sonlarından indiyədək Macarıstan qurum daxilində müşahidəçi dövlətdir.

Türk Dövlətləri Təşkilatının üç mərkəzi var. Bunlar İstanbul, Bakı və Astanadır. İstanbul ümumi katibliyinin, Bakı parlamentar assambleyasının, Astana isə Beynəlxalq Türk Akademiyasının mərkəzidir. Təşkilat üzvləri ən müxtəlif sahələr üzrə fəal əməkdaşlıq edirlər və bu kooperasiya qurum daxilində fərqli profilli strukturların fəaliyyətini tənzimləyir. Bakıda Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) ilə yanaşı, Türk Mədəniyyət və Miras Fondunun da ofis-qərargahı yerləşir və fəaliyyət göstərir.

Ölkələrin dövlət rəhbərləri ildə bir dəfə rəsmi, bir dəfə də qeyri-rəsmi olaraq müxtəlif şəhərlərdə toplanırlar. Bundan əlavə, üzv ölkələrin xarici işlər nazirləri də il ərzində davamlı olaraq iclaslar keçirirlər.

Dövlət başçıslarının Zirvə görüşlərindən danışarkən türk liderlərinin Şuşada baş tutmuş qeyri-rəsmi sammitini qeyd etməmək mümkün deyil. Azərbaycan üçün xüsusi simvolik və mənəvi önəmi olan Şuşa şəhərinin erməni işğalından azad edilməsindən cəmi 4 il sonra türk dünyası liderlərinin Zirvə toplantısına evsahibliyi etməsi böyük tarixi hadisə olmaqla yanaşı, təkcə Azərbaycanda deyil, bütün türk dövlətlərində ruh yüksəkliyi və şəxsi qələbə hissi ilə qarşılanıb. Şuşa toplantısı türk dünyası təmsilçiləri arasında siyasi, hərbi, iqtisadi və digər sferalarda daha da sıx həmrəylik baxımından tarixi əhəmiyyətə malik güclü mənəvi birlik impulsu kimi qəbul edilməlidir.

Prezident İlham Əliyevin "Azərbaycana, Qarabağa "Xoş gəlmisiniz!" deyə salamladığı Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğızıstan Prezidenti Sadır Japarov, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevin iştirak etdikləri Zirvə görüşündə verdikləri bəyanat Şuşa şəhərinin yalnız Azərbaycan deyil, bütün türk dünyası üçün önəmini aydın şəkildə ifadə edir: "Türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür".

## Müttəfiqlik və tərəfdaşlıq

Azərbaycan qardaş dövlətlərin təmsil olunduqları Türk Dövlətləri Təşkilatı ilə əlaqələrə strateji önəm verir. Azərbaycanın Xarici İşlər Nazirliyinin saytında yerləşdirilmiş təşkilatla əməkdaşlıq və münasibətlərə dair materialda qeyd olunur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası TDT-nin nüfuzunun artırılması və bu çərçivədə ciddi nailiyyətlərin əldə olunması istiqamətində mütəmadi olaraq yeni təklif və təşəbbüslərlə çıxış edir və bununla da təşkilatın funksionallığının gücləndirilməsi işinə öz müstəsna töhfəsini verir.

Azərbaycan Respublikasının TDT-yə üzv və müşahidəçi dövlətlərin əksəriyyəti ilə strateji müttəfiqlik və ya strateji tərəfdaşlıq münasibətlərinə malik olması təşkilat çərçivəsində həmin ölkələrlə siyasi, milli təhlükəsizlik, mülki müdafiə, iqtisadi-ticarət, enerji, nəqliyyat-logistika, kənd təsərrüfatı, mədəniyyət, urbanizasiya, din, humanitar, səhiyyə, təhsil, gənclər və idman, turizm, informasiya texnologiyaları, kosmik tədqiqatlar, media, hüquq, ədliyyə və məhkəmə daxil olmaqla, bir çox sahələrdə çoxtərəfli əməkdaşlığa zəmin yaradır.

Azərbaycan TDT çərçivəsindəki əməkdaşlığı beynəlxalq platformalarda da davam etdirir və bu xüsusda təşkilatın üzv ölkələrin milli maraqları ilə bağlı həssas məsələlərə dair vahid mövqedən çıxış etmək təcrübəsini yüksək qiymətləndirir.

Türk Dövlətləri Təşkilatının fəaliyyətinin əsas məqsədi türk dövlətləri arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir. Bu baxımdan rəsmi Bakı təşkilatla əməkdaşlığını qurumun əsasının qoyulduğu Naxçıvan şəhərində imzalanmış sazişlə müəyyən edilmiş məqsəd və vəzifələrə müvafiq şəkildə qurur: qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi, ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması, hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi, elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi və s.

Bu günlərdə Bakıda Türk Dövləti Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazir və qurum rəhbərlərinin ikinci iclası çərçivəsində "Güclü ailələr, güclü toplumlar: TDT ölkələrində ailəni dəstəkləyici siyasətlər" mövzusunda yan tədbir keçirilib. Burada ailə dəyərlərinin vacibliyi xüsusi qeyd olunub. Çıxış edənlər türk dünyasının ortaq dəyərlərindən olan ailənin yalnız toplumların təməli deyil, eyni zamanda millətlərin gələcəyi olduğunu vurğulayıblar. Ailə hər bir fərdin mənəvi dayağı, mənsub olduğu cəmiyyətlə bağlarını gücləndirən əsas sütundur. Türkiyənin ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaş bildirib ki, qardaş Azərbaycan torpağında təşkil olunan və artıq ikinci dəfə keçirilən bu mühüm iclasda müzakirə ediləcək məsələlər ortaq problemlərimizin həllində bizlər üçün bir istiqamət olacaq. Biz türk dünyasında ailəni sadəcə sosial institut kimi deyil, milli kimliyimizin təməli, sabitliyin, təhlükəsizliyin amili kimi qiymətləndirməliyik. Tədbirdə gənclərin problemlərinə də xüsusi toxunulub və bildirilib ki, türk dünyasında gənclərin və ailələrin problemlərinin həlli ilə bağlı müxtəlif istiqamətli poqram və layihələr həyata keçiriləcək.

Türk dünyasında 170 milyondan çox əhali yaşayır. Onların 40 faizini gənclər təşkil edir. TDT-də ailə siyasətinin planlaşdırılması üçün ortaq strategiyaların həyata keçirilməsi daha geniş aspektlərdə davam etdiriləcək.

Göründüyü kimi, TDT türk dünyasını birləşdirən, qardaş türk dövlətləri arasındakı münasibətlərin daha effektiv və işlək olmasını təmin edən beynəlxalq təşkilat olmaqla yanaşı, həm də bizim ümumi tarixi kökdən gələn mənəvi bağlılığımıza müasir dünyanın çağırışları nöqteyi-nəzərdən bir impuls verən, böyük coğrafiyanı əhatə edən institutdur. TDT ölkələrimizin həm ikitərəfli, həm təşkilatdaxili əməkdaşlığını intensivləşdirməklə yanaşı, qardaş türk dövlətlərinin beynəlxalq arenada da vahid mövqedən çıxış etmələrinə təsir göstərən ən çəkici faktordur. Müasir qeyrisabit dünyada bu birliyə hər birimizin ciddi ehtiyacı var.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qarabağın incisi dünya turizm xəritəsində önə çıxır

## Şuşa 2026-cı ildə İƏT-in turizm mərkəzi elan olunub

Şuşa… Bu ad təkcə bir şəhərin deyil, bütövlükdə bir tarixin, mədəniyyətin, mərdliyin və iradənin təcəssümüdür. Qarabağın ürəyi, Azərbaycanın mədəniyyət beşiyi olan bu müqəddəs torpaq illərlə işğal altında qalmasına baxmayaraq, ruhunu, qürurunu və dəyərlərini heç zaman itirmədi. Şuşa günbəgün, aybaay dünyanın diqqət mərkəzinə çevriləcək bir şəhərə dönür. O, həm keçmiş tarixini yaşadır, həm də gələcək tarixini yazır.

Məlum olduğu kimi, 2023-cü il oktyabrın 5-də İran İslam Respublikasının Ərdəbil şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin turizm nazirlərinin 5-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa 2026-cı il üçün "İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı" elan edilmişdir. Bu tarixi qərar azadlıq simvoluna çevrilmiş Şuşanın beynəlxalq mədəniyyət və turizm arenasında öz sözünü deməsi üçün əvəzolunmaz bir fürsətdir. Prezident İlham Əliyev bu günlərdə həmin statusun reallığa çevrilməsi üçün konkret tədbirlər planı haqqında sərəncam imzalayıb. Həmin qərar həm milli, həm də beynəlxalq səviyyədə böyük əhəmiyyət daşıyır.

Şuşanın İƏT-in turizm paytaxtı elan olunması ilk növbədə işğaldan azad edilmiş ərazilərdə həyatın yenidən qurulduğunu nümayiş etdirir. Bu, beynəlxalq aləmə bir mesajdır: Qarabağ Azərbaycandır və bölgə artıq sülh, mədəniyyət, turizm mərkəzi kimi inkişaf edir. Şuşaya verilən bu status Azərbaycanın İƏT daxilindəki mövqeyinin ildən-ilə güclənməsi, eyni zamanda ölkəmizin təşkilat çərçivəsindəki siyasi, iqtisadi və mədəni tərəqqisi ilə bağlıdır ki, bu da İƏT-ə üzv dövlətlərlə turizm, mədəniyyət və iqtisadi sahələrdə qarşılıqlı əməkdaşlıq üçün yeni imkanlar yaradır.



Sənəd həm də müharibədən sonra Qarabağ regionunun inkişaf strategiyasına uyğun atılmış addımdır. Şuşada aparılan abadlıq-quruculuq işləri həmçinin şəhərin gələcək turizm potensialını formalaşdırır. Prezidentin sərəncamı bu potensialın hüquqi və siyasi əsasını daha da möhkəmləndirir. Turizm mərkəzi kimi təsdiqlənməsi Şuşanı beynəlxalq tədbirlərin keçirildiyi siyasi-mədəni məkan kimi tanıtmaqla yanaşı, Qarabağ həqiqətlərinin təbliği üçün də mühüm fürsətdir. Şuşa vasitəsilə Azərbaycan bölgədəki tarixi və hüquqi mövqeyini mədəni dəyərlərlə birləşdirərək daha geniş auditoriyaya çatdırmaq üçün əlavə imkan qazanacaq.

Şuşada İƏT çərçivəsində beynəlxalq konfranslar, sərgilər, turizm forumları və mədəniyyət günləri keçiriləcək. Bu tədbirlər həm İƏT-ə üzv ölkələri, həm də digər beynəlxalq qonaqları Şuşaya cəlb edəcək. Ənənəyə çevrilmiş "Xarıbülbül" musiqi festivalı və Vaqif Poeziya Günləri 2026-cı ildə daha geniş miqyasda, məsələn, İƏT ölkələrinin iştirakı ilə təşkil oluna bilər. Sərəncam həm də ona əsas verir ki, 2026-cı il ərzində Şuşada İƏT ölkələrinin turizm sektorunu əhatə edən yüksəksəviyyəli görüşlər keçirilsin, Azərbaycan Turizm Bürosu və digər müvafiq qurumlar vasitəsilə İƏT ölkələrində Şuşa ilə bağlı tanıtım kampaniyaları aparılsın, xarici media və blogerlər üçün Şuşaya infoturlar təşkil edilsin.

Onu da qeyd edək ki, bu, sadəcə rəsmi bir status deyil, Şuşanın dəyanətinə, sarsılmazlığına verilən beynəlxalq dəyərdir. Dağlar qoynunda yerləşən Şuşanın mədəni irsi dünya səyyahlarının, İƏT üzvü olan ölkələrin turistlərinin diqqətinə təqdim olunur. İslam ölkələri üçün belə bir şəhərin turizm mərkəzi elan edilməsi, təkcə gözəllik və tarixlə deyil, həm də mənəviyyatla, inamla, yenidən doğulan həyatla bağlıdır. Şuşa azaddır, Şuşa dirçəlir və Şuşa dünyaya açılır. 2026-ci ildə Şuşa öz sözünü daha geniş auditoriyaya çatdıracaq. Gələn il bu baxımdan zirvə nöqtəsi olacaq. Çünki turizm sadəcə səyahət deyil, həm də tanımaq və tanıtmaqdır.

İƏT-in turizm paytaxtı statusu ilə Şuşa müsəlman ölkələri arasında bir mədəniyyət körpüsünə çevriləcək. Şuşa bu tədbirlərlə yalnız ziyarət edilən bir şəhər olmaqdan başqa, eyni zamanda düşüncə və ruh dünyasına səyahət edilən bir mərkəz statusu alacaq. Buraya gələn turist qala divarları ilə yanaşı xalqın mübarizəsini, mədəniyyətin sarsılmaz gücünü görəcək və savaşdan çıxmış bir bölgənin nümunəsi ilə tanış olacaq. Bu torpağın nəinki gözəlliyini, həm də onun 30 il çəkdiyi əziyyəti, uğrunda verilən qurbanları, qurulan yeni həyatı hiss edəcək.

Şuşa təkcə tarix deyil, həmçinin gələcəkdir. 2026-cı ildə Şuşa bir ideya kimi təqdim olunacaq. Bu, azadlıq, mədəniyyət, sülh, davamlı inkişaf və islam həmrəyliyi ideyasıdır. Bu torpaq artıq düşmənin ayaq səslərini deyil, gələcəyin quruculuq nəğməsini eşidir. Və biz bir xalq olaraq Şuşanı yalnız bərpa etməli deyilik, biz onu yaşatmalı, tanıtmalı və təqdim etməliyik. Və bu baxımdan 2026-cı il həmin istiqamətdəki tarixi bir fürsətdir. Şuşa şanlı tariximizin, işıqlı gələcəyimizin və dünya mədəniyyət xəzinəsinin bir parçasıdır.

İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində Şuşanın turizm paytaxtı elan olunması həm də bir missiyadır. Bu, Şuşanın və bütövlükdə Qarabağın, Şərqi Zəngəzurun dirçəlişini simvolizə edən bir addımdır. Üstəlik regionda sabitlik, mədəni diplomatiya və inteqrasiya baxımından strateji əhəmiyyət daşıyan bir təşəbbüsdür ki, bu da regional əməkdaşlığın güclənməsinə və mədəni irsin qorunaraq beynəlxalq səviyyədə tanıdılmasına xidmət edir. 2026-cı il bu yolda qızıl fürsətdir. Şuşa bu fürsəti tarixə çevirməyə hazırdır. O, gələn il İƏT-in mədəniyyət bayraqdarı kimi, həm ortaq dəyərləri təbliğ edəcək, həm də Azərbaycanın qlobal miqyasda artan nüfuzunun simvolu olacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Ermənistan yenə Azərbaycana şər atır

### İran-İsrail qarşıdurmasında ən praqmatik mövqeni ölkəmiz sərgiləyir

Müstəqil Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək Konstitusiyasını qəbul edərkən ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi ali niyyət kimi müəyyən edib. Ölkəmiz başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur və Konstitusiyanın 9-cu maddəsində rəsmən bəyan edilir ki, Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir.



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanla İsrail dövləti arasında çox yüksək səviyyədə siyasi, iqtisadi və müdafiə sənayesi sahəsində münasibətlər var və əlaqələrimiz genişlənməkdədir. O cümlədən Azərbaycan qonşu İran dövləti ilə də xalqlarımızın mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli normal siyasi, iqtisadi, mədəni münasibətlər yaratmağa müvəffəq olub. Yaxın günlərdə cənab İlham Əliyev ilə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian arasında telefon danışığında birgə səylərlə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə dinamik surətdə inkişaf edəcəyinə ümidvarlıq bildirilib: "Aydındır ki, hər bir beynəlxalq subyekt kimi, Azərbaycan üçün də hər şeydən daha vacib olan milli maraqlardır. Bu mənada İsrail dövləti tərəfindən İran İslam Respublikasının ərazisinə qarşı həyata keçirilmiş hərbi əməliyyatlardan dərhal sonra Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda da məhz ilk növbədə milli maraqlar və beynəlxalq hüquq rəhbər tutuldu və Bakı proseslərin gedişindən ciddi şəkildə narahatlıq ifadə etdi. Nazirliyin rəsmi açıqlamasında da ifadə olunduğu kimi, ölkəmiz vəziyyətin gərginləşdirilməsini qəti şəkildə pisləyərək, tərəfləri mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyə çağırdı", - deyə o deyib.

Deputat qeyd edib ki, iyunun 14-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə İran xarici işlər naziri Seyid Abbas Əraği arasında telefon danışığı zamanı İsrailin İran ərazisinə qarşı başladığı əməliyyat nəticəsində yaranmış vəziyyət müzakirə olunarkən əvvəllər olduğu kimi, yenə də Azərbaycan ərazisinin hər hansı bir ölkə tərəfindən üçüncü ölkəyə, o cümlədən qonşu və dost İrana qarşı istifadə edilməsinin mümkün olmadığı rəsmən vurğulanıb. Bütün bunların fonunda Ermənistanda Azərbaycanın İsrailə dəstək verməsinə dair geniş kampaniya aparılması absurddur və bu, ölkənin hər fürsətdə Azərbaycana qarşı düşmənçilik mövqeyinin göstəricisidir. Eyni zamanda qardaş Türkiyədə bəzi media qurumları və ictimai fiqurların bu kampaniyanın fəal icraçılarına çevrilməsi reallığı da müşahidə olunmaqdadır ki, bu da ciddi təəssüf doğurur. Düzdür, qardaş Türkiyənin hökumət rəsmiləri bu kimi iddialara dair açıq mövqelərini ifadə edirlər, lakin ayrı-ayrı dairələrin böhtan təbliğatından hələ də əl çəkməməsi narahatlıq yaradır.

B.Məhərrəmov vurğulayıb ki, İran-İsrail qarşıdurmasında ən praqmatik, həll-yönümlü və praktik mövqeni məhz Azərbaycan nümayiş etdirir: Azərbaycanın mövqeyi kifayət qədər aydındır, heç vaxt regionda gərginlik yaranmasını istəmir. Prezident İlham Əliyevin Müzəffər Komandanlığında Azərbaycanın hərbi-siyasi qələbəsi ilə regionumuzun ən təhlükəli və uzunmüddətli münaqişəsinə, o cümlədən yeni münaqişə təhdidi kimi çıxış edə biləcək separatizmə son qoyulub. İndiki halda da biz İran-İsrail münaqişəsinin geniş bölgəyə yayılması təhlükəsini nəzərə alaraq, problemin həlli üçün diplomatik səylərin artırılmasının əhəmiyyətini bir daha qeyd edirik. İyunun 14-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon söhbəti zamanı Prezident İlham Əliyev bu mövqeyi bir daha bəyan edərək İran və İsrail arasında vəziyyətin gərginləşməsi ilə bağlı narahatlıq ifadə edərək gərginliyin tezliklə aradan qaldırılmasının vacibliyini, məsələlərin danışıqlar yolu ilə həllinin önəmini vurğulayıb. Xüsusən nüvə obyektlərinin ətrafında mövcud vəziyyətin narahatlıq doğurduğu bir şəraitdə problemin yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll edilməsi bütün region üçün zəruridir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslərin ifadələri dinlənilib

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi iyunun 17-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxsin hüquqi varisi Əlizamin Qənbərov ifadəsində övladı Rəşad Qənbərlinin Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində Laçın rayonunda həlak olduğunu deyib. Ə.Qənbərov ona dəyən zərərin ödənilməsinin qeyri-mümkün olduğunu vurğulayıb.

İfadə verən Sarıbala Həsənov övladı Səid Həsənovun Kəlbəcər rayonunda düşmən tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu bildirib.

Füzuli Qasımov Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında oğlu İnqilab Qasımzadənin Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində Xankəndi şəhərində həyatını itirdiyini söyləyib.

İlahə Eyvazova ifadəsində həyat yoldaşı Tural Cahangirovun Kəlbəcərdə düşmən tərəfindən odlu silahdan açılmış atəş nəticəsində həlak olduğunu deyib. "Həmin gün qızımın ad günü idi", - deyə o əlavə edib.

Aynur Mürsəlova ifadəsində həyat yoldaşı Zahir Əliyevin Kəlbəcərdə düşmən tərəfindən açılan atəş nəticəsində həyatını itirdiyini bildirib.

Zərərçəkmiş Hüseyn Babayev ifadəsində Ağdamda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələr tərəfindən atılmış mərminin partlaması nəticəsində sol qulaq və boyun nahiyəsindən xəsarətlər aldığını söyləyib.

Məhkəmədə ifadə verən Əsgər Dövlətov düşmənin törətdiyi genişmiqyaslı təxribat nəticəsində yaralanıb. Zərərçəkmiş bildirib ki, həmin gün Şuşa rayonunun Xəlfəli kəndində düşmənin açdığı atəşlər nəticəsində onunla birlikdə Ayxan Kərimli, Musa Orucov və Yusif Məcidli də müxtəlif növ bədən xəsarətləri alıb, bir neçə nəfər isə həlak olub. O, dövlət ittihamçısı Təranə Məmmədovanın sualına cavabında deyib ki, həmin vaxt düşmən mütəmadi olaraq təxribatlar törədərək ərazilərimizə müxtəlif silahlardan atəş açıb.

Zərərçəkmiş şəxs Sübhan Qardaşxanov Ağdam rayonu istiqamətində atılmış mərminin yaxınlığa düşüb partlaması nəticəsində çoxsaylı qəlpə xəsarətləri alıb. Hadisə zamanı Mehdi Abbasov, Devid Cəlilov, Rəsul Teymurov, Əli Tağıyev və Cavad Məhərrəmov həlak olub, daha bir neçə nəfər isə yaralanıb. O, hadisədən əvvəl də düşmən tərəfin mütəmadi olaraq təxribat törətdiyini, atəş açdığını bildirib.

Zərərçəkmiş Rövşən Xəlilov Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavabında qeyd edib ki, Ağdamda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin snayper atəşi və atdıqları artilleriya mərmisinin partlaması nəticəsində xəsarətlər alıb. Həmin vaxt yanında olan İsmayıl Həşimov da yaralanıb.

Zərərçəkmiş Nicat Qasımov düşmənin açdığı artilleriya atəşi nəticəsində Füzulidə yaralandığını deyib.

Ayaz Həsənli ifadəsində Ağdam istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən basdırılmış minanın partlaması nəticəsində xəsarətlər aldığını söyləyib.

Dövlət ittihamçıları Fuad Musayev və Vüsal Abdullayevin suallarına cavablarında zərərçəkmiş şəxslər bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri ərazilərimizdə intensiv şəkildə genişmiqyaslı təxribatlar törədiblər.

Ceyhun Hüseynov Zəngilan rayonunda düşmən tərəfindən atılmış qumbaraatan mərmisinin partlaması nəticəsində xəsarət alıb. "Düşmən əvvəlcə artilleriya atəşi açdı, sonra isə canlı qüvvə ilə hücuma keçməyə cəhd etdi", - deyə o bildirib.

Zərərçəkmiş şəxslər Tural Zeynalov, Şahin Əhmədov, Zeynal Cəbrayılov, Mehdi Yusifov, Rəsul Feyzullayev ifadələrində Zəngilan rayonunda düşmən tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını diqqətə çatdırıblar.

Təbriz Abuşov ifadəsində Xocalı rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində güllə yarası aldığını söyləyib.

Zərərçəkənlər İlham İsrayılov və Namiq Əliyev Ağdamda artilleriya mərmisinin partlaması nəticəsində yaralandığını söyləyib.

Zərərçəkən Atalı Soltanəli də düşmənin genişmiqyaslı təxribatı nəticəsində Ağdərə istiqamətində yaralanıb. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında o deyib ki, hadisə zamanı yanındakı şəxslər həlak olublar.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası iyunun 24-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

## Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında qeyri-hökumət təşkilatları fəallıqlarını artırırlar

Qərbi Azərbaycan İcması tərəfindən milli və beynəlxalq platformalarda Qərbi Azərbaycan məsələsinin tarixi, o ərazilərdən zorla köçürülən, deportasiya olunan insanların taleyi, islam dininə məxsus tarixi abidələrin, məscid və inanc yerlərimizin, mədəni-maarif müəssisələrinin məqsədli şəkildə məhv edilməsi, azərbaycanlıların yaşadıqları kəndlərin yandırılması, qarət edilməsi, günahsız və köməksiz insanların kütləvi şəkildə qətlə yetirilməsi təkzibolunmaz faktlar və arxiv materialları əsasında dünya ictimaiyyətinə çatdırılır.



Artıq bu missiya respublikamızın sərhədlərini aşaraq yaxın və uzaq xarici ölkələrdə də böyük əks-səda doğurur, ermənilərin işğalçılıq siyasəti pislənilir. Azərbaycanın beynəlxalq insan hüquqlarını müdafiə qanunlarına əsaslanan mövqeyi tərəqqipərvər insanlar tərəfindən dəstəklənir.

Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il martın 26-da imzaladığı Fərmanında da bildirildiyi kimi, azərbaycanlılara qarşı soyqırımı əsrlər ərzində aparılıb və əsas məqsədi tarixi Azərbaycan ərazilərini ələ keçirmək olub.

Xatırladaq ki, soydaşlarımızın Qərbi Azərbaycandan ilk deportasiya dövrü 1905-1920-ci illəri əhatə edir. O zaman milli zəmində baş verən qanlı hadisələr nəticəsində həmin ərazidə mövcud olmuş 1000-ə yaxın Azərbaycan kəndi xəritədən tamamilə silinmişdir. Yüzminlərlə azərbaycanlının öldürüldüyü İrəvan quberniyasında vaxtilə əhalinin 80 faizindən çoxunu təşkil etmiş azərbaycanlılar artıq 1921-ci ildə həmin ərazidə etnik azlıq təşkil etməyə başlamışdır. 1948-1952-ci, 1987-1991-ci illərdə aparılmış etnik təmizləmə nəticəsində azərbaycanlılar tamamilə oradan qovulmuşdular. Hazırda bir nəfər də olsun azərbaycanlı indi Ermənistan adlanan o ərazidə qalmayıb və soydaşlarımıza məxsus mədəni irs tamamilə dağıdılıb. 1988-ci ildə baş vermiş son deportasiya hadisəsi isə əvvəlkindən fərqli amillərlə səciyyələnir. Bu deportasiya milli zəmində, Qərbi Azərbaycanda yaşayan 300 minədək həmvətənimizin öz doğma yurdlarından zorla qovulması ilə tarixə yazılıb.

Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni reallıqlar növbəti hədəfləri dəf etmək üçün daha böyük imkanlar açmışdır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və uğurlu siyasəti sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilmişdir. Azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq müstəviyə çıxarılmışdır. Dövlət başçısı Qərbi Azərbaycanın soydaşlarımızın tarixi torpağı olduğunu nüfuzlu beynəlxalq kürsülərdən bəyan etmişdir.

Bu gün Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdış həyata keçirilirsə, yaxın gələcəkdə Qərbi Azərbaycana da dönüşümüz real olacaq. İnam və qətiyyətlə hədəflərə, məqsədlərə doğru irəliləyən Azərbaycan hər bir vətəndaşının arzularını reallığa çevirməyi qarşısına məqsəd qoyub. Bu məsələdə Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə əsasən Qərbi Azərbaycan İcması öz üzərinə düşən tarixi missiyanı uğurla yerinə yetirir. İcma Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün yorulmadan çalışır.

Qarabağ və Şərqi Zəngəzurun bərpasını, quruculuğunu və məskunlaşdırılmasını strateji hədəflərin ilkin mərhələsi hesab edən İlham Əliyev növbəti mərhələni belə xarakterizə edib: "Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik".

İlham Əliyev Qərbi Azərbaycana qayıdışı milli ideyanın tərkib hissəsi elan etməklə, yalnız bu bölgənin insanlarını deyil, bütün xalqı bu mövzu ətrafında səfərbər edib. Bu mühüm məsələdə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, nümayəndəlikləri, diaspor təşkilatları, qeyri-hökumət təşkilatları xüsusi fəallıq göstərirlər. Bu sıradan ötən ayın ikinci ongünlüyündə Azərbaycanın İordaniya Haşimilər Krallığındakı səfirliyinin təşkilatçılığı və Qərbi Azərbaycan İcmasının dəstəyi ilə Əmman şəhərində "Qərbi Azərbaycan mədəni irsinin izi ilə" mövzusunda keçirilən elmi-praktiki konfransda ətraflı bəhs edilib. Konfransda Qərbi Azərbaycana aid maddi-mədəniyyət nümunələrindən ibarət "Qərbi Azərbaycan mədəniyyəti" adlı sərgi, həmçinin "Qərbi Azərbaycanın zəngin mədəni irsi" adlı videoçarx nümayiş etdirilib.

Qərbi Azərbaycan tariximizin və milli-mənəvi irsimizin ayrılmaz parçasıdır. Soydaşlarımızın ata-baba yurdlarından zor gücünə çıxarılması danılmaz tarixi həqiqətlərdir. Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, coğrafiyası ilə bağlı materialların daha geniş şəkildə öyrədilməsi, elmi konfransların təşkili ilə tələbələrin bu məsələlərə daha çox cəlb olunması istiqamətində əməli addımlar atılır. Bu baxımdan Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə rayonlarda, kənd və qəsəbələrdə maarifləndirmə işi aparılır, ictimaiyyət nümayəndələri, xüsusən də Qərbi Azərbaycanəsilli insanlarla görüşlər keçirilir, sənədlər toplanır.

Qərbi Azərbaycan İcması (QAİ) Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi, professor Vaqif Şadlinski bildirir ki, Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq hüquqa əsaslanan tələb və tövsiyələrinə rəğmən Qərbi Azərbaycan İcması ictimaiyyətin dəstəyini daim gündəmə gətirməklə istər Bakıda, istərsə də respublikanın bölgələrində Qərbi Azərbaycan kökənli gənclərlə görüşlər keçirir. Məsələn, Bakıda müəyyən elm və təhsil müəssisələrində, nazirlik və şirkətlərdə, eləcə də Naxçıvan, Gəncə, Sumqayıt, Şabran, Siyəzən, Bərdə, Tərtər, Şəmkir və digər rayonlarda görüşlər keçirib, bu proses hazırda davam edir.

Bu sıradan olan məlumatlandırıcı tədbir İmişlidə də maraqla qarşılanıb. Qərbi Azərbaycan İcması və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycan: tarixin izi ilə" layihəsi çərçivəsində reallaşan bu görüş Qərbi Azərbaycan ilə bağlı faktların geniş ictimaiyyətə çatdırılmasında, xüsusilə gənclərin tarix və milli kimlik barədə məlumatlılığının artırılmasında əhəmiyyətlidir. Görüşdə həmçinin Qərbi Azərbaycan tarixi, coğrafiyası, mədəniyyəti, incəsənəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri və tarixi şəxsiyyətləri, toponimləri, folkloru, eləcə də Qərbi Azərbaycandan zorla çıxarılmış soydaşlarımızın öz doğma yurdlarına qayıtması istiqamətində ölkəmizin haqlı və ədalətli mövqeyi iştirakçıların diqqətinə çatdırılıb.

Xatırladaq ki, indiki Ermənistan ərazisində yaşamış azərbaycanlıların deportasiya tarixi 1820-1988-ci illər olmaqla böyük bir dövrü əhatə edir. Ötən bu dövr ərzində etnik təmizləməyə məruz qalan, yurd-yuvasını tərk etməyə məcbur edilən soydaşlarımızın əksəriyyəti hazırda Azərbaycanda yaşayır. Görüşlər zamanı vaxtilə erməni terroruna, erməni hiyləgərliyinə və qətliamlarına məruz qalmış ailələr, onların ailə üzvləri, törəmələri illərlə dədə-baba yurduna qayıdacaqları arzusu ilə yaşadıqlarını söyləyirlər. Erməni haqsızlığına etiraz əlaməti olaraq hətta Türkiyəyə, Almaniyaya, Gürcüstana, Qazaxıstana, Özbəkistana və digər ölkələrə köçənlər də çoxdur. Təkcə Türkiyə Cümhuriyyətində 1,5 mindən çox qərbi azərbaycanlı var və onlar Qərbi Azərbaycan İcmasının Qarsda yaradılmış ofisinə müraciət edərək ata-babalarının vaxtilə zorla qovulduqları o yurda qayıdışa hazır olduqlarını bildiriblər. Bu kimi tədbirlərin reallaşmasında, konfrans və sərgilərin keçirilməsində, tarixi arxiv sənədlərini əks etdirən kitab və broşürlərin nəşrində respublikamızda fəaliyyətdə olan qeyri-hökumət təşkilatlarının dəstəyi məmnunluq doğurur. Bu günlərdə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi "Qərbi Azərbaycana qayıdış" mövzusunda icra edilən brifinqində bu barədə ətraflı açıqlamalar verib. Azərbaycan QHT-ləri beynəlxalq kürsülərdə - BMT-nin, ATƏT-in müxtəlif toplantılarında, xarici ölkələrdə bu mövzuda məsələlər qaldırıb, ictimai diskussiyalar açıb, yan tədbirlər təşkil etməyə nail olublar. Ümumilikdə bu tədbirlər ABŞ, Belçika, İspaniya, Rumıniya, Polşa, Türkiyə, Özbəkistan, Qazaxıstan kimi ölkələri əhatə edib. Qərbi Azərbaycana qayıdış istiqaməti üzrə QHT-lərin indiki miqyasda fəallığı heç vaxt olmayıb. Azərbaycanın vətəndaş cəmiyyəti təsisatları haqlı olaraq, bu mövzuya Qarabağ və Şərqi Zəngəzurun azadlığından sonra milli ideyanın yeni hədəfi kimi yanaşır, bu ümumxalq arzusunu reallığa çevirmək üçün imkanlarını səfərbər edirlər.

Yaxın günlərdə "Bizi Birləşdirən Mədəniyyət" İctimai Birliyinin icra etdiyi layihə çərçivəsində "Zəngəzur mahnısı" ictimaiyyətə təqdim olunacaq, radiolarda səslənəcək. Bu musiqi əsərini Azərbaycanın tanınmış sənətkarları ifa ediblər. Aşıqların konsert proqramları da Qərbi Azərbaycan nisgilini çatdıracaq. "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin "Ustad Ələsgərin Göyçə harayı - Vətənə sarı", "Ozan Dünyası" Aşıq Yaradıcılığının Təbliği İctimai Birliyinin "Aşıqlar Qərbi Azərbaycanı tərənnüm edir", Azərbaycan Aşıqlar Birliyinin "Qərbi Azərbaycan aşıqlarının dastan repertuarı" layihələri bu qəbildəndir. Bundan başqa, "Tətbiqi Sənət Nümunələrinin Qorunmasına və Təbliğinə Yardım" İctimai Birliyi Özbəkistanda Qərbi Azərbaycan mövzusunda sərgi təşkil edəcək.

QHT-lərin layihələri çərçivəsində "Qərbi azərbaycanlıların Qars köçü" mövzusunda sənədli film də hazırlanır. Azərbaycan Ədəbiyyatı Fondu isə "Qərbi Azərbaycan əsərlərdə" layihəsi çərçivəsində yeni bədii əsərin təqdimatını edəcək. "Elmi Araşdırmalar" İctimai Birliyinin "İrəvan: hər daşı tarix", "Dünya Gənc Türk Yazarlar" İctimai Birliyinin "Türk dünyasında Qərbi Azərbaycan mövzusu" və digər layihələr Qərbi Azərbaycanın maddi-mədəni irsinə qarşı vandalizmin hüquq müstəvisində və digər aspektlərdən qiymətləndirilməsinə töhfə verəcək.

Ötən dövr ərzində agentliyin "Qərbi Azərbaycana qayıdış" mövzusunda layihələri çərçivəsində QHT-lər 200-dən çox məqalə, 15 kitab nəşr edib. "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyinin "İrəvan: tariximiz, torpağımız, taleyimiz", "Kainat" Milli-Mənəvi Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin "İrəvan: tarixi həqiqətlər və şəxsiyyətlər" kitabları bu qəbildəndir.

Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında, bu müqəddəs missiyanın kütləviləşməsində, coğrafiyasının genişlənməsində qeyri-hökumət təşkilatlarının fəallığı məmnunluq doğurur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Xankəndi şəhərində Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun iclası olub

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə üzrə İşçi qrupun növbəti iclası Xankəndi şəhərində keçirilib.





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) və İşçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri ANAMA tərəfindən Ağdam rayonunun Sarıcalı kəndi ərazisində və Fövqəladə Hallar Nazirliyi tərəfindən rayonun Əlimədətli kəndində icra edilən humanitar minatəmizləmə fəaliyyəti ilə tanış olublar. İşçi qrupun üzvləri həyata keçirilən layihələrin gedişatını, o cümlədən aşkar olunan mina və partlamamış hərbi sursatların partlayış yolu ilə zərərsizləşdirilməsi prosesini müşahidə ediblər.

Daha sonra İşçi qrupun Xankəndi şəhərində geniş tərkibdə iclası keçirilib.

Agentliyin İdarə Heyətinin sədri, İşçi qrupun rəhbəri Vüqar Süleymanov iclasda çıxış edərək, illik tədbirlər planına əsasən həyata keçirilən humanitar minatəmizləmə əməliyyatlarının gedişatı barədə məlumat verib. Bildirib ki, minatəmizləmə əməliyyatları Böyük Qayıdış Proqramının əsas tərkib hissələrindən biridir və bu fəaliyyət yalnız təhlükəsizlik baxımından deyil, həm də sosial-iqtisadi inkişaf və əhalinin doğma yurdlarına qayıdışı üçün ilkin şərtdir. İdarə Heyətinin sədri qeyd edib ki, minatəmizləmə fəaliyyətinə cəlb olunan qurumlar tərəfindən 2025-ci il ərzində yaşayış infrastrukturu üzrə 8 318 hektar, kənd təsərrüfatı üzrə 9 176 hektar, ekoloji qiymətləndirmə üzrə 1 951 hektar, nəqliyyat infrastrukturu üzrə 708 hektar, meliorasiya və su təsərrüfatı üzrə 628 hektar və digər prioritet layihələr daxil olmaqla, cari il ərzində 27 204 hektar ərazi mina və partlayıcı qalıqlarından təmizlənib. İclasda çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov ölkə rəhbərinin azad edilmiş ərazilərin yenidən qurulması, Böyük Qayıdış Proqramının uğurlu icrası, təhlükəsiz və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətindəki tapşırıqlarına uyğun olaraq aparılan mühüm işlər və gələcək layihələr barədə məlumat verib.

İclasda bərpa-quruculuq layihələri ilə əlaqəli şəkildə icra edilən humanitar minatəmizləmə fəaliyyəti istiqamətində görülən işlərin icrası və cari məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra edilən fəaliyyət üzrə hesabatlar dinlənilib, əməliyyatlara cəlb olunmuş texnika və avadanlıqlar barədə məlumat verilib.

İşğaldan azad edilmiş ərazilərə çox sayda keçmiş məcburi köçkünün geri qayıdışını, habelə turist səfərlərinin artımını nəzərə alaraq, aidiyyəti qurumlarla birgə mina təhlükəsinə dair maarifləndirmə fəaliyyətinin, müştərək təbliğat-təşviqat işlərinin genişləndirilməsi, mümkün layihələrin icrası istiqamətində fikir mübadiləsi aparılıb, təkliflər irəli sürülüb.

# Xankəndi şəhərində "Sağlamlığa doğru qaç!" layihəsinin final mərhələsi keçirilib

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ittifaq üzvlərinin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, müalicə və istirahətinin səmərəli təşkili məqsədilə bir sıra layihələr həyata keçirir.**









Belə layihələrdən biri də səhiyyə sahəsində çalışan ittifaq üzvlərinin iştirak etdiyi "Sağlamlığa doğru qaç!"dır. Tibb İşçilərinin Peşə Bayramı Gününə həsr olunan layihə çərçivəsində iyunun 17-də Xankəndi şəhərində qaçış yarışının final mərhələsi keçirilib. Finalda Hacıqabul, Ağcabədi, Lənkəran, Qusar, Şamaxı rayonları, Mingəçevir, Gəncə və Bakı şəhərlərində keçirilmiş zona yarışlarının qalibləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Açılış mərasimində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov tibb işçilərini peşə bayramı münasibətilə təbrik edib, layihənin final mərhələsinin suverenliyimizin bərpa edildiyi Xankəndi şəhərində təşkil olunmasını əlamətdar hadisə adlandırıb.

Bildirilib ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qalib xalqımız şanlı tarixinin ən parlaq dövrünü yaşayır və hər birimiz regionun lideri, dünyada söz sahibi olan Azərbaycan dövlətinin vətəndaşı olmaqdan qürur duyuruq. Dövlətimizin idman siyasətindən, tibb sahəsinə diqqət və qayğısından, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə səhiyyə sistemində reallaşdırılan uğurlu layihələrdən danışan konfederasiya sədri Azərbaycan həmkarlar ittifaqlarının da bu cür təşəbbüslərinin ümumi məqsədlərə dəstək xarakteri daşıdığını qeyd edib.

Sahib Məmmədov tibb işçilərinin iştirak etdiyi "Sağlamlığa doğru qaç!" layihəsinin asudə vaxtın mənalı keçirilməsi, sağlam həyat tərzinin təbliği, ittifaq üzvləri arasında həmrəyliyin gücləndirilməsi baxımından faydalı olduğunu bildirib və final iştirakçılarına uğurlar arzulayıb.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov çıxışında dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Şərqi Zəngəzurda və Qarabağda aparılan sistemli və sürətli abadlıq-quruculuq işlərindən, öz doğma yurduna qayıdan sakinlərə yaradılan şəraitdən söz açıb və bugünkü idman tədbirinin Xankəndidə təşkil olunmasının əhəmiyyətindən bəhs edib.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, səhiyyə nazirinin müavini İlqar Qasımov və Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev çıxışlarında Azərbaycan səhiyyəsinin inkişafından, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində atılan addımlardan, həkimlərimizin peşəkarlığından, pandemiya və Vətən müharibəsi dövründə səhiyyə işçilərinin fədakar əməyindən danışıblar.

Sonra vətənpərvərlik mövzusunda mahnılar və milli rəqslər tamaşaçılar və iştirakçılar tərəfindən alqışlarla qarşılanıb və onlarda xoş əhvali-ruhiyyə yaradıb.

Start verilən beş min metr məsafəyə qaçışda zonalar üzrə qalib olmuş 48 səhiyyə işçisi iştirak edib. Finiş xəttini ilk keçən 3 qadın və 3 kişi iştirakçı finalın qalibi elan olunaraq pul mükafatı, diplom, medal və kubokla təltif edilib.

Final da daxil olmaqla layihəyə ümumilikdə 1500-dən çox səhiyyə işçisi qatılıb. Tədbir bədii hissə ilə yekunlaşıb.

***N.ƏSGƏROVA, "Azərbaycan"***

# Azərbaycan Dünya Bankının daha bir hesabatında irəliləyib

## Ölkəmiz əmək bazarında gender bərabərliyi nümunəvi olan dövlətlər sırasındadır

İnsanların sosial rifah içində yaşamağı təmin edən ən önəmli amil layiqli əməklə məşğul olmaqdır. Yəni hər bir insan qabiliyyətinə görə gəlirli işlə məşğul olarsa, özünün yaşamını təmin edə bilir.

Uzun illər dünyada dini və milli ənənələr üzündən qadınların əmək bazarına çıxışı məhdud olub. Baxmayaraq ki, qadınların fəal şəkildə əmək bazarına daxil olan ölkələrdə inkişaf və sosial rifahın daha yüksək səviyyədə olması çoxdan məlumdur, belə vəziyyətin hələ də davam etdiyi ölkələr var. Son dövrlər dünyanın əmək bazarında gender bərabərliyi barədə çalınan həyəcan təbili də bununla bağlıdır.

Azərbaycanda isə vəziyyət tam fərqlidir. Bizdə qadına cəmiyyətdə fəal iştirak etmək hüququ çoxdan təmin edilib. Şərqdə ilk dəfə qadınlara seçmək və seçilmək hüququ da Azərbaycanda verilib. Hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul edilən qanunla qadınlarımız bu hüquqa malik olublar. Yəni ötən əsrin əvvəllərində Azərbaycan dünyada qanunla qadına dəyər və hüquq verən ölkə kimi tarixə düşüb. Həmin ənənə ölkəmizdə bu gün də davam edir.

Dünya Bankı Qrupu və Beynəlxalq Valyuta Fondunun 2025-ci ilin Yaz iclasında qadınların əmək bazarına çıxış imkanlarının genişləndirilməsi üzrə Azərbaycan uğurlu nümunə kimi göstərilib. İclasda vurğulanıb ki, ölkəmizdə son dövrlərədək qadın əməyinin məhdudlaşdırıldığı 674 peşə sahəsinə qadınların çıxışı təmin olunub. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil şöbəsinin müdir müavini Elnur Ələkbərov deyir ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası"nda qadınların yüksək gəlir gətirən iş yerlərinə çıxış imkanlarının genişləndirilməsi məqsədilə əlavə mexanizmlərin yaradılması və tətbiqi tədbirinin icrası nəticəsində qadınlarımızın məşğulluq imkanları genişlənib. 2023-cü ildə Əmək Məcəlləsində qadın əməyini məhdudlaşdıran 241-ci maddə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 oktyabr 1999-cu il tarixli 170 nömrəli qərarı ilə təsdiq edilmiş "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin Siyahısı"nın ləğv edilməsi barədə Nazirlər Kabinetinin 31 may 2023-cü il tarixli 172 nömrəli qərarı təsdiq edilib. Sözügedən qərarın ləğvi ilə ölkədə qadınların sənaye və təhlükəli işlərdə çalışmasına qoyulan hüquqi məhdudiyyətlər aradan qaldırılıb. Bu islahatlar çərçivəsində 674 iş sahəsinə (o cümlədən nəqliyyat, kənd təsərrüfatı və enerji sektorlarına) qadınların çıxış imkanı yaradılıb.

Mütəxəssis vurğulayır ki, aparılan islahatların müsbət nəticəsi olaraq, ötən il Dünya Bankının "Qadınlar, Biznes və Hüquq- 2024" hesabatında ölkəmiz gender bərabərliyi və qadınların iqtisadi iştirakı sahəsində əhəmiyyətli irəliləyiş əldə edərək reytinq göstəricisini 78,8-dən 85-ə qaldırıb. Həmin nəticə ilə Azərbaycan 190 ölkə arasında 35 pillə irəliləyərək 104-cü yerdən 69-cu yerə yüksəlib. Bu göstərici yuxarı-orta gəlirli ölkələr üzrə orta səviyyədən yüksəkdir. Eyni zamanda Azərbaycan Avropa və Mərkəzi Asiya regionunda hüquqi islahatlar həyata keçirən beş ölkədən biri kimi qiymətləndirilib.

E.Ələkbərov əlavə edib ki, 2015-2023-cü illərdə məşğul qadınların sayı 5 faiz artaraq 2,3 milyon nəfərdən 2,4 milyon nəfərə yüksəlib: "Bu, qadınların iqtisadi fəallığının və əmək bazarında iştirakının gücləndiyini göstərir. Azərbaycanda qadınların iqtisadi iştirakı sahəsində əldə etdiyi nailiyyətlər ölkəmizin davamlı inkişaf məqsədlərinə sadiqliyini nümayiş etdirir. Hüquqi islahatlar və dəstəkləyici siyasətlər qadınların iqtisadi potensialının daha da artırılmasına və əmək bazarında bərabər imkanların təmin olunmasına əlavə töhfə verəcək".

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Erməni xəstəliyi və riyakarlığı

Hazırda bütün dünyanın diqqəti İran-İsrail qarşıdurmasına yönəlib. Bir neçə gündür davam edən qarşılıqlı hava hücumları yalnız bu ölkələri deyil, Yaxın Şərq regionunu təhlükə və təhdid qarşısında qoyub. Azərbaycan İranla qonşu olduğundan baş verənlər ölkəmizdə də narahatlıqla izlənilir. Rəsmi Bakının bu məsələdə mövqeyi aydın və dəqiqdir.

### Azərbaycan qarşıdurmanın danışıqlar yolu ilə həllinin tərəfdarıdır

İyunun 14-də Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığı zamanı İran və İsrail arasında vəziyyətin gərginləşməsi ilə bağlı narahatlıq ifadə olunub. Dövlət başçıları gərginliyin tezliklə aradan qaldırılmasının vacibliyini qeyd edərək, məsələlərin danışıqlar yolu ilə həllinin önəmini vurğulayıblar.

Azərbaycan Xarici İşlər Nazirliyinin iyunun 13-də yaydığı bəyanatda İsrail və İran arasındakı hərbi əməliyyatlardan narahatlıq ifadə olunub. Azərbaycan XİN vəziyyətin gərginləşdirilməsini qəti şəkildə pisləyərək, tərəfləri mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyə çağırıb. Azərbaycanın narahatlığı xarici işlər naziri Ceyhun Bayramovun iranlı həmkarı Seyid Abbas Əraği ilə telefon danışığında da diqqətə çatdırılıb. Mövcud problemləri yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyin vacib olduğu qeyd edilib.

Azərbaycan və İran xarici işlər nazirlərinn telefon danışığı zamanı həm də respublikamızın ərazisinin hər hansı bir ölkə tərəfindən üçüncü ölkəyə, o cümlədən, qonşu İrana qarşı istifadə edilməsinin mümkün olmadığı da vurğulanıb. Ümumiyyətlə, respublikamız heç vaxt İranla bağlı kampaniyalara qoşulmayıb. Bakı öz cənub qonşusu ilə əlaqələrə həmişə xüsusi diqqətlə yanaşıb, münasibətlərin yüksələn xətlə inkişafına çalışıb. Azərbaycan ikitərəfli əlaqələrə azacıq da olsa kölgə salacaq addım atmayıb, beynəlxalq müstəvidə İranın milli maraqlarına zidd, xüsusən nüvə proqramı ilə bağlı müzakirələrdə bu ölkəyə qarşı olan təşəbbüsləri dəstəkləməyib.

Son hadisələrdə də Azərbaycanın mövqeyi aydındır. İran rəsmi dairələri də reallığı görür, Azərbaycanın mövqeyinin, proseslərə yanaşmasının necə olduğunu bilirlər.

### Azərbaycan-İran münasibətlərinin möhkəmlənməsi Ermənistanda narahatlıq yaradır

İran-İsrail qarşıdurması fonunda Azərbaycana qarşı hibrid və açıq şəkildə informasiya müharibəsinin aparıldığı da göz önündədir. Söhbət sosial şəbəkələrin erməni seqmentində son günlərdə ölkəmizə qarşı aparılan böhtan və qarayaxma kampaniyasından gedir. Günlərdir ki, ermənilər sosial şəbəkələrdə, xüsusən teleqram kanallarında İsrailin guya Azərbaycan ərazilərindən istifadə etməsi barədə dezinformasiya yaymaqdadırlar. Hətta saxtakarlıqları ilə özlərini komik vəziyyətə salırlar. Belə ki, ermənilər tərəfindən məqsədli şəkildə hazırlanmış bir videorolikdə İranda hansısa gənc guya Azərbaycan tərəfdən gələn uçuş aparatlarını müşahidə etdiyini bildirir. Doğrudan da, gülməlidir.

Sosial şəbəkələrin erməni seqmentinin bu cür məlumatları heç bir rəsmi mənbə tərəfindən təsdiqini tapmır və tapa da bilməz. Çünki olmayan bir məsələni heç vaxt təsdiq eləmək mümkün deyil. Digər tərəfdən bu cür dezinformasiyalar yalnız ermənilər tərəfindən yayılır. Erməni seqmentindən başqa digər sosial medialarda və ya xarici KİV-də İran-İsrail qarşıdurması barədə saxta xəbərlərə rast gəlmək mümkün deyil.

Erməni saxtakarlığının məqsədi aydındır. Son dövrlərdə yeni mərhələyə qədəm qoyan və daha da möhkəmlənən Azərbaycan-İran münasibətləri Ermənistanda həyəcan və narahatlıqla qarşılanır. Bakı ilə Tehran arasındakı dostluq və qardaşlıq münasibətlərinin güclənməsi, inkişaf etməsi İrəvanın maraqlarına cavab vermir. Ona görə ermənilər bütün imkanlardan istifadə edərək bu münasibətlərə kölgə salmağa çalışırlar. Bu mənada İran-İsrail qarşıdurmasına öz bədnam niyyətlərini həyata keçirmək üçün fürsət kimi baxırlar. Lakin niyyətlərinin baş tutmadığı göz önündədir.

Onu da qeyd edək ki, Azərbaycana qarşı bu cür qarayaxma kampaniyası aparanlar arasında xüsusən Ermənistan hökümətinə yaxın olan teleqram kanalları yer tutur. Ermənistandakı revanşistləri anlamaq çətin deyil. Onlar hər vəchlə, hər addımda Azərbaycanı qaralamaq, ölkəmizə böhtan atmaq xəttini tutublar. Bu ölkənin hökumətinin mövqeyini ifadə edən sosial seqmentlərin Azərbaycana qarşı hibrid mübaribə aparmaları ondan xəbər verir ki, Ermənistanda bu prosesi dəstəkləyənlər elə bu ölkənin rəsmi dairələridir. Hansı ki bu təfəkkürün sahibləri Azərbaycanla sülhdən dəm vururlar. Lakin Azərbaycana qarşı riyakar davranışları göstərir ki, onlar heç sülh məsəsələsində də səmimi deyillər.

İran-İsrail qarşıdurması müstəvisində ermənilərin sosial şəbəkələrdə respublikamıza qarşı yaydıqları dezinformasiyalar bir daha göstərir ki, riyakarlıq bu toplumun təmsilçilərinin sağalmaz mərəzidir. Amma iş orasıdır ki, bu xəstəliklə, daşıdıqları çirkin xislətlə heç vaxt uzağa gedə bilməyiblər və atdıqları bumeranq həmişə özlərinə dəyib.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# *Fransalı tarixçi:* "Qarabağda minalarla bağlı vəziyyət mülki insanların öz evlərinə qayıtmalarına mane olur"

"İRS" nəşriyyat evinin nəfis kitablarının təqdimatında iştirak etməkdən çox məmnunam. Azərbaycanın qədim və zəngin tarixini, mədəniyyətini və memarlığını tərənnüm edən bu kitablar, doğrudan da, qeyri-adidir. Kitabların nəfis tərtibatı valehedicidir".

Bu fikirləri "PAŞA Həyat Sığorta" ASC-nin dəstəyi ilə "İRS" Nəşriyyat Evinin dərc etdiyi kitabların ölkəmizin Parisdəki səfirliyinin Mədəniyyət Mərkəzində keçirilən təqdimat mərasimində iştirak edən fransalı tarixçi Antuan Konstan AZƏRTAC-a müsahibəsində deyib.

"Təəssüf ki, Azərbaycanla bağlı çox az kitablar var və ölkəyə dair kitab tapmaq çətindir. Bu maraqlı kitabların geniş ictimaiyyətə təqdimatı çox yaxşı haldır Bu kitablar Azərbaycanı, onun tarixini, mədəniyyətini və reallıqlarını yaxından tanımağa imkan verir. Mətnlər çox nəfis və maraqlı şəkildə hazırlanıb.

Müasir tarixi, xüsusilə də Qarabağ müharibəsini, onun mənfi nəticələrini əks etdirən kitablar reallıqla tanış olmaq üçün çox vacibdir", - deyə o qeyd edib.

Piyada əleyhinə minalardan bəhs edən "Gizli ölüm toxumları" kitabının diqqəti daha çox cəlb etdiyini bildirən A.Konstan deyib ki, bu nəşr bu gün Qarabağda qarşılaşılan böyük problemi aydın əks etdirir. "Müharibənin partlayıcı qalıqları mülki insanlar üçün illərlə problemlər yaradır. Hətta bu gün Avropada da dünya müharibələrindən qalan partlayıcı maddələr hələ də tapılır. Bu baxımdan "Gizli ölüm toxumları" kitabı insanları maarifləndirmək məqsədi daşıyır. Təəssüflər olsun ki, Qarabağda minalarla bağlı vəziyyət mülki insanların öz evlərinə qayıtmalarına mane olur, kənd təsərrüfatı üçün böyük təhlükə yaradır", - deyə tarixçi vurğulayıb.

**Bəzən onlara ağ xalatlı mələklər də deyilir. Əgər bir həkim "tələsirəm", "vacib işim var" deyirsə, ağla ilk gələn fikir bu olur ki, həkim hansısa xəstənin köməyinə tələsir.**




# Şəfa ünvanı

Həkimlik müqəddəs peşədir. Elə həkimlərimiz var ki, öz sağlamlıqlarını qurban verəcəklərini bilsələr belə, geri çəkilmir, bir xəstəni, köməyə ehtiyacı olanı xilas etmək üçün həyatları ilə risk edirlər. Müqəddəs Hippokrat andına sadiq qalırlar. Biz Vətən müharibəsində bunun nümunəsini gördük. Yaralı əsgərlərimizi xilas etməyə çalışan neçə həkim namərd gülləsinin qurbanı oldu.

Dünən həkimlərin peşə bayramı günü idi. Sağlımlığımızın keşiyində duran bu nəcib insanların peşə bayramı ərəfəsində Mərkəzi Neftçilər Xəstəxanasında olduq. Xatırladaq ki, Mərkəzi Neftçilər Xəstəxanası 1956-cı ildən fəaliyyətə başlayıb. İlk günlərdən də respublikamızda əsl sağlamlıq ocağı, şəfaxana kimi tanınıb. Yüksək peşəkar həkimlərin cəmləşdiyi bu şəfqət ocağı Azərbaycanda bir çox ilki, uğuru ilə fərqlənib. Bircə faktı qeyd edək ki, Azərbaycanda ilk orqan transplantasiyası Neftçilər Xəstəxanasında icra edilib. Burada indiyədək 500-ə yaxın qaraciyər, 100-ə yaxın böyrək köçürülmə əməliyyatı keçirilib.

Bu gün həmin səhiyyə ocağında müasir tibbi xidmətlərin bir çox sahəsi cəmləşib. Xəstəxanada çoxsaylı ixtisaslaşdırılmış şöbə var və onlar müasir tibbi avadanlıqlarla təchiz olunub. Burada xəstələrə keyfiyyətli xidmət göstərmək üçün müxtəlif müayinə və müalicə üsulları tətbiq edilir. Təbii ki, xəstəxananın uğurlu fəaliyyəti əsasən burada çalışan yüksəkixtisaslı həkim heyəti ilə bağlıdır. Xəstəxanada peşəkar, geniş təcrübəyə malik 238 həkim, 375 orta tibb işçisi fəaliyyət göstərir.

Mərkəzi Neftçilər Xəstəxanası həm də respublikamızda ixtisaslı kadrların hazırlanmasında əsl baza rolunu oynayır. Bir zamanlar burada çalışan kadrlar indi respublikanın bir çox tanınmış tibb müəssisəsinə həm rəhbərlik edir, həm də peşəkar mütəxəssis kimi çalışırlar.

Xəstəxananın İctimayyətlə əlaqələr şöbəsinin müdiri Həqiqət Həmzəyeva qeyd edir ki, xəstəxananın ölkədə kardiocərrahiyyə sahəsində xüsusi xidmətləri var. Klinika ağır və mürəkkəb ürək əməliyyatlarının uğurla aparılması ilə seçilir. Həmsöhbətimiz onu da deyir ki, pandemiya dövründə xəstəxana pasiyentlərə yüksəkkeyfiyyətli tibbi xidməti ilə fərqlənib. O ağır günlərdə bu tibb ocağı 4500-ə yaxın COVID-19 virusuna yoluxmuş xəstəni müalicə edərək həyata qayıtmasına vəsilə olub.

Xatırladaq ki, 2020-ci ildən etibarən Mərkəzi Neftçilər Xəstəxanası TƏBİB-ə (Tibbi Ərazi Bölmələri üzrə İdarəetmə Birliyi) tabe olan səhiyyə müəssisəsi kimi fəaliyyət göstərir. Elə 2020-ci ildən də xəstəxanaya ixtisasca anesteziloqreanimatoloq, Əməkdar həkim, tibb üzrə fəlsəfə doktoru, Birinci Qarabağ müharibəsi iştirakçısı Musa Abbasov rəhbərlik edir. O, ABŞ, Belçika, Almaniya, Fransa və Türkiyədə xəstəxana idarəetməsi və elektron-idarəetmə sistemləri üzrə təlimlərdə iştirak edib. Respublikamızda bacarıqlı səhiyyə təşkilatçısı kimi tanınan Musa Abbasov MNX-dəki rəhbərliyi ilə paralel olaraq Yeni Klinikada da direktor vəzifəsini müvəqqəti icra edib.

Söhbət zamanı Əməkdar həkim Musa Abbasov deyir:

- Mərkəzi Neftçilər Xəstəxanası kimi müsbət imici, tarixi ənənəsi olan bir sağlamlıq ocağında çalışmaq şərəfdir. Bizdən əvvəl klinikaya rəhbərlik edən, burada çalışan ölkənin çox tanınmış həkimləri bu sağlamlıq ocağında Azərbaycan səhiyyəsinin şanlı tarixini yazıblar. Xəstəxanamızın tarixi vətəndaşlarımızda elə bir rəy formalaşdırıb ki, insanlar sağlamlıqlarının qayğısına qalmaq üçün etibarlı bir ünvan kimi buranı seçirlər. Mərkəzi Neftçilər Xəstəxanasına bu imici bizdən əvvəl çalışan həkimlərimiz qazandırıblar. Bildiyimiz kimi, əvvəllər xəstəxana əsasən neft sənayesində çalışan insanlara xidmət göstərib. Mən 2020-ci ildən bu xəstəxanada çalışıram. Həmin il qan yaddaşımıza şərəfli bir tarix kimi yazıldı. 2020-ci il zəfərimizin tarixini ehtiva edən, bizə bir ömür qürur yaşamağı bəxş edən bir ildir. 2020-ci il yaddaşımıza Vətən müharibəsinin başladığı tarixi hadisə ilə həkk olunub. Müharibə bazar günü başlamışdı. Həmin gün bütün həkimlərə hazır olmaları üçün müraciət etdik. Heç bir saat çəkmədi ki, bütün tibbi heyət xəstəxanaya toplaşdı.



Müharibə dövründə biz müalicələrimizi yalnız Neftçilər Xəstəxanasında deyil, xüsusi xəstəxana heyəti, cərrahi briqadalarımızla birlikdə tibb bacıları, həkimlər, ambulanslarımızla, cərrahi alətlərimizi, avadanlıqlarımızı maşınlara yükləyərək bilavasitə cəbhəyə yaxın yerdə xidmət göstərmək üçün döyüş bölgəsinə yollandıq. Deyim ki, müharibə başlayanda ora getmək üçün hər hansı bir tapşırıq almamışdıq. Bu, bir vətənərvərlik, Vətən qarşısında vicdan borcumuz idi. Çox qəribə idi ki, illərdir biz döyüşün başlanacağı anı gözləyirdik. Ali Baş Komandanın xalqa müraciətini eşidəndə sevincimizdən göz yaşı axıdıb bir-birimizi təbrik edirdik. Biz ilk dəqiqədən Ali Baş Komandanımızın qətiyyətindən, inamından qələbəmizi görürdük.

Müharibənin ikinci günü artıq biz Gəncədə Abbas Səhhət adına Xəstəxanada idik. COVID-19 dövrü olduğu üçün həmin xəstəxana virusa yoluxan xəstələr üçün nəzərdə tutulmuşdu. Xəstələri oradan təxliyə edib, dezinfeksiya işləri apardıq və orada Mərkəzi Neftçilər Xəstəxanasının filialı kimi hospital yaratdıq. Xəstəxanada eyni vaxtda 50 nəfərdən çox tibbi heyət çalışırdı. Elə ilk dəqiqələrdən cəbhə bölgəsindən gələn yaralıları qəbul edib əməliyyatlara başladıq. 44 gün ərzində 900 nəfərdə cərrahi əməliyyat apardıq. Əməliyyat jurnalımızda hər bir xəstənin adı, soyadı, icra olunan əməliyyatların təsnifatı qeyd edilib. Bu həm də bizim həkimlərin şərəfli əməklərinin şanlı tarixidir. Həkimlərimiz əsl fədakarlıq göstərdilər. 24 saat fasiləsiz, sözün əsl mənasında, gecə-gündüz çalışırdılar. Elə əməliyyatlar olurdu ki, 12-13 saat çəkirdi. Bu yerdə xüsusi olaraq bir məqamı xatırlatmaq yerinə düşər. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bizlərə, həkimlərə belə bir tapşırığı olmuşdur ki, maksimum dərəcədə çalışın heç bir əsgərin, heç bir döyüşçünün barmağı belə amputasiya olunmasın. Onlara mənim balalarım, özünüzün əzizi kimi diqqət göstərin. Çalışırdıq ki, daxil olan yaralıların ayaqlarını, əllərini amputasiya etməyək. Elə yaralımız var idi ki, 11 saat onun üzərində işləməli olurduq. Müharibənin öz qanunları var. İlk növbədə xəstənin həyatını xilas etmək lazım gəlir. Böyük qanaxmalarda, parçalanmış yaralarda həkim qısa zamanda xəstənin həyatını xilas etməyə çalışmalıdır. Buna baxmayaraq, həkimlərimiz vicdanla çalışaraq Vətən üçün can verən, qan tökən oğullarımız gələcəkdə əlil həyatı yaşamasın deyə 12 saat, 3-4 biriqada əməliyyatda iştirak etdi, amma bir nəfəri də olsun amputasiya etmədik. Qürur duyuruq ki, bu müddətdə həm də ölüm hadisəsi olmadı. Biz müharibə dövrünü şərəflə başa vurduq. Müharibə qurtardıqdan sonra da Zəfər çalmış ordunun bir hissəsi olaraq Ali Baş Komandandan təşəkkür alıb Bakıya, iş yerimizə qayıdıb fəaliyyətimizi davam etdirdik.

Həmsöhbətimiz bildirdi ki, həkimlik iş yeri deyil, məsləkdir, əqidədir, yaşam tərzidir: "İnsanlara şəfa verərkən, ehtiyacı olanın dərdinə şərik olarkən mənəvi rahatlıq tapırıq. Özü də belə bir xəstəxanada çalışmağın başqa bir zövqü var. Neftçilər Xəstəxanası ilk olaraq ölkənin iqtisadi, hərbi gücünə güc qatan, neft sənayesində çalışan insanlara həm ilk, həm də bu gün xidmət göstərən sağlamlıq ocağı kimi dövlət xəstəxanaları arasında brendləşmiş bir xəstəxana modelidir. Xoşbəxtik ki, bizə etibar edilən bu mirası davam etdirmək vəzifəsini üzərimizə götürmüşük".

Söhbətimizə xəstəxananın Ümumi cərrahiyə və orqan transplatasiyası şöbəsinin müdiri Elmir Əsgərov qoşulur. Öyrənirik ki, Elmir həkim bir müddət İzmir Unveristetində, Ege Xəstəxanasında çalışıb. 2015-ci ildən fəaliyyətini ölkəmizdə davam etdirir. 2018-ci ildən Neftçilər Xəstəxanasında Ümumi cərrahlıq və orqan transplantasiyası şöbəsinə rəhbərlik edir.

Yaponiyanın Mərkəzi Xərçəng Xəstəxanasında mədə qida borusu cərrahiyyəsi üzrə xüsusi kurs keçən Elmir həkim deyir ki, Neftçilər Xəstəxanası çoxsahəli xəstəxanadır: "Burada ürək-damar cərahiyyəsi, urologiya, tramatologiya, beyin



cərrahiyyəsi icra olunur. Bu gün iftixarla deyə bilərik ki, Azərbaycanda bütün sahələrlə yanaşı, səhiyyə sahəsi də sürətlə inkişaf edir. Əsas prioritetimiz xəstələrə yalnız sağlamlıq vermək deyil, həkimlərin özünün inkişafı da prioritetimizdir. Biz həm ölkə daxilində, həm də xaricdə təhsilimizlə məşğul oluruq. Özümüzü dünya səviyyəsində tibbə çatdırmaq üçün əlimizdən gələni əsirgəmirik".

Elmir həkim xüsusi olaraq qeyd edir ki, Azərbaycan Prezidenti bu gün səhiyyənin inkişafının, imkanlarının bütün əhaliyə əlçatan olması üçün ciddi işlər görür: "Artıq aparılan isahatlar öz nəticəsini verməkdədir. İcbari tibbi sığortanın ölkəmizdə tətbiqini səhiyyədə inqilab adlandırsaq səhv etmərik. Səhiyyə sahəsində çalışan həkimlərin, tibb işçilərinin təhsili, elmi bazasının yaxşılaşdırılması ilə yanaşı, maddi-texniki bazanın da gücləndirilməsi istiqamətində böyük işlər görülür. Ölkəmizdə sürətlə müasir tibbə inteqrasiya prosesi gedir. Ən müasir tələblərə cavab verən tibbi avadanlıqlar, cihazlar alınıb və onlarla işləmək vərdişi formalaşır. Bildiyimiz kimi, cərrahiyyə işi bir həkimlə tamamlanan iş deyil, kollektiv işdir. Tibbdə mən deyil, biz prinsipi işləyir. Bir əməliyyatın ərsəyə gəlməsi üçün böyük briqada çalışır. Qazandığımız uğurları bir nəfərin yox, kollektivin uğuru hesab edirik".

Elmir həkim vurğulayır ki, xəstəxanada tibbi xidmətlə yanaşı, tibbi təhsilə də önəm verirlər: "Gənc rezidentlərimizin, cərrahların yetişməsi üçün xidmətlər göstəririk. Azərbaycanın gələcək cərrahlarının, həkimlərinin yetişməsi üçün ciddi çalışırıq. Azərbaycan hamımızındır. Bu Vətənə xidmət etmək hamımızın borcudur".

Terapiya xidmətləri üzrə direktor müavini Saleh Hüseynovla da həmsöhbət oluruq. Saleh həkim söhbətə ölkəmizdə icbari tibbi sığortanın tətbiqinin üstünlükləri ilə başlayır:

- İcbari tibbi sığortanın tətbiqi vətəndaşlarımızın tibbi xidmətdən istifadəsini daha əlçatan etdi. Sizə deyim ki, iqtisadi cəhətdən bu, çox ağır və ciddi bir prosesdir. Dünyanın inkişaf etmiş ölkələrində - istər Avropada, istər də Amerikada özəl strukturun inkişafına baxmayaraq, dövlət sektorunda səhiyyənin bu qədər əlçatan olduğunu təsəvvür etmək belə çətindir. Həmin ölkələrdə insanlar sığorta sistemi ilə müalicə almaq üçün aylarla növbə gözləməli olurlar. Hazırda ölkəmizdə istənilən vətəndaş bir gündə 4-5 həkimin müayinəsindən keçə bilir. Bunun müsbət və mənfi tərəfləri var. Xəstələrin müayinəsi vaxtı bir neçə gün əvvəl təyin olunmadığı üçün bəzən ajiotaj yaranır, sıxlıq əmələ gəlir. Elə olur ki, xəstələr hər şeyi düzgün qəbul etmir, gözləmək istəmir, səbirsizlik edirlər. Düşünürəm ki, sistem daha da təkmilləşəcək. Xəstələr müalicə olunmaq üçün onlayn müraciət edib əvvəlcədən növbə götürəcəklər. Gəlib dəhlizlərdə saatlarla növbə gözləmək məcburiyyətində qalmayacaqlar.

İcbarı tibbi sığortanın imkanları hesabına xəstəxanamızda indiyə kimi tətbiq olunmayan tibbin imkanlarından istifadə edib yeni ürək əməliyyatları icra edirik. Bu günlərdə süni olaraq açıq əməliyyat etmədən adi damardan girərək ürək klapanı əməliyyatı etmişik.

Son illər həm texniki təchizatda çox ciddi dəyişikliklər olub, həm də xəstə məmnuniyyəti artıb. Neftçilər Xəstəxanasında tək sıxıntı bizə müraciət edən xəstələrin sayının artmasındadır. Məqsədimiz bizə müraciət edən xəstələrin sağlamlığını bərpa edib vətəndaş məmnunluğuna nail olmaqdır. Tibbə aid müasir avadanlıqların alınması, təchizatın yaxşılaşdırılması tibb sahəsindəki yeniliklərlə bağlı yeni şöbələrin açılmasını da şərtləndirir.

Tibb üzrə fəlsəfə doktoru, Mərkəzi Neftçilər Xəstəxanasının təcrübəli və stajlı həkimi nevropotoloq Laləxanım Hüseynova söhbətinə keçmişdən başlayır:



- Əvvəlki illərlə müqayisədə tibbdə inqilabi yeniliklər olub. Texniki təminat müqayisəolunmaz dərəcədə güclənib, fərqli bir keyfiyyət yaranıb. Biz indi xəstələrə dövlət hesabına yüksək səviyyədə tam pulsuz xidmət göstəririk. Blirsiniz bu nə deməkdir? Dövlətin vətəndaşının sağlamlığına xüsusi diqqəti. Sözdə yox, əməldə vətəndaşa olan dövlət qayğısı. İcbari tibbi sığortanın tətbiqi cox ciddi maddi vəsait tələb edən bir proqramdır. Adam şəxsiyyət vəsiqəsini cibinə qoyub, evindən çıxıb bir qəpik pul xərcləmədən tam müayinə və müalicə almaq imkanı qazanıb. Bu, çox yaxşı haldır. Amma bunun yaxşı olmayan bir tərəfi də var. Elə xəstələr var ki, ardıcıllıqla bütün xəstəxanaları gəzib müxtəlif həkimlərin qəbulunda olurlar. Hətta sui-istifadə halları da var. Məsələn, özəl xəstəxanalar bilirlər ki, dövlət xəstəxanalarında bahalı müayinələr pulsuzdur. Onlar gəlib dövlət xəstəxanasında bu xidmətlərdən pulsuz istifadə edib, 7-8 müayinədən keçib gedirlər özəl xəstəxanalara. Orada da istədikləri nəticəni əldə edə bilməyib dövlət xəstəxanalarına qayıdırlar. Bu zaman vaxt itkisi olur. Bəzən xəstələrin səhhətinin ağırlaşması ilə də nəticələnir.

Mənə elə gəlir ki, icbari tibbi sığorta ilə özəl klinikalar koordinasiyalı şəkildə işləməlidirlər. Bu gün xəstələrin lazım olmadığı halda sığortanın imkanlarından istifadələri ciddi problem yaradır. Heç bir xəstəliyi olmayan adamlar vaxtaşırı həkimə müraciət edib vaxt alırlar. Uzun-uzadı növbələr gerçək xəstələrin müayinə və müalicəsində problem yaradır. Anlayıram, insanların müayinədən keçmələri təbii haqqlarıdır. Amma heç bir xəstəliyi olmadığını bilə-bilə bütün xəstəxanaları gəzib, macəra axtarıb növbə yaratmaq yolverilməzdir. Digər bir problem isə nəticələrin gec çıxmasıdır. MRT olunan xəstələrin cavabı 10 günə bəlli olur. Bu müddətdə nəticəni görməmiş həkim də təyinat verə bilmir. İstər-istəməz həkim-xəstə münasibətlərində gərginlik yaşanır. Bunun da səbəbi yenə xəstələrin lazımsız yerə sıxlıq yaratmalarıdır.

Travmatologiya və ortopediya şöbəsinin müdiri cərrah Sənan Tağıyev 2022-ci ildən Neftçilər Xəstəxanasında çalışır. Sənan həkim deyir:

- Xəstəxanamızda yüksək peşəkarlıqla endoprotezləşmə əməliyyatları, sınıq əməliyyatları, əl cərrahiyyəsinə aid əl kəsik, əl travmalarının, anadangəlmə əl problemlərini cərrahi yolla aradan qaldıra bilən cərrahlarımız fəaliyyət göstərir. Əsas işimiz travma və artoplastika sahəsindədir. Endoprotezləşmə sahəsində ciddi işlər görürük. Əl yaralanması dedikdə yalnız böyük makroskopik yaralanmanı yox, həm də mikroskopik əməliyyatları nəzərdə tuturam. Əldə mikroskopik səviyyədə zədələnmələrin də cərrahi müalicəsini həyata keçirə bilirik. Yəni mikroskopik cihazlarla damarları əməliyyat edirik. Xəstələrimiz, anadangəlmə xəstə doğulanlarımız narahat olmasınlar. Onların xidmətində gecə-gündüz duran, qayğılarını doğmaları kimi çəkən Mərkəzi Neftçilər Xəstəxanası var. Biz tibbin imkanlarından istifadə edib insanlara sağlam həyat bəxş etmək üçün gecəmizi gündüzümüzə qatan həkimlərik.

Bələdçimiz Həqiqət Həmzəyeva ilə palataları gəzirik. Öyrənirik ki, Vətən müharibəsi şəhidi Eltac Mirzəyevin anası və atası burada müalicə alır. Hər ikisi əməliyyat olunub. Şəhid anası Ruhiyyə Hüseynova bizimlə söhbətdə bildirir ki, əməliyyatı gənc həkim Zümrüd Əliyeva həyata keçirib: "Oğlum Xocavəndin azadlığı uğrunda döyüşlərdə şəhid olub. Xəstəxanaya yerləşdiriləndə şəhid valideyni olduğumuzu biləndə xəstəxananın kollektivi bizə daha qayğı ilə yanaşdılar. Təkcə sağlamlığımızı bərpa etməklə kiayətlənmədilər, həm də dərdimizi unutdurmağa çalışdılar. Buradakı qayğını, hörməti görəndə təsəlli tapdıq ki, bu vətən, bu vətənin övladları üçün can verməyə, qan tökməyə dəyər. Bizə təsəlli verən odur ki, bir övlad itirmişiksə əvəzində yüzlərlə qədirbilən övlad, dost qazanmışıq".

Şəhidin atası Füzuli Hüseynov xəstəxanaya ciddi ürək çatışmazlığı ilə müraciət ediyini deyir: "İcabari Tibbi Sığorta hesabına sinəmi yarmadan kiçik bir dəlik vasitəsi ilə İCD əməliyatı keçirdim. Saleh həkim ürəyimə stimilyator yerləşdirdi. Özümü indi çox yaxşı hiss edirəm. Həkimlərimizin qayğısını, diqqətini görüb deyirəm: "Bu vətənə, onun qədirbilən övladlarına da canım qurban".

Digər həmsöhbətimiz isə 1946-ci ildə anadan olmuş xəstə Adilə Bayramovadır. Adilə xanım deyir:

- Mən neftçi olmuşam. Buranı öz doğma evim, həkimləri isə öz övladım bilirəm. 18 il əvvəl məni Laləxanım Hüseynova müalicə edib. O ildən münasibətimiz doğmalaşıb. Vaxtaşırı müalicə alıram. Buradakı səliqə-sahman təmizlik, xəstələrə göstərilən xidmət bəlkə də sanatoriyalarda yoxdur.

Baş tibb bacısı Elmira Xasmetova ilə söhbət daha maraqlı olur. Ötən günləri vərəqləyən Elmira xanım deyir: "42 ildir ki Netçilər Xəstəxanasında çalışıram. Bura bizim ikinci evimizdir. Həyatımızın mənasını da, xoşbəxtliyimizi də xəstələrimizə xidmətdə, onların sağlamlığında və qayğısız həyatında görürük. Elə xəstələrimiz var ki, onlarla illərdir dostluq edirik. Xeyli vaxtdır sağlamlıqlarını bizim xəstəxananın tibbi personalına etibar edirlər. Bu bizi qürurlandırır. Xəstəxanamızın adı ilə fəxr edirik. Burada xidmət etmək hər bir tibb işçisi üçün şərəfdir. Qürur duyuruq ki, bizə müraciət edən xəstələr Mərkəzi Neftçilər Xəstəxanasını həyatın, sağlamlığın ünvanı kimi görürlər".

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV(foto),*
*"Azərbaycan"*

# İsti havalar qida zəhərlənməsi riskini artırır

Yay aylarında temperaturun yüksəlməsi nəticəsində qidalarda bakteriyaların sürətlə çoxalması üçün əlverişli şərait yaranır. Ona görə bu mövsümdə qida qəbuluna, saxlanma qaydasına və istifadə üsullarına diqqət yetirmək lazımdır. Əks halda məhsullar yararsız hala düşür, mikrobioloji çirklənmə nəticəsində qida zəhərlənmələri baş verir.

Qida məhsullarının düzgün mühafizə edilmədən soyuducudan kənar saxlanılması, meyvə-tərəvəzin yuyulmadan istehlak edilməsi qida zəhərlənməsinə səbəb olan əsas amillərdəndir. Tez xarab olan və yararlılıq müddəti az olan qida məhsullarına daha diqqətlə yanaşmaq lazımdır.

## Qidaları 2 saatdan artıq otaq temperaturunda saxlamaq olmaz

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən qida məsələləri üzrə mütəxəssis Ağa Salamovun sözlərinə görə, isti havalarda riskli qidaların saxlanılmasına xüsusi diqqət yetirilməlidir: "İstər ev şəraitində, istərsə də restoran, kafe və market kimi ictimai-iaşə obyektlərində toyuq, balıq, ət və ət məhsulları, süd və süd məhsullarının saxlanma dərəcələri olduqca önəmlidir. Ümumi qida məhsullarının daşınmasında, saxlanmasında, emalında, soyudulmasında, bişirilməsində və yaxud təqdimatında buraxılan kobud səhvlər istehlakçıların zəhərlənməsinə səbəb ola bilər. Alış-veriş edərkən də diqqətli olmaq lazımdır. Şirə salmamış, rəngini, qoxusunu dəyişməmiş ət, qarnı şişməmiş balıq almaq olmaz. Təzə balığın pulları dartdıqda çıxmamalıdır. Soyuducuda, buzun üstündə, suyun içində olan balıq məhsullarını almaq tövsiyə olunur. Açıq havada və Günəş şüaları altında olan ət məhsulları almaq məsləhət görülmür. Bəzi insanlar deyirlər ki, yayda balıq yemək olmaz. Dəniz məhsullarının mövsümi yoxdur. Əgər qida zəncirində qırılma baş verməyibsə, düzgün şərtlər altında saxlanılmış balıqları ilboyu yemək olar. Təbii ki, kürü qoyma vaxtları istisna olunmaqla".

Qida mütəxəssisi bildirib ki, riskli qidalar mikrobioloji çirklənməyə meyilli olduğu üçün onları 2 saatdan artıq otaq temperaturunda saxlamaq olmaz. Ona görə də kəsim yerlərində ət kəsildikdən sonra birbaşa soyuducuya qoyulmalı, istehlakçıya soyuducu şəraitində təqdim olunmalıdır. Zəhərlənməyə səbəb ola biləcək qidaları soyuducularda müsbət 4-5 dərəcəyədək maksimum 72 saat müddətində saxlamaq olar. Ondan sonra bu qidalar mikrobioloji çirklənməyə məruz qalır, yeyilməsi təhlükəli hesab olunur. Əgər ərzaqlar daha uzun müddət mühafizə olunacaqsa, dərin dondurucuda mənfi 18 dərəcədə saxlanılmalıdır. Lakin nəzərə almaq lazımdır ki, istər dərin dondurucuda, istərsə də soyuducuda fərqli növ ət məhsulları, yəni toyuq, balıq və qırmızı ət bir-biri ilə təmas etməməlidir. Belə ki, çarpaz çirklənmə nəticəsində zəhərlənmə baş verə bilər. Dondurucuya qoyulacaq ət və ət məhsullarının bir neçə dəfəlik istifadə üçün paketlənməsi tövsiyə olunur. Bu bakteriya artımının qarşısını alır.

"Qida zəhərlənmələrinin artması istehlakçıların səhlənkarlığı ucbatından da baş verir. Hər meyvə və tərəvəz öz mövsümündə yeyilməlidir. Məsələn, avqustun sonu, sentyabrın əvvəli yetişən qarpızı iyunun əvvəli yeməyə ehtiyac yoxdur. Yay həm də istirahət mövsümüdür. Dənizə gedərkən çox vaxt qidalar avtomobilin yük yerinə yerləşdirilir. İstidə, tıxacda saatlarla qalan riskli qidalar bioloji çirklənmə nəticəsində zəhərlənməyə səbəb olur. İsti havalarda konservləşdirilmiş, mayonezli, souslu və kremli məhsulların istifadəsi minimuma endirilməlidir. Mayonezi zeytun yağı ilə əvəz etmək olar. Bu fəsildə toyuqlu dönərləri yemək isə ümumiyyətlə, tövsiyə olunmur. Diqqət etsək, görərik ki, yayda zəhərlənmələrin çoxu məhz dönərdən olur", - deyə mütəxəssis bildirib.

## Ən təhlükəli hal orqanizmin susuzlaşmasıdır

Qida zəhərlənməsinin ilkin əlamətlərinin halsızlıq, ürəkbulanma, qusma, ishal, təzyiqin düşməsi, nəbzin zəifləməsi, soyuq tər, dəri rənginin ağarması, qarında yaranan köp və tutmaşəkilli ağrılar olduğunu bildirən həkim-toksikoloq Aynur Məmmədova deyir ki, simptomlar, adətən, qida qəbulundan 1-2, bəzən 6-8 saat sonra özünü büruzə verir. Qida zəhərlənmələri mədə-bağırsaq sistemində, qaraciyər, mədəaltı vəzidə xroniki xəstəliyi olanlar, uşaqlar, yaşlılar və hamilələr üçün daha risklidir.

"Sanitar-gigiyena qaydalarına riayət etməmək qida zəhərlənmələrinin əsas səbəblərindəndir. Meyvə-tərəvəzi yaxşı yetişdirmək, yabanı ot və böcəklərdən qorumaq üçün müxtəlif peptisid və toksik maddələrdən istifadə edilir. Bu qida məhsulları yaxşı yuyulmadıqda allergiya və zəhərlənmələr qaçılmaz olur. Meyvə-tərəvəz zəhərlənmələrində ən ağırı, əksər hallarda ölümlə nəticələnəni meşədən, çöldən yığılan göbələklərdir. Marketlərdə, bazarlarda satılan şampinyonlar bioloji çirklənməyə məruz qalmadığı müddətcə zəhərli olmur", - deyə həkim-toksikoloq bildirir.

Aynur Məmmədova qeyd edir ki, qida zəhərlənmələri zamanı ilk yardım olaraq mədə-bağırsaq yuyulmalı, daha sonra xəstəyə aktivləşdirilmiş kömür verilməlidir. Hər 10 kq çəkiyə bir tablet kömürü əzib gündə 3 dəfə su ilə qəbul etmək lazımdır. Zəhərlənmə zamanı ən təhlükəli hal orqanizmin susuzlaşmasıdır. Uşaqlarda su itkisi daha sürətli gedir. Buna görə də qida zəhərlənməsi müşahidə olunan xəstələrə bol su içirilməlidir. Qusma halları gün ərzində 2-3 dəfədən çox olarsa, xəstəxanaya müraciət edilməlidir. Zəhərlənmənin birinci günü xəstəyə hər hansı qida vermək tövsiyə edilmir. Bu həzm sisteminin daha tez bərpasına kömək edəcək. Növbəti günlərdə isə xüsusi pəhriz təyin olunur. Sadə sanitar-gigiyena qaydalarına əməl etməklə, təmizliyi qorumaqla, müəyyən məqamlara diqqət etməklə hər mövsüm qida zəhərlənmələrindən yayınmaq mümkündür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Ata və qardaşları Vətən savaşında, özləri təhsildə nümunədirlər



**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov 2024-2025-ci tədris ilində məzun olan şəhid övladları ilə görüşmüşdür.**

N.Bayramov məzunları təbrik etmiş, onlara gələcək təhsil və həyat yollarında uğurlar arzulamışdır. Bildirmişdir ki, şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımız Azərbaycanın azadlığının, müstəqilliyinin və suverenliyinin simvoluna çevrilmişlər: "Şəhid ailələrinə göstərilən diqqət və qayğı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Şəhid övladları isə yalnız valideynlərinin deyil, bütövlükdə xalqımızın şərəfini və ləyaqətini daşıyırlar. Onların təhsildə, davranışda və vətənpərvərlikdə nümunə olmaları gələcəyimizə olan inamı daha da gücləndirir".

Sonra Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov çıxış edərək qeyd etmişdir ki, 2024-2025-ci tədris ilində Gəncə şəhərində 3758 şagird məzun olub: "Bu məzunlar arasında şəhid övladları da var və onlar bizim qürur mənbəyimizdir. Şəhid övladları məktəbi uğurla bitirməklə valideynlərinin adını uca tutmuşlar".

Elçin Kərimov onu da vurğulamışdır ki, bu il əvvəlki illərlə müqayisədə şagirdlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda, eləcə də müxtəlif olimpiadalarda daha yüksək nəticələr əldə etmişlər. Qeyd edilmişdir ki, 28 nömrəli tam orta məktəbin məzunu, şəhid Asəf Maşıyevin övladı Əliheydər Maşıyev, 44 nömrəli ingilis dili təmayüllü məktəb-lisey kompleksinin məzunu, şəhid Seymur Allahverdiyevin övladı Asudə Allahverdiyeva, eləcə də 8 nömrəli tam orta məktəbin məzunu, şəhid Cavid Əliyevin bacısı Mədinə Əliyeva 2024-2025-ci tədris ilində məktəbi uğurla başa vuraraq tələbə adını qazanmışlar. Hər üç şəhid 2020-ci ildə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmışdır.

Görüşün sonunda məzunlara xatirə hədiyyələri təqdim olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Ölkə üzrə arpa sahələrinin 42,5 faizində biçin başa çatıb

### Hazırda taxıl biçininə 1415 kombayn cəlb edilib

**Respublikanın taxıl zəmilərində biçin davam edir. İyunun 17-nə olan operativ məlumata əsasən, taxıl sahələrinin 21 faizində biçin başa çatıb. Biçin aparılmış 196 064 hektar sahədən 631 824 ton məhsul yığılıb. Hazırda respublikada taxıl üzrə orta məhsuldarlıq 32,2 sent/ha təşkil edir.**

Biçin prosesi əsasən Aran rayonlarının arpa sahələrində aparılır. Bu il respublikada 426 623 hektar sahədə payızlıq arpa əkini həyata keçirilib. Hazırda əkin sahələrinin 42,5 faizində biçin başa çatıb. Arpa üzrə orta məhsuldarlıq 32 sent/ha təşkil edir.

Hazırda 43 rayonda arpa biçini gedir. Cəlilabad, Bərdə, Neftçala, Salyan və Yevlax rayonlarında arpa biçini artıq yekunlaşmaq üzrədir. Bu rayonlarda arpa sahələrinin 90%-dən çoxu biçilib. Arpa üzrə ən yüksək məhsuldarlıq Hacıqabul (40 sent/ha), Bərdə (39,4 sent/ha), Sabirabad (38,7 sent/ha) və Salyan (38,4 sent/ha) rayonlarında qeydə alınıb.

Yaxın günlərdə bölgələrdə buğda biçininə start veriləcək.

İyunun 16-da taxıl biçinində 1415 kombayn iştirak edib. Onlardan 579-u "Aqroservis" ASC-nin, 836-sı isə fiziki və hüquqi şəxslərin mülkiyyətində olan texnikalardır. Hazırda ən çox kombayn Cəlilabad (125), Şəki (116), Neftçala (82) və Kürdəmir (78) rayonlarının taxıl sahələrində biçin aparır.

Arpa biçininin yekunlaşmaqda olduğu və yüksək məhsuldarlıq əldə olunan rayonlardan biri də Sabirabad rayonudur. Bu il Sabirabad rayonunda 20 290 hektar sahədə payızlıq taxıl əkini aparılıb: 10 904 hektar sahədə buğda, 9 387 hektar sahədə isə arpa əkilib. Artıq rayon üzrə arpa sahələrinin 70, taxıl sahələrinin isə 2,3 faizində biçin yekunlaşıb. Arpa üzrə orta məhsuldarlıq 38,7 sent/ha, buğda üzrə isə 43,4 sent/ha təşkil edir.

Biçin prosesinə ümumilikdə 64 kombayn cəlb olunub. Bunlardan 23-ü "Aqroservis" ASC-nin, 41-i isə fiziki və hüquqi şəxslərin mülkiyyətində olan texnikalardır. Biçin növbəlilik prinsipi ilə aparılır. "Aqroservis" ASC tərəfindən tələbata uyğun olaraq biçin aparılmayan bölgələrdən Sabirabad rayonuna kombaynların dislokasiyası həyata keçirilir.

Respublikada taxıl biçininin gedişi ilə bağlı ictimaiyyətin operativ şəkildə məlumatlandırılması davam etdiriləcək.

## Tovuzda taxıl biçininin təşkilinə həsr olunmuş regional müşavirə keçirilib

**Bölgələrdə taxıl biçininə hazırlıq, mövcud vəziyyət və qarşıda duran vəzifələrlə bağlı məlumatlandırma sessiyaları davam edir. Tovuzda keçirilən regional müşavirədə Kənd Təsərrüfatı Nazirliyinin vəzifəli şəxsləri, Tovuz, Qazax, Ağstafa, Göygöl, Gədəbəy və Şəmkir rayonlarının icra hakimiyyəti strukturlarının məsul şəxsləri, Dövlət Aqrar İnkişaf Mərkəzlərinin direktorları, "Aqroservis" ASC-nin məsul şəxsləri və regional nümayəndəliklərinin, rayon bölmələrinin əməkdaşları, texniki nəzarət müfəttişləri, mühəndislər, mexanizatorlar və fermerlər iştirak ediblər.**



Tədbiri giriş sözü ilə açan Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində aqrar sahə öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi bu sahənin inkişafına mühüm təsir göstərir. Taxılçılığın kənd təsərrüfatının aparıcı sahələrindən biri olduğunu xatırladan Məmməd Məmmədov bu sahənin ərzaq təhlükəsizliyinin davamlı təmin olunmasında, o cümlədən heyvandarlığın yem bazasının təşkilində, ərzaqlıq buğda ilə özünütəminat səviyyəsinin yüksəldilməsində mühüm rol oynadığını deyib.

Müşavirədə çıxış edən Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev respublikada taxıl biçininin aktiv mərhələyə qədəm qoyduğunu, əksər rayonlarda aktiv biçin prosesinin getdiyini bildirib. Regional müşavirənin əhatə etdiyi rayonlarda ümumilikdə 31 133 hektar sahədə payızlıq taxıl əkildiyini bildirən AXA rəhbəri, biçinin mütəşəkkil şəkildə, itkisiz başa çatdırılması üçün Nazirlik tərəfindən tədbirlər planı hazırlandığını qeyd edib. Biçin prosesinin optimal müddətdə başa çatdırılması, növbəlilik prinsipinə əməl olunmasının vacibliyini vurğulayan AXA sədri yerli qurumları biçin prosesinin təşkilində meydana çıxa biləcək çətinlikləri aradan qaldırmaq üçün koordinasiyalı fəaliyyətə çağırıb.

Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri Seymur Səfərli taxılçılığın inkişafı istiqamətində görülən kompleks tədbirlərdən danışıb, dövlətin dəstəyi ilə fermerlərin gübrə, maşın və texnika ilə təminatı sahəsində irimiqyaslı tədbirlərin görüldüyünü qeyd edib, bu dəstəyin məhsuldarlığın artmasına müsbət təsir göstərdiyini bildirib. Taxıl toxumçuluğunun təşkili sahəsində görülən işlərdən danışan şöbə müdiri bildirib ki, sertifikatlı toxumdan istifadə olunan və düzgün aqrotexniki qulluq göstərilən sahələrdə əldə olunan orta məhsuldarlıq respublika üzrə orta göstəricidən xeyli yüksəkdir. Seymur Səfərli fermerləri əkin materialı kimi sertifikatlı toxumdan istifadəyə çağıraraq, məhsulun yetişdirilməsi kimi, vaxtında və itkisiz yığılmasının da vacibliyini önə çəkib.

Müşavirədə çıxış edən yerli qurumların nümayəndələri biçin prosesinə hazırlıq dövrü, biçinin təşkilində meydana çıxa biləcək çətinliklərin aradan qaldırılması üçün görülmüş önləyici tədbirlər barədə məlumat veriblər. Qeyd olunub ki, hazırda bölgədə arpa sahələrində aktiv biçin gedir, məhsulun vaxtında və itkisiz yığılması istiqamətində təcili və təxirəsalınmaz fəaliyyət həyata keçirilir.

Müşavirədə tədbir iştirakçıları taxıl biçininin təşkili, mövcud vəziyyət və qarşıda duran vəzifələr barədə ətraflı məlumatlandırılıb, biçin zamanı qarşıya çıxa biləcək çətinliklər, onların həlli yolları müzakirə edilib, fermer və mexanizatorların təklifləri dinlənilib, qaldırılan məsələlərin operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

## Arzusu dünya və Olimpiya çempionu olmaqdır

**Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır. Bu, əsasən ondan irəli gəlir ki, ölkəmizdə idmanın inkişafına xüsusi diqqət yetirilir, o sıradan gənc nəslin idmanın müxtəlif növlərinə olan marağını artırmaq üçün çoxsaylı idman qurğusu istifadəyə verilir, yerli və beynəlxalq tədbirlərdə iştirakçıları təmin edilir.**



Yaşının az olmasına baxmayaraq, artıq xeyli vaxtdır idmanla məşğul olan Eldar Vəlizadə gələcəkdə tanınmış idmançı olmaq üçün əzmlə çalışan və indidən müxtəlif səviyyələrdə keçirilən yarışlarda uğurlara imza atan yeniyetmələrdəndir. 3 yaşı olanda idmana böyük maraq göstərdiyini hiss edən atası Firudin onu Gəncədəki Olimpiya İdman Klubuna gətirərək cüdo üzrə məşqçi Araz Muxtarovun dərnəyinə yazdırıb. Cəmi 4 yaşı olanda - 2017-ci ildə Gəncə Olimpiya İdman Klubunun açıq birinciliyində 1-ci yerə çıxaraq idmanda ilk qələbəsini qazanan Eldar ikinci qələbəsini də tez - cəmi bir il sonra cüdo üzrə şəhər birinciliyində qazanıb. 6 yaşında - 2019-cu ildə isə Şəkidə keçirilən yarışda qalib olub, həmyaşıdlarına nümunə göstərilib.

Eldar məşqçisinin məsləhətlərinə əməl etməklə cüdonun bütün sirlərinə yiyələnməyi qarşısına məqsəd qoyub. O, Gəncədə keçirilən bütün tədbirlərdə fəal iştirak edir. 2019-cu ilin dekabr ayında Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr edilmiş şəhər birinciliyində fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq yarışların diplomunu və medalını alıb. 2020-ci ildə Zəfər gününə həsr edilmiş yarışın da birincisi olan Eldar ən böyük uğurunu 2022-ci ildə qardaş Türkiyədə keçirilən beynəlxalq turnirdə qazanıb. Həmin yarışda erməni idmançıya qalib gələn cüdoçumuz ikinci yerə çıxaraq gümüş medala layiq görülüb. O, həmçinin dəfələrlə Azərbaycan Cüdo Federasiyası tərəfindən keçirilən kəmər dərəcələri üzrə yarışlarda məşqçilərinin ümidlərini doğruldub.

Gəncənin bu kiçik cüdoçusunun gələcəklə bağlı böyük arzuları var. Söhbət zamanı o, dərslərinə də çox ciddi hazırlaşdığını və gələcəkdə ali təhsil almaq arzusunda olduğunu bildirdi. Lakin gələcək karyerasını idmanda gördüyünü söylədi. Çünki həyatını idmansız təsəvvür etmir. Ən böyük arzusu isə dünya və Olimpiya çempionu olmaqdır.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Masallıda biçin xeyriyyə aksiyası ilə davam edir

**Masallı rayonu ərazisində mövsümi taxıl biçininə start verilmişdir. Rayonda bu il də, müxtəlif sahələrdə olduğu kimi, taxıl biçini xeyriyyə aksiyaları ilə başlamışdır.**

Rayon icra hakimiyyətinin təşəbbüsü, Təklə bələdiyyəsinin təşkilatçılığı ilə Xoşçobanlı kəndində kombayn sürücüsü Mahir Əsgərov Vətən müharibəsi şəhidi Həsənağa Bağırovun ailəsinə məxsus 1,5 və ailə başçısını itirmiş aztəminatlı ailənin 0,8 hektar taxıl sahəsini təmənnasız biçmiş, Elxan Şirəliyev isə biçilmiş taxılı yenə də təmənnasız olaraq onların evlərinə daşımışdır.

Rayonunun Təklə kənd inzibati ərazi dairəsində xeyriyyə aksiyası davam edir.

***"Azərbaycan"***

## Lənkəranda barama tədarükünə başlanılıb

**Baramaçılığın kənd təsərrüfatının iqtisadi cəhətdən səmərəli istehsal sahələrindən birinə çevrilməsi ölkəmizdə bu sahəyə marağın artması ilə müşahidə olunur.**

Bunu baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı çərçivəsində ipəkçiliyin müasir infrastrukturunun yaradılması, baramaçılığın yem bazasının formalaşdırılması, barama toxumçuluğunun təşkili istiqamətində həyata keçirilən tədbirlərin müsbət nəticələr verməsi də təsdiqləyir. Baramaçılığın bir üstünlüyü də ondan ibarətdir ki, o, kənd əhalisinin rifah halının yaxşılaşdırılması və məşğulluğunun təmin olunmasında nəzərəçarpaçaq dərəcədə əhəmiyyətə malikdir.



Ölkəmizdə baramaçılıq sahəsində qabaqcıl təcrübə və ənənələrə malik kümçülərin müəyyənləşdirilməsi, tut ipəkqurdularının hər qutusundan məhsuldarlığın yüksəldilməsi hesabına barama istehsalının artımına nail olunması, aqrozootexniki tələblərə uyğun kümxanaların hazırlanması, dezinfeksiya işləri aparılması, ipəkqurduların düzgün bəslənməsi, xəstəliklərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi ilbəil daha səmərəli həyata keçirilir. Bu baxımdan Lənkəran da istisna deyil. Digər regionlarda olduğu kimi, bu rayonda da baramaçılığın dayanıqlı inkişafına xüsusi diqqət göstərilir.

Cari ildə 1 şəhər, 7 qəsəbə və 33 kənddə 45 kümçüyə ümumilikdə 200 qutu ipəkqurdu sənaye toxumu paylanılıb. Artıq rayon üzrə barama tədarükünün ilkin mərhələsi baş tutub. Ümumilikdə 2500 kiloqram barama təhvil verilib və yaxın günlərdə növbəti tədarükün həyata keçirilməsi nəzərdə tutulur.

***S.CAVADOV,***
***"Azərbaycan"***

## Qonaqlar Naftalandakı abadlıq və xidmətlərdən razıdırlar

**Beynəlxalq sağlamlıq şəhəri olan Naftalanda turizm xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə hotel və müalicə mərkəzlərində növbəti rəy sorğusu keçirilmişdir. Azərbaycan, rus və ingilis dillərində hazırlanmış sorğuda 53 faiz yerli, 47 faiz xarici turist iştirak etmişdir.**

Xarici qonaqlar arasında ilk üçlükdə Rusiya Federasiyası, Özbəkistan və Qazaxıstandan gələnlər olmuşlar. 77 faizi 50 yaşdan yuxarı, 20 faiz 30-50 yaş arası, 3 faizi isə 30 yaşa qədər olan turistlərin 44 faizi şəhərə ilk dəfə gələnlərdir. Qonaqların 59 faizi dayaq-hərəkət xəstəliklərindən, 27 faizi revmatik xəstəliklərdən, 14 faizi uroloji və digər xəstəliklərdən əziyyət çəkdiklərini bildirmişdir.

Sorğunun nəticələrindən aydın olmuşdur ki, Naftalan şəhəri yerli və xarici qonaqlarda xoş təəssürat yaradır. Belə ki, şəhərin abad, təmiz və səliqəli saxlanılması sualını 94 faiz turist əla və yaxşı qiymətləndirmişdir. Həmçinin sağlamlıq obyektlərinin xidmət səviyyəsindən 95, qidalanmanın isə yüksək səviyyədə təşkil olunduğu 90 faiz turistin razı qaldığı məlum olmuşdur. Respodentlərin 98 faizi Naftalana yenidən səfər etmək arzusunda olduğunu bildirmişdir.

Sorğunun təşkili və keçirilməsində Naftalan Şəhər İcra Hakimiyyətinin əməkdaşları ilə birgə Dövlət Turizm Agentliyi Gəncə Regional Turizm İdarəsinin əməkdaşları və Goranboy-Naftalan KOB dostu iştirak etmişlər.

***"Azərbaycan"***







# Vətən deyəndə...







*Sənədli hekayə*

# Üçüncü görüş



**Soyuq bir qış günü idi. İki-üç gün dayanmadan yağmış qar göz işlədikcə uzanıb gedən çölləri ağ örpəyə bürümüşdü. Külək yavaşıdığına görə havada soyuqluq o qədər də hiss olunmurdu. Atəş səsləri kəsildiyindən ön xəttə müvəqqəti sakitlik çökmüşdü. Bu sakitliyi hərdənbir uzaqlarda atılan topların gurultusu pozurdu. Yaranmış səssizlikdən istifadə edib, başı buludlara söykənən Fərrux dağının ətəyindəki səngərlərdən geri qayıtmağa hazırlaşırdıq. Yola çıxmaq istəyəndə dağın zirvəsinə boylanan komandir dedi ki, bir az ayaq saxlayaq, dağın başı dumansız olanda yola çıxmaq təhlükəlidir. Açıq havada düşmən bizi görüb vura bilər.**

Erməni gülləsinə tuş gəlməmək üçün gözlədik. Heç nəyə məhəl qoymayan zaman isə hiss olunmadan keçir, vaxtın axınında əriyən dəqiqələr keçmişə doğru sovrulurdu. Yaxşı ki, çox gözləməli olmadıq. Duman qollarını geniş açıb Fərruxun zirvəsini körpə uşaqtəki bağrına basan kimi komandir yola çıxmağımıza göstəriş verdi. Sürücü vaxt itirmədən avtomobilin mühərrikini işə saldı. Təkərlər buzun üstündə bir-iki dəfə yerində fırlanıb irəli dartındı.

Fərruxun ətəyindəki gözəl mənzərələri seyr edə-edə Yuxarı Cinli kəndinin məhəllələrindən keçib üzüaşağı gedirdik. Kənddəki evlərin çoxu düşmənin atdığı mərmilərin təsirindən dağıldığına görə sakinlər gözə az dəyirdi. Gözəlliyi ilə həmişə dünyaya meydan oxuyan bu yerlərdə indi yaşamaq çox təhlükəliydi. Çünki düşmən gülləsi hər an sakinləri yaxalaya bilərdi.

Kənddən çıxandan sonra yarpağı çoxdan tökülmüş üzümlüklərin yaxınlığından keçib aşağıdakı körpüyə tərəf istiqamət götürdük. Elə də geniş olmayan üzümlükdə arıq, ortayaşlı bir qadının işlədiyini gördük. Çox təəccübləndik. Çünki onun işlədiyi sahə düşmənin Fərruxun zirvəsindəki səngərlərindən əl içi kimi görünürdü. Gözlərini qan örtmüş ermənilər hər an qadını vura bilərdilər. O isə bunu bilə-bilə arın-arxayın irigövdəli tənəkləri xırda qol-budaqlardan təmizləyirdi. Biz - hərbçilər əlimizdə silah bayaqdandır Fərruxun zirvəsinə duman gəlməyini gözləyirdik. Bu qadın isə ermənilərin atəş açacağından qorxmadan üzümlükdə işləyirdi. Sanki bu hərəkəti ilə düşmənə meydan oxuyaraq: "Sənin topundan, tüfəngindən qorxmuram", - deyirdi.

Komandirin tapşırığını yerinə yetirən sürücü qadının yaxınlığına çatanda avtomobili saxladı. O, əvvəlcə bizə fikir vermədi. Heç deyəsən, yaxınlığında dayandığımızı da görmədi. Çünki heç yana baxmadan, heç kimə məhəl qoymadan işləyirdi. Komandir baxan kimi qadını tanıdı. Dedi ki, bir neçə gün əvvəl onun qardaşı şəhid olub. Camaatın çoxu kənddən çıxsa da, o, qardaşının məzarını qoyub heç yerə getmir.

Tanış olanda adının Elyana olduğunu öyrəndik. Vaxt darlığından onunla yalnız ayaqüstü söhbət edə bildik. Qadın qardaşının şəhid olduğundan ürəkağrısı ilə danışdı. Dedi ki, ermənilər torpaqlarımıza hücum edən ilk günlərdən böyük qardaşı Nemət "Bu ğun Vətən dardadır, onu düşmənlərdən qorumalıyıq" söyləyərək yurdun müdafiəsinə yollanıb. Neçə-neçə qanlı döyüşdə iştirak edən qardaşı son damla qanınadək vuruşub. Dörd gün əvvəl işğalçıların qarşısını alarkən şəhid olub. "Bu acı xəbəri eşidəndə elə bil göy başıma uçdu. Göz yaşları içində Neməti qanı tökülən torpağa tapşırdıq. Nifrət bəslədiyim ermənilərdən qorxmadığıma görə beləcə, açıq-açığına sahədə işləyirəm. Qoy işğalçılar görsünlər ki, bizim qadınların qeyrəti onların silahından güclüdür".

Qadından ürəkyandıran bu sözləri eşidəndə fikirləşdik ki, Elyananın damarlarından hünəri ilə adını qəhrəmanlıq tariximizə yazmış Tomrisin qanı axır. Erməni işğalçılarına meydan oxuyan bu qadının cəsarəti çoxlarına ibrətamiz nümunə idi. Elyana onu da dedi ki, Nemətin qırxı çıxdıqdan sonra silaha sarılıb döyüşə yollanacaq. Düşmənlərdən qardaşının intiqamını alacaq.

Üzümlükdəki bu təsadüfi görüşün üstündən üç ay keçər-keçməz ermənilər kişi hünərli bu qadının qoynunda dünyaya göz açdığı dədə-baba yurdunu işğal etdilər. Onun soyuq bir qış günündə çalışdığı o üzümlük də, qardaşının məzarı da, evləri də, kəndləri də düşmən tapdağı altında qaldı.

Neçə-neçə aylar, illər hiss olunmadan, səssiz-səmirsiz ötüb keçsə də, Elyananın sonrakı taleyindən xəbər tuta bilmədik. Bilmədik ki, qadın qardaşı Nemətin qırxından sonra silaha sarılıb Qarabağ uğrunda döyüşdümü, yoxsa buna vaxt edə bilmədi? Bəlkə elə Qarabağ uğrunda döyüşə atılan Elyana da şəhid oldu. Kim bilir, bəlkə də o heç döyüşə yollanmadı, hamı kimi doğma ocağından didərgin düşüb ağrı-acılarla dolu köçkünlük həyatı yaşadı. Əgər belədirsə, indi yəqin ki, Elyana kəndlərinə dönəcəyi, qardaşının məzarını ziyarət edəcəyi, ermənilərin söndürdüyü ocaqlarının çırağını yandıracağı günü intizarla gözləyir. Ümid edir ki, günlərin birində həsrət bitəcək. Hamı kimi qadın da o gözəl günlərdə doğma ocaqlarına qayıdıb sevinə-sevinə ata-baba torpaqlarına ayaq basacaq, gözüdolusu Fərrux dağına baxacaq.

İlıq payız günlərindən biri idi. Bərdə rayonunda məskunlaşmış köçkünlərlə görüşə gedirdik. Görüş deyəndə ki, nazirlikdən ayrılmış yardımı siyahı üzrə onlara çatdıracaqdıq. Yola səhər lap ertədən çıxdığımıza görə günortaüstü mənzilbaşına çatdıq. Doğma ocaqlarından didərgin düşmüş insanlar məktəb binasının birinci mərtəbəsində məskunlaşmışdılar. İkinci mərtəbədə isə şagirdlər dərs keçirdilər. Köçkünlərin dözülməz vəziyyəti ürəyimizi ağrıtdı. Geniş otaqlı evlərdə yaşamış bu insanlar indi darısqal otaqlara sığınmışdılar.

Yardımı paylayandan sonra köçkünlər bizi çaya qonaq etdilər. Onlara əziyyət vermək istəməsək də, xətirlərinə dəyməyib sözlərini yerə salmadıq.

Bizə çay verən qadının birinin çöhrəsi də, səsi də tanış gəldi. Elə bil onu nə vaxtsa, hardasa həm görmüş, həm də səsini eşitmişdik. Bəs nə vaxt, harada? Qadını diqqətlə süzə-süzə xəyalən ötən illərin içində dolaşdıq, günləri kitab kimi bir-bir vərəqlədik. Bu vaxt stəkanımızın boşaldığını görən qadın yaxınlaşıb bizdən çay içmək istəyib-istəmədiyimizi soruşdu. Səsini eşitdiyimiz an onu harada və nə vaxt gördüyümüzü xatırladıq. Deməli, insanın göz yaddaşına baxanda səs yaddaşı daha etibarlı imiş. Bu, Elyana idi. O Elyana ki, soyuq bir qış günündə ermənilərin top-tüfəngindən qorxmadan Fərrux dağının ətəyindəki üzümlükdə budama işləri aparırdı. Qardaşı Nemətin ölümündən sonra silaha sarılıb döyüşmək, onun intiqamını düşmənlərdən almaq istəyirdi. Heyrətdən çaşıb nə edəcəyimizi, nə deyəcəyimizi də unutduq. Həyəcandan dilimiz də söz tutmurdu. Buna görə də çay içmək istədiyimizi başımızla işarə etdik.

Az keçmiş qadın əlində çay geri qayıtdı. Artıq həyəcanımızın azaldığına, dilimizin açıldığına görə çayı qarşımıza qoyanda asta səslə ondan soruşduq:

- Bağışlayın, siz Elyana xanım deyilsiniz?

Qadın duruxa-duruxa baxışlarını üzümə zilləyib zəif səslə dedi:

- Bəli, mən Elyanayam, bəs siz kimsiniz?

İllərcə əvvəl bir qış günündə Fərux dağının ətəyindəki üzümlükdə işləyərkən onunla qısa söhbət etdiyimizi dedik. Onu da bildirdik ki, həmin günlərdə qardaşı Nemət Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. O da silaha sarılıb qardaşının döyüş yolunu davam etdirmək istəyirdi.

Dediklərimizi sakitcə dinləyəndən sonra qadın bir anlıq qaşlarını çatıb dərin fikrə getdi. Sanki xəyalların qanadları üstündə o illərə yollandı. Çöhrəsinə qonan təbəssümdən hiss etdik ki, deyəsən, Elyana həmin günü xatırladı. Çünki az keçmiş dərindən ah çəkdi: "Bəli, yadıma düşdü. Getsin o günlər, bir də həyatımızın qapısını döyməsin. Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə həm kəndimizi, həm də qardaşımı itirdik. Nemətin qırxından sonra döyüşə getmək istəsəm də, kiçik qardaşım Şahmar "Biz ölməmişik ki, sən əlinə silah alasan" deyib qoymadı. Bir neçə gündən sonra onun özü döyüşə getdi. Müharibə bütün rahatçılığımızı əlimizdən almışdı. Ermənilər Fərruxun zirvəsindəki mövqelərindən daim kəndimizi atəşə tuturdular. Döyüşə gedəndən iki ay sonra Şahmar ağır yaralandı. Onu xəstəxanaya güclə çatdırdıq. Qardaşımın vəziyyəti yaxşı deyildi, sağ qalmağına ümid az idi. Allah eləməmiş, Nemətdən sonra Şahmarı da itirsəydik, dünya başımıza dar olardı, yaşaya bilməzdik. Nə yaxşı ki həkimlər qadaşımın həyatını xilas etdilər. Bir müddət sonra ermənilər kəndimizi ələ keçirdilər. Həmin gün çox dəhşətli anlar yaşadıq. Aradan uzun illər keçməsinə baxmayaraq, göz yaşlarımız qurumur, yaralarımız sağalmır. Amma ümidimizi də itirməmişik. İnanırıq ki, günlərin birində doğma ocaqlarımıza dönəcəyik".

Hiss etdik ki, bu təsadüfi görüşdən Elyana da həyəcanlanıb. Ona təsəlli verərək dedik: "Bacı, yaman günün ömrü az olar. İnşallah, bir gün gələr, ordumuz Qarabağı düşməndən azad edər, siz də evinizə qayıdarsınız".

Söhbətimiz zamanı hiss etdik ki, köçkünlük həyatı, doğma ocaqlarının nisgili Elyananın dərdinin üstünə dərd gətirib. Bu ağır dərd onun qəddini əyib, gözəl çöhrəsinə qırışlar iz salıb. Hələ heç saçlarının ağarmağını dilə gətirmək istəmirik. Elyananın mehribanlıq duyulan gözlərindən həm yurd həsrəti, həm də qardaş nisgili yağırdı.

Bu təsadüfi görüş yaddaşımızda dərin iz buraxdı. Qadınla sağollaşıb ayrılarkən o, "Gün o gün olsun ki, o gözəl məkanda, Fərrux dağının ətəklərində görüşək" söylədi. Qadının arzusuna qoşularaq "Amin" dedik.

İllər bir-birini əvəz etsə də, cəbhədə vəziyyət dəyişməz olaraq qalırdı. Atəşkəs rejimi acı bağırsaq kimi uzanırdı. Açıq görünən o idi ki, ermənilər işğal etdikləri torpaqları danışıqlar yolu ilə geri qaytarmayacaq. İkiüzlü siyasət yürüdən dünyanın böyük dövlətləri ermənilərin arxasında dayanır, danışıqlarda onların tərəfini saxlayırdılar. Sanki işğalçını öz adı ilə çağırmağa qorxurdular.

Arxalarında dayananlara güvənən ermənilər işğal etdikləri torpaqları qaytarmaq əvəzinə ölkəmizin yeni ərazilərinin qəsbinə hazırlaşırdılar. Çünki işğalçıların əvvəlki müharibədən dişlərinin dibində şirə qalmışdı. Həm bu şirə, həm işğalçılıq iştahası, həm də qəsbkarlıq niyyəti erməniləri yeni müharibəyə həvəsləndirirdi. Bunu çəkinmədən, açıqca deyirdilər də.

Qan qoxulu çirkin məqsədinə çatmaq istəyən ermənilər ılıq bir payız günündə mövqelərimiz üzərinə hücuma keçdilər. Həmin gün xəbər portallarında Qarabağ uğrunda müharibənin yenidən başladığı barədə məlumat yayıldı. Uzun illər susmuş silahlar bütün gücü ilə gurlamağa başladı. Dağlar, dərələr güclü atəş səslərindən diksindi. Döyüşlərin elə ilk günü düşmənin otuz il əvvəlki müharibədən dibində şirəsi qalmış dişləri yaxşıca ovuldu. Qəfil hücumların qarşısı qətiyyətlə alındı. Müharibə başlayar-başlamaz güllələr yağıların üstünə dolu kimi yağdı. Bu güllələrdən işğalçıların murdar bədənləri deşik-deşik oldu. Yeni ərazilər ələ keçirməyə susamış ermənilərin elə ilk döyüşlərdən işğalçılıq planları iflasa uğradı...

Yurdunun azadlığı uğrunda döyüşə atılmış hərbçilər düşmənin qəfil həmlələrini dayandırandan sonra əks-hücuma keçdilər. Elə həmin andan uzun illər erməni işğalında qalmış torpaqların azadlığı uğrunda başlayan müharibə, düşmənin düşündüyü kimi, uzun müddət davam eləmədi. İllərin işğalına son qoyan döyüşlər qırx dörd gün çəkdi. Düşmən tapdağında inləyən torpaqların xeyli hissəsi işğaldan azad olundu. Bir neçə il sonra isə ordu hissələri Qarabağda uğurlu antiterror əməliyyatları keçirdi. Ermənilərin nəzarət etdiyi bütün ərazilər separatçılardan təmizləndi. Yeni ərazilərimizi ələ keçirməyə hazırlaşan düşmən ağ bayraq qaldırdı. Xalqın ürəyində illərdən bəri qubar bağlamış işğal nisgili silindi.

Payız günlərinin birində hekayəmizin qəhrəmanı Elyananın qoynunda dünyaya göz açdığı kənd də qəsbkarlardan təmizləndi. Yuxarı Cinlinin azad olunduğunu eşidəndə neçə illərdən bəri doğma ocağının həsrətini çəkən qadının necə sevindiyini gözlərim qarşısında canlandırdım. Sanki uzaqdan da olsa, sevincimiz bir-birinə qarışdı, qəm süzülən çöhrələrə təbəssüm ələndi.

Həlledici qələbədən sonra erməni işğalından azad olunmuş şəhər və kəndlərdə quruculuq işlərinə başlanıldı. Dövlətin tikdiyi yaşayış məskənləri mərhələ-mərhələ sakinlərə verilirdi. İllərin ayrılığından sonra köçkünlük ağrılarına dözüb sağ qalanlar həyatlarını yenidən qurmaq ümidi ilə geri qayıdırdılar.

Günlərin birində Elyananın qoynunda dünyaya göz açdığı kəndə də köçkünlərin qayıtdığını xəbər verdilər. Eşitdiyimiz şad xəbər bizi çox sevindirdi. Elə sevindirdi ki, sanki köçkünlərlə bərabər, biz də həmin kəndə qayıdacaqdıq. Əgər köçkünlük həyatının ağrı-acılarına dözüb dünyasını dəyişməmişdisə, indi Elyana da sevinə-sevinə öz kəndlərinə dönürdü. Dönən kimi də, əgər ermənilər dağıtmamışdılarsa, yəqin ki, ilk olaraq qardaşı Nemətin məzarını ziyarət edəcəkdi. Məskunlaşandan bir müddət sonra üzümlüklərə üz tutacaq, yenə də onlara sığal-tumar çəkəcək, torpaqla pıçıldaşa-pıçıldaşa onu əkib-becərəcəkdi.

Ürəyimizdən keçirdi ki, günlərin birində Elyanagilin kəndlərinə gedib onunla görüşək. İşimizlə əlaqədar biz də hərdən işğaldan azad olunmuş ərazilərə ezamiyyətə gedirdik. Bir müddətdən sonra rəhbərlikdən xahiş edib həmin bölgəyə ezamiyyət götürdük. Gül-çiçək qoxuyan bir yaz günündə səhər lap ertədən yola çıxdıq. Otuz iki il əvvəl tərk etdiyimiz doğma yerlərə günortaya yaxın çatdıq. Uzaqdan Fərrux dağının göylərə baş çəkən yaşıllığa bürünmüş zirvəsini görəndə özümüzdən asılı olmadan kövrəldik. Ermənilərin kəndləri necə vəhşicəsinə viran qoyduqlarını göz yaşı axıtmadan izləmək mümkün deyildi. Dağıntıların miqyası o qədər çox, o qədər böyük idi ki, Fərrux dağından başqa heç bir yer bizə tanış gəlmirdi. Aman Allah, heç belə də vəhşilik olar?! Otuz iki il əvvəl bu yerlər necə də gözəl və əsrarəngiz idi. İndi o gözoxşayan mənzərələrin yerində xarabalıq qalmışdı.

İrəli getdikcə Fərrux dağının ətəklərində yerləşən Yuxarı Cinli kəndinə yaxınlaşırdıq. Qarşıdakı döngədən sol tərəfə burulan kimi yeni tikilmiş evlər göründü. Bu evlər kəndin əvvəlki görkəmini xeyli dəyişmişdi. Bir anlıq xəyalların qanadında otuz iki il əvvələ qayıtdıq. O zamanlar burada ağır döyüşlər gedirdi. Atəş səsləri yeri-göyü lərzəyə gətirirdi. İndi isə kənddə sakitlik hökmranlıq edirdi. Hər tərəfdə gül gülü, bülbül bülbülü çağırırdı.

Yol gedə-gedə düşünürdüm ki, yəqin yerin-göyün aşıb-daşan bu sevincini, gözəlliyini Elyananın da gözlərində görəcəyik. Güman edirdik ki, qəfil gəlişimiz qadın üçün gözlənilməz olacaq.

Kənddə qarşımıza ilk çıxan saçlarını zamanın ruzigarı ağartmış bir kişidən Elyanagilin evini soruşduq. Qoca bizi başdan-ayağa süzəndən sonra əlini bir az qabağa uzadıb asta səslə dedi: "Bax, bu sıradan üçüncü ev onlarındır". Nişan verilən evə çatanda həyətdə bir oğlanın işlədiyini gördük. Ona salam verib "işin irəli" dedik. Oğlan salamımızı alaraq "Xoş gəlmisiniz" dedi. Bir az çəkinə-çəkinə ondan Elyananı soruşduq. Cavan oğlan bir anlıq duruxub qaldı. Sonra heç kim olduğumuzu da soruşmadan bizi həyətə dəvət etdi. İçəri keçib ağacın kölgəsində qoyulmuş masanın arxasında oturduq. Biz əyləşən kimi o evə getdi. İki-üç dəqiqə keçər-keçməz balaca bir qız sinidə iki stəkan çay gətirib masanın üstünə qoydu. Gözləyirdik ki, bax, elə indi qızın arxasınca Elyana da qapının ağzında görünəcək. Amma görüşmək istədiyim qadın yox, bayaqkı cavan oğlan gəlib qarşımızda oturdu. Yalnız bundan sonra o, Elyananın böyük oğlu İmran olduğunu dedi, utana-utana da bizdən haradan gəldiyimizi, anasını hansı məsələ ilə bağlı axtardığımızı soruşdu. Elyana ilə olan təsadüfi görüşlərimizdən danışmağa başladıq.

Bir də gördük ki, onun yaz buludu kimi dolan gözlərindən yaş axır. Söhbətimizə ara verib ondan ağlamağının səbəbini soruşduq. İmrandan eşitdiyimiz acı xəbər bizi qılınc kimi kəsdi. Böyük sevinc içində görüşünə gəldiyimiz Elyana dünyasını dəyişmişdi. Qırxı da dörd gün əvvəl çıxmışdı.

Göz yaşları içində İmranı qucaqlayıb bağrımıza basdıq, dərin hüznlə ona başsağlığı verdik. Anası doğma ocaqlarına qayıdandan altı ay sonra rəhmətə getmişdi. Ömrünün son çağlarını dünyaya göz açdığı torpaqda yaşamışdı. Oğlunun sözlərinə görə, axır nəfəsində də "Allahımdan çox razıyam. Nə yaxşı ki canımı ata-baba yurdumda tapşırıram" demişdi.

Göz yaşımızı silə-silə İmranla qəbiristanlığa, Elyananın məzarını ziyarət etməyə getdik. Ayaqlarımızı güclə atır, onun məzarını görmək istəmirdik. Uzaq yolu qət edib bu qadınla görüşə gəlmişdik. Amma nə edəsən ki, Elyananın ömrü sona yetmişdi.

Elyananı bir zamanlar döyüş yolunu davam etdirmək istədiyi qardaşı Nemətin yanında dəfn etmişdilər. Başdaşındakı doğum və ölüm tarixlərinə baxanda gördüm ki, qadın bu dünyada cəmi altmış il yaşayıb. Onun da yarıdan çoxunu köçkünlükdə keçirib. Başdaşındakı şəklindən bizə tanış baxışlar boylanırdı. Bu baxışları ilk dəfə otuz iki il əvvəl görmüşdük. Onda Elyana bizə işlədiyi üzümlükdən baxmışdı. Bu gün isə başdaşından baxırdı. Otuz iki il əvvəl bu baxışlar canlıydı. İndi isə bir nöqtəyə zillənmiş vəziyyətdə donub qalmışdı. Təəssüf ki, Elyana ilə üçüncü "görüşümüz" məzarının üstündə oldu.

Nəmli gözlərlə getdiyimiz qəbiristanlıqdan evə nəmli gözlərlə də qayıtdıq. Bizi yola salan İmran dedi: "Qapımız üzünüzə həmişə açıqdır. Nə vaxt yolunuz buradan düşsə, öz eviniz bilin. Gəlişinizdən anamın da ruhu şad olar".

Bir neçə saat əvvəl gözəl ovqatla gəldiyimiz yolu indi kədərli düşüncələrlə geri qayıdırdıq. Bir az qabağa getmişdik ki, kəndə girəndə ilk dəfə üz-üzə gəldiyimiz qocanı gördük. O da bizim kimi bayaq getdiyi yolu geri dönürdü. Bizdən fərqli olaraq, bayaq onun kədərli görünən üzü indi təbəssümə bürünmüşdü. Yəqin, nəsə şad xəbər eşitmişdi. Qoca yenə də bizi başdan-ayağa süzüb yoluna davam etdi.

Otuz iki il əvvəl Elyananı ilk dəfə gördüyümüz üzümlüyün yanından keçəndə özümüzdən asılı olmadan bir anlıq çevrilib o səmtə baxdıq. Yaşıllığa bürünmüş sahədə bir neçə qadın işləyirdi. Onlardan biri bizə çox tanış gəldi. Sanki onu nə vaxtsa, haradasa görmüşdük. Bir az Elyanaya oxşarlığı da var idi...

***Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"***

# Azərbaycan HDQ-nin gəmiləri "Xəzri-2025" birgə taktiki təlimi üçün yola düşüb

Azərbaycan və Qazaxıstan respublikalarının Müdafiə nazirlikləri arasında 2025-ci il üçün imzalanmış birgə fəaliyyət planına əsasən, hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə keçiriləcək "Xəzri-2025" birgə taktiki təlimi üçün Azərbaycan HDQ-nin gəmiləri və şəxsi heyəti Bakıdan yola düşüb.



Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Xəzər dənizinin Qazaxıstan Respublikasına məxsus ərazi sektorunda keçiriləcək birgə taktiki təlimin məqsədi Azərbaycan və Qazaxıstan hərbi dənizçilərinin peşəkarlıqlarının daha da artırılması və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

# Qəhrəmanmaraşlı şəhid ailəsi Qarabağı ziyarət edəcəyinə ümid bəsləyir

**Erməni işğalından azad edilmiş Azərbaycan torpaqlarını ziyarət etmək, qardaş ölkədən olan şəhid ailələri ilə əlaqə yaratmaq ümidindəyik.**



Bu sözləri AZƏRTAC-ın müxbirinə müsahibəsində bir ildən artıqdır ki, İraqın şimalında terrorçularla atışmada həlak olan Türkiyə Silahlı Qüvvələrinin çavuşu Mehmet Ali Horozun yaxınları deyiblər.

Qəhrəmanın böyük qardaşı Fetullah Horoz Türkiyə və Azərbaycanın azadlığı, bütövlüyü və suverenliyi uğrunda canlarından keçən bütün şəhidlərin ailələrinə və yaxınlarına başsağlığı verib.

Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlığın sarsılmaz olduğunu vurğulayan F.Horoz əlavə edib: "Minlərlə qardaşımızın azadlığı uğrunda qanını tökdüyü Qarabağa səfər etmək, Azərbaycandan olan şəhid anaları və ataları ilə görüşmək istərdik. Azərbaycan şəhidləri bizim də qəhrəmanlarımızdır".

O, iki qardaş ölkənin övladlarının öz doğma torpaqlarını, Türkiyə və Azərbaycanın maraqlarını qorumaq əzmi ilə bundan sonra da həmrəy olacaqlarına əminliyini ifadə edib.

Qəhrəmanmaraşlı qəhrəmanın xatirəsi bu gün doğulduğu Onikişubat rayonunun Həsəncikli kəndinin ibtidai məktəbində əbədiləşdirilib, şəhidin evində muzey otağı yaradılıb.

Xatırladaq ki, türk əsgəri ölümündən üç gün əvvəl həlak olacağı təqdirdə Afrika ölkələrindən birinin sakinlərini su ilə təchiz etmək üçün quyu qazmaq xahişi olan video çəkib. Qəhrəmanın vəsiyyətini azərbaycanlı xeyriyyəçi Tural Şahbazlı yerinə yetirib. Onun təşəbbüsü ilə Kamerunun Asiyeba kəndinin sakinlərinin suya ehtiyacını təmin etmək üçün quyu qazılıb.

O bildirib ki, 2023-cü ilin fevral zəlzələlərindən qısa müddət sonra Qəhrəmanmaraşda "Şahbaz" Humanitar Yardım Cəmiyyətini yaradıb və bu qurum vasitəsilə təbii fəlakət zonasının zərərçəkmiş sakinlərinə yardım göstərilir. Həmyerlimiz digərləri ilə yanaşı, şəhid Horozun ailəsinə də vaxtaşırı baş çəkir, qəhrəmanın yaxınlarının ehtiyacları ilə maraqlanır.

Cəmiyyət rəhbəri Qəhrəmanmaraş qəhrəmanının yaxınlarına kömək etməkdən qürur duyduğunu bildirib.

# Şəhid övladları üçün 4-cü "YAŞAT" düşərgəsi başlayıb



"YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı, TABİA Group və "Lankaran Springs Wellness Resort" Hotelin birgə tərəfdaşlığı ilə 4-cü "YAŞAT" düşərgəsinə start verilib. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ümumilikdə 500-dən çox şəhid övladını əhatə edəcək 7 düşərgənin həyata keçirilməsi nəzərdə tutulur. Layihə çərçivəsində hər düşərgədə uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatr tamaşaları, öz sahəsinin peşəkarları, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların qatıldıqları təlimlər, konsultasiyalar keçiriləcək, konsert proqramları təşkil olunacaq.

"Lankaran Springs Wellness Resort" Hotelində baş tutacaq hər bir düşərgə 5 gecə 6 günü əhatə edəcək.

Avqustun sonunadək reallaşdırılacaq düşərgələrdə şəhidlərimizin 10-11, 12-14 , 15-17 yaş kateqoriyasında olan övladları iştirak edəcəklər. Düşərgənin açılış mərasimində "YAŞAT" Fondunun rəhbəri, Qarabağ müharibəsi qazisi Elvin Hüseynov və digər qonaqlar iştirak ediblər. Onlar uşaqlara düşərgə müddətində həyata keçiriləcək təşəbbüslər barədə məlumat verib və uğurlar arzulayıblar.

Düşərgə boyunca uşaqlar sığortalanmış olacaqlar və həkim nəzarəti ilə, həmçinin psixoloqlar tərəfindən müşayiət ediləcəklər. Psixoloqlar tərəfindən terapiyalar, o cümlədən fərdi və kollektiv görüşlər təşkil olunacaq.

Naxçıvanda İğdır-Naxçıvan qaz boru kəməri üzrə paralel auditin yekun hesabatları təqdim edilib

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi AZ-MLSPP-463550-GO-RFB Müqavilə barədə bildiriş

### Parça üzərində çap avadanlığının satın alınması

**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**Layihə:** Məşğulluğa Dəstək Layihəsi
**Müqavilənin adı:** Parça üzərində çap avadanlığının satın alınması
**Ölkə:** Azərbaycan
**Kredit № / Qrant №:** № AZ-9044
**RFQ №:** AZ-MLSPP-463550-GO-RFB

Hazırkı bildiriş Məşğulluğa Dəstək Layihəsi çərçivəsində parça üzərində çap avadanlığının satın alınması ilə bağlı keçirilmiş açıq tender prosesini, qiymətləndirmə nəticələrini və müqavilənin təltif edilməsi məlumatlarını əks etdirir.

Satınalan təşkilat 25 dekabr 2024-cü il tarixində "Azərbaycan" qəzetində və 26 dekabr 2024-cü il tarixində UN Development Business htpp://devbusiness.un.org və "Azerveb" portallarında Təkliflər üçün Sorğu elanı vasitəsilə uyğun iddiaçıları möhürlənmiş tender təkliflərinə dəvət etmişdir. Aşağıdakı iddiaçılar tender sənədlərini əldə etmişlər:

- "Excellent Trade" QSC (Azərbaycan)
- "Endless Goods" QSC (Azərbaycan)
- "Rems" MMC (Azərbaycan)
- "Excelor Holding Group" AD (Bolqarıstan)
- "ZN Trade" MMC (Azərbaycan)
- "Halal-P" MMC (Azərbaycan)

Tender təkliflərinin təqdim edilməsi üçün müəyyən edilmiş son tarix ilkin olaraq 31 yanvar 2025-ci il idi və 10 fevral 2025-ci il tarixinədək uzadılmışdır. Aşağıdakı altı şirkət öz təkliflərini son tarixə, yəni 10 fevral 2025-ci il yerli vaxtla saat 15:00-a qədər təqdim etmişdi:

| No.` | İddiaçı | Elan olunmuş təklif dəyəri | Qiymətləndirilmiş təklif dəyəri |
|---|---|---|---|
| 1` | "Excelor Holding Group" AD (Bolqarıstan) | 394,500 ABŞ dolları | 394,500 ABŞ dolları |
| 2 | "Excellent Trade" QSC (Azərbaycan) | 1,025,715 ABŞ dolları | 1,025,715 ABŞ dolları |
| 3 | "Endless Goods" QSC (Azərbaycan) | 1,106,250 ABŞ dolları | - |
| 4 | "ZN Trade" MMC (Azərbaycan) | 1,071,381 ABŞ dolları | 1,071,381 ABŞ dolları |
| 5 | "Rems" MMC (Azərbaycan) | 1,081,470 ABŞ dolları | - |
| 6 | "Halal-P" MMC (Azərbaycan) | 1,038,000 ABŞ dolları | 1,038,000 ABŞ dolları |

Tender komissiyası yekun qiymət təkliflərini qiymətləndirmiş və ən uyğun qiymət təklifi təqdim etmiş təchizatçı ilə müqavilənin imzalanmasını tövsiyə etmişdir. Uğursuz iddiaçılara tenderin nəticələri haqqında bildirişlər 28 aprel 2025-ci il tarixində göndərilmişdir. Gözləmə müddəti 29 aprel - 13 may 2025-ci il tarixləri arasında tətbiq edilmişdir. Bu vaxt ərzində Layihə İcra Qrupuna heç bir şikayət/aydınlaşdırma sorğusu daxil olmamışdır. Gözləmə müddəti bitdikdən sonra qalib iddiaçıya müqavilə imzalanması barədə bildiriş göndərilmişdir. Keçirilmiş müsabiqə nəticəsində 26 may 2025-ci il tarixində aşağıdakı müqavilə imzalanmışdır:

"Excellent Trade" QSC - Cəmi dəyəri ƏDV daxil - 1,025,715.00 ABŞ dolları (bir milyon iyirmi beş min yeddi yüz on beş ABŞ dolları).

## Ministry of Labor and Social Protection of Population / Employment Support Project AZ-MLSPP-463550-GO-RFB AWARD NOTICE

### Procurement of equipment for printing on fabric

**Purchaser:** Ministry of Labor and Social Protection of Population
**Project:** Employment Support Project
**Contract title:** Procurement of equipment for printing on fabric
**Country:** Azerbaijan
**Loan No. /Credit No. / Grant No.:** No. AZ-9044
**RFQ No:** AZ-MLSPP-463550-GO-RFB

This notice includes the results of the bid evaluation and contract award for the RFB process for the Procurement of equipment for printing on fabric.

The Procuring Agency has invited sealed Bids from eligible Bidders through the announcement for Request for Bids in national newspaper "Azerbaijan" on December 25, 2024, in UN Development Business at htpp://devbusiness.un.org and "Azerweb" portal on December 26, 2024. The following applicants obtained the bidding documents:

- "Excellent Trade" CJSC (Azerbaijan)
- "Endless Goods" CJSC (Azerbaijan)
- "Rems" LLC (Azerbaijan)
- "Excelor Holding Group" AD (Bulgaria)
- "ZN Trade" LLC (Azerbaijan)
- "Halal-P" LLC (Azerbaijan)

The deadline specified for submission of bids initially was January 31, 2025 and extended up to February 10, 2025. The following six companies submitted their bids by the deadline, February 10, 2025, 15:00 (local time)

| No. | Name of Bidder | Bid Price as Read Out | Evaluated Bid Price |
|---|---|---|---|
| 1 | "Excelor Holding Group" AD (Bulgaria) | 394,500 USD | 394,500 USD |
| 2 | "Excellent Trade" CJSC (Azerbaijan) | 1,025,715 USD | 1,025,715 USD |
| 3 | "Endless Goods" CJSC (Azerbaijan) | 1,106,250 USD | - |
| 4 | "ZN Trade" LLC (Azerbaijan) | 1,071,381 USD | 1,071,381 USD |
| 5 | "Rems" LLC (Azerbaijan) | 1,081,470 USD | - |
| 6 | "Halal-P" LLC (Azerbaijan) | 1,038,000 USD | 1,038,000 USD |

The Tender Committee evaluated the final prices and recommended the contract be signed. The notification of tender results was issued to the unsuccessful Bidders on April 28, 2025. The standstill period was applied from April 29 to May 13, 2025. No complaints/clarification requests were received. After expiry of standstill period the Letter of award to successful bidder was issued. The following contract was signed on May 26, 2025:

"Excellent Trade" CJSC - Total cost including VAT - USD 1,025,715.00 (one million twenty-five thousand seven hundred fifteen United States dollars).

## *Donald Tramp:* "Emmanuel həmişə səhv edir"

ABŞ Prezidenti Donald Tramp Kanadada keçirilən G7 sammitini erkən tərk etməsi ilə bağlı Fransa lideri Emmanuel Makronun iddiasını qəti şəkildə təkzib edib. Makron bildirib ki, Amerika lideri Yaxın Şərqdə atəşkəs üzərində işləmək üçün erkən vətənə qayıdıb.



Bundan sonra Amerika lideri fransalı həmkarını "publika axtaran" adlandırıb və bildirib ki, onun Vaşinqtona qayıtmasının səbəbi "daha vacibdir". Bu izahat onun Trampın "Truth Social" sosial şəbəkəsində dərc olunub. "Forbes" jurnalı isə münaqişə haqqında daha ətraflı məlumat verib.

Xatırladaq ki, ABŞ Prezidenti sammiti tərk etdikdən sonra Ağ Evin mətbuat katibi Karolin Levitt rəsmi olaraq bildirib ki, Donald Tramp "bir sıra mühüm məsələlərə diqqət yetirmək üçün" Vaşinqtona qayıdacaq.

Eyni zamanda Fransa lideri Trampın İsraillə İran arasında atəşkəs üçün "təklif" irəli sürdüyünü guman edib. Onun fikrincə, bu, respublikaçının G7 sammitini vaxtından əvvəl tərk etməsinin səbəbi ola bilərdi. Lakin Tramp bu cür bəyanatlara qəti şəkildə cavab verib. ABŞ Prezidentinin dediyinə görə, Makronun fərziyyələri "yanlış" olub, Fransa Prezidentinin onun sammiti niyə tərk etdiyi barədə "heç bir təsəvvürü yoxdur" və əsl səbəb sadəcə döyüşləri dayandırmaqdan "daha vacibdir". O, indi niyə Vaşinqtona qayıtmağımla bağlı heç bir təsəvvürə malik deyil, amma bunun atəşkəslə bağlı heç bir əlaqəsi yoxdur. Daha önəmlidir. Qəsdən və ya yox, Emmanuel həmişə səhv edir. Bizi izləyin!", - deyə Tramp yazıb, lakin qərarının əsl motivlərini açıqlamayıb.

Donald Tramp Rusiyanın keçmiş G8-dən kənarda qalmasının səhv olduğunu bildirib. Onun sözlərinə görə, Vladimir Putin "bundan çox inciyib" və guya bu "səhv"ə görə hazırda Ukraynada müharibə gedir.

Görünür, Trampın adaya müdaxiləsi qarşısında onlarla həmrəylik ifadə etmək üçün Makronun Danimarkanın Baş naziri Mette Frederiksenlə Qrenlandiyaya səfərindən sonra ABŞ lideri Fransa Prezidentini "ağıllandırmaq" qərarına gəlib. Bundan əvvəl o, Qrenlandiyanın "zəbt üçün obyekt olmadığını" vurğulayıb.

Makron həmçinin Trampın Rusiya Prezidenti Vladimir Putinin İsrail və İran arasındakı böhranda vasitəçilik etməsi ideyasını da rədd edib. Eyni zamanda o, Amerika liderini Ukrayna və Yaxın Şərqdə sülhün bərqərar olması üçün öz nüfuzundan istifadə etməyə çağırıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## *Arif ƏSƏDOV:* "İnanıram ki, "Sabah" Sloveniya klubunu məğlub edərək mərhələ adlaya biləcək"

"İnanıram ki, "Sabah" Sloveniya klubunu məğlub edərək mərhələ adlaya biləcək". Bu sözləri AZƏRTAC-a açıqlamasında UEFA-nın Bakıda keçirilən məşqçi kurslarında təlimatçı kimi çalışan Arif Əsədov Avropa Liqasının I təsnifat mərhələsinin püşkünü dəyərləndirərkən deyib.

Mütəxəssis Azərbaycanın turnirdəki yeganə təmsilçisi olan "Sabah"ın Sloveniyanın "Tselye" klubu qarşısında şanslarını qiymətləndirib: "Səbətdə bir çox tanınmış, avrokuboklarda öz sözünü demiş klublar yer almışdı. Həmin komandalar arasında "Tselye" və "Şerif"i nisbətən zəif kollektivlər hesab etmək olar. Heç də pis rəqiblə qarşılaşmayacağıq. Onların oyun üslubunu daha yaxından analiz etdikdən sonra detalları müzakirə etmək olar. "Sabah" da yaxşı təşkilatlanmış komandadır. Ölkə kubokunun sahibi oldular. Avrokuboklarda təcrübələri az da olsa, düşünürəm ki, yaxşı nəticəyə ümid etmək olar".

O, "bayquşlar"ın tez bir zamanda baş məşqçi problemini həll etməli olduğunu söyləyib: "Komandanın hazırda baş məşqçisi yoxdur. Ümumiyyətlə, məşqçi böyük faktordur. Yəqin ki, klub rəhbərliyi tezliklə bu məsələni həll edəcək, çünki ilk oyuna elə də çox vaxt qalmayıb. Komandaya rəhbərlik edəcək çalışdırıcı bu zaman kəsiyində həm kollektivə uyğunlaşmalı, həm də rəqibin oyunlarını təhlil edə bilməlidir. Nə qədər tez olsa, o qədər yaxşı olar. Təmsilçimizə bu yolda uğurlar arzulayıram".

Qeyd edək ki, "Sabah" I təsnifat mərhələsində ilk matçına iyulun 10-da evdə, cavab qarşılaşmasına isə bir həftə sonra səfərdə çıxacaq.

“Sirli Nağıl Uşaq Bağçası” MMC-yə (VÖEN: 1503226801) məxsus 07 dekabr 2016-cı il tarixli İN/L-2231/2016 nömrəli lisenziya və əlavəsi itdiyi üçün etibarsız sayılır.

“Sirli Nağıl” Körpələr Evi Uşaq Bağçasına (VÖEN: 1503226801) məxsus 07 dekabr 2016-cı il tarixli İN/L-2231/2016 nömrəli lisenziya və əlavəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin deputatı Əlibala Məhərrəmzadəyə əzizi

**EYSAN SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İba Həsənov, Mütalib Şirinov, Vahid Alışov, Aydın Məmmədov, Elbrus və Əhmədxan Əhmədovlar, Rasim, Rafiq və Həşim Hüseynovlar, Hacı Məhəmməd Quliyev, Azad Rüstəmov, Şamo Mustafayev və Nurəddin İsmayılov keçmiş iş yoldaşları Fikrət Hüseynova əzizi

**TARİYEL ZİYAFƏT OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3820
Sifariş 1240

Qiyməti 60 qəpik